RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 217 (9384) 6 OKTYABR 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Almaniya Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir



Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

→ 2

## İordaniya ilə əməkdaşlığın genişləndirilməsi Azərbaycan üçün önəmlidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ömər Bərəkət əl-Naharın etimadnaməsini qəbul edib.

→ 2

## Azərbaycan və Səudiyyə Ərəbistanı arasında qardaşlıq əlaqələri yüksək səviyyədədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteylinin etimadnaməsini qəbul edib.

→ 2



# İlham Əliyevin şərtləri

## Sülhün yeganə təminatıdır

**Hələ 3 il əvvəl Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə Qarabağ problemi birdəfəlik həll olundu.**

Ermənistanın və dünya erməniliyinin Qarabağla bağlı saxta iddiaları, status tələbləri 44 günlük savaşda darmadağın edildi. Sentyabrın 19-20-də isə Qarabağdakı separatçı rejimin varlığına son qoyuldu.

Artıq separatçı rejim yoxdur və Qarabağda Azərbaycan dövlətinin hakimiyyəti tam təmin edilib. Qarabağda qalan ermənilər də tədricən Azərbaycan vətəndaşlığını almaq və reinteqrasiya prosesinə qoşulmaq üçün Dövlət Miqrasiya Xidmətinə müraciət edirlər.

→ 2

## MÖHTƏŞƏM 20 İL



## Azərbaycan tarixinin ən böyük sərkərdəsi

### Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etdi

**Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə düşmənə qarşı keçirilmiş döyüş əməliyyatları Müzəffər Ali Baş Komandanımızın qüdrətini, Silahlı Qüvvələrimizin yenilməzliyini bütün dünyaya nümayiş etdirdi.**

Xüsusi vurğulanmalıdır ki, Vətən müharibəsində və ondan sonrakı müddətdə qazandığımız bütün zəfərlərin müəllifi və yaradıcısı, siyasi, diplomatik və hərbi müstəvilərdə atdığı ardıcıl, məqsədyönlü addımlar sayəsində bu qələbələri gerçəkləşdirən, xalqımıza qalibiyyət sevincini yaşadan şəxs - Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevdir!

Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında Azərbaycan Sərhəd Mühafizəsi son 20 il ərzində ciddi inkişaf yolu keçmişdir. Çətin və mürəkkəb, lakin bir o qədər də şərəfli olan bu inkişaf yolu vaxtilə əlçatmaz kimi görünən zirvələrin fəth edilməsi yoludur. Çünki vaxtilə uzaq gələcək kimi qəbul etdiyimiz məsələlər vardı ki, indi onlar artıq günümüzün reallığıdır.

Şimal və şimal-qərb sərhədlərində müasir sərhəd mühafizə infrastrukturunun, sərhəd aviasiyasının, sahil mühafizəsinin yaradılması ilə yanaşı, dövlət sərhədinin mühafizəsində peyk texnologiyalarının tətbiqini, sərhəd məntəqələrində radiolokasiya sistemlərinin, səyyar və stasionar müşahidə və elektron-optik vasitələrin istifadəsini, xidmətdaxili rəqəmsal informasiya sisteminin formalaşdırılmasını mühüm uğur kimi səciyyələndirmək olar.

→ 4

## Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan və Davit İşxanyan...

## Bu cinayətkarlar da artıq Bakı həbsxanasındadırlar

Arayik Harutyunyan tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan Respublikasının ərazilərinin davamlı şəkildə minalanması, cəbhə zonasından kənarda yerləşən, əhalinin sıx məskunlaşdığı Azərbaycan Respublikasının Gəncə şəhəri və Bərdə rayonunun yaşayış məntəqələri və mülki obyektlərini hədəfə alaraq ballistik və digər növ raketlər atılmaqla çoxsaylı mülki şəxslərin öldürülməsi və onlara müxtəlif dərəcəli bədən xəsarətlərinin yetirilməsi, mülki və hərbi infrastruktura ağır nəticələrə səbəb olan ziyan vurulması ilə nəticələnən terror hücumlarının təşkil olunması və digər çoxsaylı cinayətlər törədilməsinə əsaslı şübhələr müəyyən edilib. Cari il oktyabrın 3-də Arayik Harutyunyan Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Xankəndi şəhərində saxlanılıb, ona Cinayət Məcəlləsinin 100, 116, 117, 120, 214, 214-1, 214-3, 218, 279-cu və digər maddələri ilə ittiham elan edilib.

→ 5

### Qisas qiyamətə qalmadı

#### Erməni terrorçular artıq Azərbaycan qanunları qarşısında cavab verirlər

Bu da İlahi ədalətin öz yerini tapmasının daha bir nümunəsidir ki, cinayətkar qondarma rejimin quldur başçısı, Vətən müharibəsi dövründə Gəncə şəhərində və Bərdə rayonunun yaşayış məntəqələrində əli çoxsaylı mülki insanlarımızın qanına batan Arayik Harutyunyan məhz elə Gəncə terrorunun üçüncü ildönümü ərəfəsində həbs olunaraq cinayət məsuliyyətinə cəlb edildi.

→ 5

Arkadi Qukasyan, Bako Sahakyan və Davit İşxanyan 2023-cü il oktyabrın 3-də saxlanılaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.2-ci, 214.2.3-cü (mütəşəkkil dəstə tərəfindən təkrar odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan istifadə etməklə terrorçuluq), 214-1-ci (terrorçuluğu maliyyələşdirmə), 214-3.2-ci (terrorçuluq məqsədi ilə təlimlər təşkil etmə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən təkrar qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, saxlama, daşıma və gəzdirmə) və 279.3-cü (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr və qruplar yaratma və onların fəaliyyətində iştirak etmə) maddələri ilə ittiham elan edilməklə cinayət məsuliyyətinə cəlb olunublar.

→ 6

## Qarışıqlıq salmaq üçün sərf olunan vəsaitlər...

### ABŞ öz planlarını ayrı-ayrı dövlətlərdə demokratiyaya yardım fondları vasitəsi ilə həyata keçirir

USAID-in bu "xoş" niyyəti bizə hələ 2014-cü ildən məlumdur. O zaman USAID tərəfindən Azərbaycanda "müstəqil medianın inkişafı" üçün 2,4 milyon dollar məbləğində qrantın elan olunması bu qurumun respublikamızda pozuculuq cəhdlərinin dəstəklənməsinə hesablanmışdı.

→ 6

## "Şər ittifaqı"na sərt zərbə

### Azərbaycan bu komediyanın tərkib hissəsi ola bilməzdi

→ 7

## Terror əmrini verənlərin sonu

### Cinayətkarları cəzalandıran Azərbaycana heç bir qüvvə mane ola bilməz

→ 5

## Zəfərin Laçın yolu



Uzunluğu təqribən 70 kilometr təşkil edən Laçın şəhərinin daxili yollarının yenidən qurulması mərkəzi küçələrin və məhəllə daxili yolların bərpasından ibarətdir. Küçə və məhəllə daxili yolların eni 4-11 metr arası dəyişir. Layihə çərçivəsində yararsız örtük sökülür, zəruri olan yerlərdə yararsız qrunt qazılaraq çıxarılır, ardınca yararlı materiallardan istifadə olunmaqla əks dolğu işləri icra olunur, yeni yol yatağı və yol əsası inşa edilir. Yol əsası hazır olan hissələrə isə lazımi qalınlıqda yeni asfalt-beton örtüyü döşənir. Artıq bir çox küçə və yollarda sadalanan işlər yekunlaşıb.

→ 7

## Mina "tarlaları" terrorçuların mənfur xislətinin göstəricisidir

→ 7

## Menendezlərin yeni qalmaqalı

### Ermənipərəst senatorun arvadı piyadanın ölümü ilə nəticələnən qəza törədib

→ 9

## Astronavtlar Bakıda özlərinə gənc "həmkar"lar da tapdılar

74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində məktəblilər, tələbələr, şəhidlərin və müharibə iştirakçılarının övladları, xüsusi qayğıya ehtiyacı olan uşaqlar və gənc alimlərin iştirak etdiyi çoxsaylı görüşlər keçirilib. Yeniyetmə və gənclər arasında kosmos sahəsinə, yüksək texnologiyalara marağın artırılması milli kosmik proqramın əsas məqsədlərindəndir.

→ 11

# Almaniya Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir

*Əvvəli 1-ci səh.*

Telefon danışığı əsnasında regional məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Olaf Şolts region ölkələrinin ərazi bütövlüyünə və suverenliyinə Almaniyanın dəstəyini ifadə edib. O vurğulayıb ki, ölkəsi Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin rəhbərliyi ilə aparılan Brüssel prosesini dəstəkləyir. Almaniya Kansleri BMT-nin ölkəmizdəki rezident-əlaqələndirici missiyasının Azərbaycanın Xankəndi şəhərinə səfərinin müsbət bir addım olduğunu deyərək bunu yüksək qiymətləndirib.

Dövlətimizin başçısı Azərbaycanın regional sülh gündəliyinə sadiqliyini və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə aparılan Brüssel prosesini yaxından dəstəklədiyini vurğulayıb.

Prezident İlham Əliyev mərkəzi hökumət tərəfindən Qarabağın erməni sakinlərinə göstərilən humanitar yardımları qeyd edib, miqrasiya, sosial müdafiə sahələri ilə bağlı yerində erməni sakinlərə xidmətlər göstərildiyini deyib, müvafiq qeydiyyat proseslərinin başladığını və bunun üçün də ayrıca portalın müəyyən edildiyini bildirib.

Dövlətimizin başçısı Azərbaycanın bu sahədə təmin etdiyi şəffaflığın nümayişi olaraq, BMT-nin ölkəmizdəki rezident-əlaqələndirici ofisinin və BMT-nin ixtisaslaşmış təsisatlarının nümayəndələrindən ibarət qrupun əraziyə səfər etdiyini bildirib, onların da mülki əhaliyə və mülki-ictimai infrastruktura heç bir ziyanın qeydə alınmadığı ilə bağlı müvafiq bəyanatla çıxış etdiklərini diqqətə çatdırıb.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 avqust tarixli 575 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı tərəfindən dövlət zəmanəti əsasında emissiya ediləcək istiqrazların buraxılması, həcmi, müddəti və ödənilmə şərtləri"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 avqust tarixli 575 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 905; 2016, № 9, maddə 1470; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2282 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı tərəfindən dövlət zəmanəti əsasında emissiya ediləcək istiqrazların buraxılması, həcmi, müddəti və ödənilmə şərtləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissəyə "Təşkilatı" sözündən sonra (bundan sonra - "Aqrarkredit" QSC) sözləri əlavə edilsin.
2. 3-cü hissədə "İstiqrazlar" sözü "Bu Şərtlərin 10-cu hissəsi nəzərə alınmaqla, istiqrazlar" sözləri ilə əvəz edilsin.
3. 4-cü hissənin ikinci cümləsinə "şərtilə" sözündən sonra "bu Şərtlərin 10-cu hissəsinə uyğun olaraq fərqli qayda nəzərdə tutulmadığı halda," sözləri əlavə edilsin.
4. 5-ci hissəyə "bu ödənişlər" sözlərindən əvvəl "bu Şərtlərin 10-cu hissəsinə uyğun olaraq fərqli qayda nəzərdə tutulmadığı halda," sözləri əlavə edilsin.
5. Aşağıdakı məzmunda 10-cu hissə əlavə edilsin:

"10. İstiqrazların bu Şərtlərin 3-5-ci hissələrində nəzərdə tutulan tədavül və ödənilmə müddətləri "Aqrarkredit" QSC tərəfindən istiqraz mülkiyyətçiləri və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla dəyişdirilə bilər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 oktyabr 2023-cü il*

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Türkiyəyə səfər edib

**Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) dəvəti ilə qardaş Türkiyəyə səfər edib.**

Partiyanın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, YAP nümayəndə heyəti oktyabrın 7-də Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə AK Partinin "Türkiyə yüz ili üçün hər zaman yeni, hər zaman irəli" şüarı ilə Ankarada keçiriləcək IV Fövqəladə Böyük Qurultayında iştirak edəcək.

Səfər çərçivəsində nümayəndə heyətinin bir sıra görüşləri də nəzərdə tutulub.

Nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

# İordaniya ilə əməkdaşlığın genişləndirilməsi Azərbaycan üçün önəmlidir

## Azərbaycan Prezidenti İlham Əliyev İordaniyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir, ilk növbədə, İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş etdi.

Azərbaycan ilə İordaniyanın dost və qardaş, zəngin tarixə malik ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu dedi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində hər zaman bir-birini dəstəklədiyini məmnunluqla qeyd etdi.

Siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev gələcəkdə iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğuladı.

Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Ömər Bərəkət əl-Nahar paytaxtımızda gedən böyük inkişaf proseslərinin və insanların firavanlığının onda dərin təəssürat hissi yaratdığını dedi.

Prezident İlham Əliyev Azərbaycan haqqında söylədiyi xoş sözlərə görə səfirə minnətdarlığını bildirdi və ona fəaliyyətində uğurlar arzuladı.

Görüşdə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

# Rəqabət Məcəlləsi sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılmasına imkan yaradacaq



**Oktyabrın 5-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda ilk olaraq "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirə olunub.

Komitə sədri Tahir Mirkişili Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə daxil olan Rəqabət Məcəlləsi layihəsinin Milli Məclisin Sədri Sahibə Qafarovanın dəstəyi ilə parlamentdə geniş ictimai dinləməsinin və müzakirəsinin keçirilməsindən danışıb. O, Rəqabət Məcəlləsi ilə bağlı komitəyə indiyədək 60-a yaxın təklifin daxil olmasını cəmiyyətin, o cümlədən deputatların məcəlləyə olan marağının mühüm göstəricisi kimi dəyərləndirib. Daxil olan təkliflər və onlarla bağlı aparılan işlər barədə məlumat verən komitə sədri istənilən qanunun qəbulu üçün əlverişli mühitin və icra mexanizmlərinin yetişməsinin vacibliyini vurğulayıb.

O bildirib ki, son 20 ildə Azərbaycan iqtisadiyyatında ümumi daxili məhsul 4 dəfə böyüyüb, büdcə gəlirləri 30 dəfədən çox artıb, xarici ticarət dövriyyəmiz 10 dəfə artıb. Təkcə son 5 ildə Azərbaycanda dövlətlə sahibkar arasında etimad mühitinin artırılması istiqamətində kifayət qədər işlər görülüb. O deyib ki, belə bir mühitdə Rəqabət Məcəlləsinin qəbulu böyük uğur vəd edir. Milli Məclisin komitə sədri vurğulayıb ki, məcəllənin məqsədi həm də bazar iqtisadiyyatının 3 mühüm elementindən biri olan rəqabətin təmin olunması ilə iqtisadi inkişafın özəl təşəbbüslərə əsaslanan artım modelini daha da inkişaf etdirməkdir.

İclasda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov iqtisadi inkişafın sürətlənməsi və biznes mühitinin səmərəliliyinin artırılmasında azad rəqabət siyasətinin tətbiqi və antiinhisar fəaliyyəti sahəsində hüquqi çərçivələrin müəyyən edilməsinin vacibliyindən bəhs edib. O, haqsız rəqabətin aradan qaldırılması və onunla barışmaz mübarizənin aparılması ilə bağlı ölkə Prezidentinin hökumətin qarşısına qoyduğu tapşırıqları diqqətə çatdıraraq Rəqabət Məcəlləsinin hazırlanması prosesindən danışıb və bildirib ki, Rəqabət Məcəlləsi hökmran mövqedən sui-istifadənin qarşısının alınmasına və rəqabət neytrallığının təmin olunmasına xidmət etməklə yanaşı, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılmasına da imkan yaradacaq.

Mikayıl Cabbarov diqqətə çatdırıb ki, məcəllə rəqabət mühitinin inkişaf etdirilməsi və institusional bazanın möhkəmləndirilməsi istiqamətində inhisarlaşma meyillərinin iqtisadi fəaliyyətə və dövlət büdcəsinə mənfi təsirlərinin aradan qaldırılmasına imkan verən əhatəli bir hüquqi çərçivə yaradır. Vurğulanıb ki, Rəqabət Məcəlləsi bazarda hökmran mövqedə olan təsərrüfat subyektlərinin inhisarçı meyillərinin qarşısının alınmasının, kartel tipli əlaqələrin müəyyən edilməsinin, təbii inhisarların fəaliyyətinə səmərəli nəzarətin təşkilinin, haqsız rəqabət hallarının aradan qaldırılmasının və dövlət rəqabət nəzarətinin effektiv təşkilinin hüquqi bazasını özündə ehtiva edir.

Ədalətli rəqabətin təmin olunması nəticəsində qiymətlərin azalması və məhsul çeşidinin genişlənməsi imkanlarına diqqət çəkən nazir bu prosesin təkcə dövlət və sahibkarlar üçün deyil, istehlakçılara da faydalı olacağını xüsusi vurğulayıb. O, məcəllədə ölkənin sürətli iqtisadi inkişafına xidmət edəcək tənzimləmə mexanizmləri barədə ətraflı məlumat verib.

Layihənin müzakirəsində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, komitənin üzvləri Vahid Əhmədov, Ziyad Səmədzadə, Vüqar Bayramov, Rüfət Quliyev, Aydın Hüseynov və Məzahir Əfəndiyev çıxış ediblər. Deputatlar məcəllədə anlayışlar sferasının genişləndirilməsi, rəqabət orqanının və komissiyasının təşkili, səlahiyyətləri və hesabatlılığının təmin olunması, rəqabət reyestrinin yaradılması kimi məsələlərlə bağlı fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli və Milli Məclisin komitə sədri Tahir Mirkişili millət vəkillərinin qaldırdıqları məsələlərə aydınlıq gətirəndən sonra "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi haqqında" qanun layihəsi ikinci oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Komitədə həmçinin gündəliyin ikinci məsələsi olan "Lisenziyalar və icazələr haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) nəzərdən keçirilib. Deputatlar bu qanun layihəsini də ikinci oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

***"Azərbaycan"***

# Azərbaycan və Səudiyyə Ərəbistanı arasında qardaşlıq əlaqələri yüksək səviyyədədir

## Azərbaycan Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan arasında qardaşlıq əlaqələrinin və ölkə rəhbərləri ilə arasında dostluq münasibətlərinin olduğunu qeyd edən Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərlərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı bütün dövrlərdə - həm işğal zamanı, həm də torpaqlarımızın işğaldan azad olunmasından sonrakı dövrdə Azərbaycanın ərazi bütövlüyünün qorunması və bərpası məsələlərində Səudiyyə Ərəbistanı Krallığının birmənalı şəkildə göstərdiyi mənəvi və siyasi dəstəyi bir daha yüksək qiymətləndirdi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə qarşılıqlı dəstəyinin ənənəvi xarakter aldığını məmnunluqla qeyd etdi.

İqtisadi əməkdaşlığa toxunan dövlətimizin başçısı enerji sahəsində yaxşı nümunələrin olduğunu bildirərək, Səudiyyə Ərəbistanı şirkətinin Azərbaycanda bu sahəyə böyük sərmayə qoymasının önəmini vurğuladı. Dövlətimizin başçısı bütün digər sahələrdə də əlaqələrimizin yüksək səviyyədə olduğunu dedi.

Səfir İssam bin Saleh əl-Cuteyli, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Kral Salman bin Əbdüləziz Al Səudun və Vəliəhd, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İki Müqəddəs Ocağın Xadiminə və Vəliəhdə çatdırmağı xahiş etdi.

Ölkəmizə səfir təyin olunmasından böyük şərəf hissi duyduğunu deyən İssam bin Saleh əl-Cuteyli Azərbaycanın Səudiyyə Ərəbistanı üçün dost və qardaş ölkə olduğunu vurğulayaraq, müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı konkret təlimatlar aldığını bildirdi.

# "ASAN Könüllüləri" Təşkilatının bir qrup üzvü Milli Məclisdə olub



**Oktyabrın 5-də "ASAN Könüllüləri" Təşkilatının 50-yə yaxın üzvü 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar keçirilən tədbirlər çərçivəsində Milli Məclisdə Ulu Öndər Heydər Əliyevin yaxın silahdaşı olmuş parlamentin İntizam komissiyasının sədri Eldar İbrahimovla görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, görüşdən əvvəl könüllülər Milli Məclisin inzibati binasının foyesində Ulu Öndər Heydər Əliyevin xatirəsinə ucaldılmış abidəni ziyarət ediblər.

Sonra parlamentin plenar iclas zalı ilə tanış olan könüllülərə Milli Məclisin fəaliyyəti haqqında geniş məlumat verilib, qanunvericilik prosesinin həyata keçirilməsinə dair onları maraqlandıran suallar cavablandırılıb.

"Heydər Əliyev adına xatirə zalı"nda könüllülər müasir müstəqil Azərbaycanın qurulmasında müstəsna rol oynamış Ümummilli Liderin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlarla tanış olublar.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış Qələbəyə həsr olunmuş Zəfər Guşəsi ilə tanış olan könüllülərə Milli Məclisin foyesində yaradılmış həmin guşə haqqında məlumat verilib.

Sonra Ulu Öndər Heydər Əliyevin yaxın silahdaşı, deputat Eldar İbrahimovla görüş keçirilib. E.İbrahimov Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin qurulması yolunda həyata keçirdiyi nəhəng işlər barədə danışıb, Ümummilli Liderlə bağlı xatirələrini bölüşüb.

Sonra Eldar İbrahimov Milli Məclisin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə nəşr etdiyi "Heydər Əliyev və Azərbaycan parlamenti" adlı üçcildliyi könüllülərə hədiyyə edib.

Görüşdə iştirak edən parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri, kitabın tərtibçi-redaktoru Mehman Qaibov məlumat verib ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü və məsul redaktorluğu ilə nəşr olunmuş kitabda Heydər Əliyevin 1993-cü ildə Ali Sovetin Sədri olduğu 4 ay ərzində keçirilmiş parlament iclaslarının stenoqramları ilk dəfə oxuculara təqdim olunur. O bildirib ki, gənc nəsillər üçün faydalı olacaq bu nəşrdə bir sıra tarixi məqamlar və fotoşəkillər öz əksini tapıb.

Sonra Milli Məclis tərəfindən hazırlanmış "Heydər Əliyev - zamanın fövqündə" adlı sənədli film barədə məlumat verilib. İdeya müəllifi Milli Məclisin Sədri Sahibə Qafarova olan film barədə məlumat verən ssenari müəllifi Mehman Qaibov qeyd edib ki, filmin hazırlanmasında Milli Məclisin arxiv materiallarından istifadə olunub və Heydər Əliyevin filmdə nümayiş etdirilən bir neçə çıxışı ilk dəfə geniş ictimaiyyətə təqdim edilib.

Sonda "ASAN Könüllüləri" Təşkilatının üzvləri "Heydər Əliyev - zamanın fövqündə" sənədli filmini izləyiblər.

***"Azərbaycan"***

# Ombudsman Aparatı: "Erməniəsilli sakinlərin reinteqrasiyası fonunda Ermənistanda revanşist ideyaların təbliği narahatlıq doğurur"

**Erməniəsilli sakinlərin hüquqlarının təmini və reinteqrasiyası istiqamətində Azərbaycan tərəfinin sürətli addımlar atması fonunda Ermənistanda bəzi dairələr tərəfindən revanşist ideyaların təbliği və azərbaycanofobiya siyasətinin davam etdirilməsi narahatlıq doğurur.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Ombudsman Aparatının açıqlamasında bildirilib.

Vurğulanıb ki, insanların hüquq və azadlıqlarının səmərəli təmini və sülh prosesinin dəstəklənməsi naminə bu cür nifrət motivli təbliğatın qarşısı alınmalıdır.

# Hikmət HACIYEV: "Azərbaycanın Qranada görüşündə iştirak etməməsinin danışıqlardan imtina kimi təqdimatı düzgün deyil"

**"Azərbaycan Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelinin iştirakı ilə aparılan Avropa İttifaqı, Azərbaycan və Ermənistan formatında olan üçtərəfli Brüssel prosesini və regional sülh gündəliyini dəstəkləyir və bu mənada sülh müqaviləsi daxil olmaqla, bir çox sülh təşəbbüslərinin müəllifi məhz Azərbaycandır".**



APA xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" platformasında bildirib.

"Fransanın regionda qərəzli və militarizasiya siyasətinə, Cənubi Qafqazda regional sülh və sabitliyə zərər gətirən və Avropa İttifaqının Cənubi Qafqaz siyasətini risk altında qoyan addımlarına və rəsmi Bakının israrına baxmayaraq, region ölkəsi olaraq qardaş Türkiyənin beşli formatda (Azərbaycan, Ermənistan, Avropa İttifaqı, Fransa və Almaniya) olan görüşdə iştirakına imkan verilməməsinə görə Azərbaycan Qranadada iştirak etməməyə qərar vermişdir. Biz həmçinin ev sahibi olaraq İspaniyanın da bu formatda olan görüşdə iştirakının tərəfdarı idik. Bəzi beynəlxalq media resurslarında bunun Azərbaycanın Ermənistanla təmaslardan və ya danışıqlardan imtina etməsi kimi təqdim edilməsi düzgün deyildir. Azərbaycan Brüsseldə Avropa İttifaqı, Azərbaycan və Ermənistan formatında tezliklə üçtərəfli görüşlərə hazırdır. Azərbaycan tərəfi eyni zamanda Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi və sülh müqaviləsi üzrə birbaşa və ikitərəfli dialoqu və danışıqları dəstəkləyir. Fürsətdən istifadə edərək İspaniyadan olan həmkarlarımızı və dostlarımızı Avropa Siyasi Birliyinin Qranada görüşünü uğurla təşkil etmələri münasibətilə təbrik edirik və Ermənistan-Azərbaycan dialoquna töhfə vermək niyyətlərinə görə təşəkkür edirik", - o qeyd edib.

# Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi ilə BP Eksploreyşn (Kaspian Si) Limited Şirkəti arasında əməkdaşlığa dair protokol imzalanıb



**BP şirkətinin Azərbaycan ofisində Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və BP şirkəti arasında təhlükəsizlik və mühafizə sahəsində qarşılıqlı əməkdaşlıq barədə protokol imzalanıb.**





Sənədi agentliyin rəisi, general-mayor İlqar Abbasov və BP Şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz imzalayıblar. Bununla bağlı keçirilmiş tədbirdə çıxış edən Qəri Counz agentliyin nümayəndə heyətini salamlamış, daim qarşılıqlı əməkdaşlığa görə agentliyin əməkdaşlarına minnətdarlığını bildirmiş, imzalanacaq protokolun şirkətlə agentlik arasındakı münasibətləri yeni və daha yüksək səviyyəyə qaldıracağını qeyd etmişdir. Tədbirdə çıxış edən Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi, general-mayor İlqar Abbasov BP şirkətinin Azərbaycanla tərəfdaşlığının tarixindən bəhs edərək şirkətin ölkəmizdə həyata keçirdiyi layihələrlə Azərbaycanın neft və qaz ehtiyatlarının işlənməsində etibarlı və uzunmüddətli tərəfdaş olduğunu vurğulamışdır. İlqar Abbasov bidirmişdir ki, şirkətin Azərbaycanın neft və qaz sənayesinin inkişafına verdiyi töhfə daima yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən keçən il BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz "Dostluq" ordeni ilə təltif olunmuşdur. O bu münasibətlə bir daha agentlik adından Q.Counzu təbrik etmişdir. İ.Abbasov qısa müddət ərzində agentliyin normativ-hüquqi, maddi-texniki bazasının gücləndirilməsi, mühafizənin təşkili, təhlükəsizlik sahəsində digər dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq sahəsində görülmüş işlər barədə qısa məlumat vermişdir. Agentliyin rəisi Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və BP Eksploreyşn (Kaspian Si) Limited Şirkəti arasında əməkdaşlıq haqqında protokolun ixrac boru kəmərləri və onların infrastruktur obyektlərinin etibarlı mühafizəsinin təmin edilməsində mühüm əhəmiyyət kəsb etdiyini, qarşılıqlı əlaqələri dərinləşdirmək və inkişaf etdirmək niyyətilə imzalandığını və hər iki tərəfin mənafeyinə xidmət edəcəyini bəyan etmişdir. Protokol mühafizə və təhlükəsizlik məsələləri ilə bağlı məlumat mübadiləsinin aparılması, bu sahədə peşəkar kadrların hazırlanması, təkmilləşdirmə və ixtisasartırma kurslarının, treninqlərin, seminarların təşkili və keçirilməsi, baş verə biləcək fövqəladə hadisələrin qarşısının alınması və aradan qaldırılması üzrə birgə taktiki təlimlərin keçirilməsi, maddi-texniki bazanın təkmilləşdirilməsi məqsədilə məsləhətləşmələrin aparılması, ixrac boru kəmərlərinin və onların infrastruktur obyektlərinin təhlükəsizliyi sahəsində qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi məqsədilə SOMDA-nın aidiyyəti vəzifəli şəxslərinin BP şirkətinin neft hasilatında iştirak etdiyi digər ölkələrə tanışlıq xarakterli səfərlərinin təşkili, ixrac boru kəmərləri və onların infrastruktur obyektlərinin təhlükəsizliyinə təsir edə biləcək təhdid və risklərin müəyyənləşdirilməsi məqsədilə aidiyyəti mütəxəssislərin iştirakı ilə hər 6 ayda bir dəfə monitorinqlərin keçirilməsi məsələlərini nəzərdə tutur. Eyni zamanda Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş ixrac neft və qaz boru kəmərləri və onların infrastruktur obyektlərinin məsləhətləşmə və mühafizə zonalarında hüquqi və fiziki şəxslər tərəfindən aparılan fəaliyyətin (kənd təsərrüfatı, yaşayış və qeyri yaşayış binalarının tikintisi, təmiri və sair) onlara verilən müvafiq icazələrin və bp Azərbaycan tərəfindən verilən texniki şərtlərin tələblərinə uyğun həyata keçirilməsinə nəzarətin gücləndirilməsi, sosial yönümlü layihələr sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə zidd olmayan, tərəflərin qarşılıqlı olaraq razılaşdırdıqları hər hansı digər əməkdaşlıq sahələrini əhatə edir.

Tədbirin sonunda Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi ilə mühafizə və təhlükəsizlik sahəsində sıx əməkdaşlığa görə BP Şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, şirkətin Xəzər bölgəsində xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezdenti Bəxtiyar Aslanbəyli və Avrasiya regionu üzrə təhlükəsizlik məsələləri üzrə baş meneceri Kamran Rəcəbliyə agentliyin rəhbəri İlqar Abbasovun 23 avqust 2023-cü il tarixli əmri ilə verilmiş "strateji obyektlərin mühafizəsi orqanlarının yaradılmasının 30 illiyi" yubiley medalı təqdim edilmişdir. Tədbirdən sonra Qəri Counzun dəvəti ilə agentliyin nümayəndə heyəti şirkətin Təhlükəsizlik və Situasiyaların İdarə Edilməsi Mərkəzində olmuş, burada sualtı boru kəmərlərinin mühafizəsinin təmini məqsədilə tətbiq edilən müasir yeni elektron təhlükəsizlik sistemləri, baş verə biləcək böhran, qəza və sairə vəziyyətlərin idarə edilməsi, insan tələfatının qarşısının alınması məqsədilə görülmüş işlər, kibertəhlükəsizlik, logistika, bütövlükdə mühafizə sahəsində müasir texnologiyaların, xüsusilə süni intellektdən istifadə barədə ətraflı məlumat verilmişdir. Həmçinin Qəri Counz yeni neft-qaz lahiyələrinin həyata keçirilməsi zamanı Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi ilə əməkdaşlığın ediləcəyini vurğulamışdır.

*"Azərbaycan"*

# Azərbaycan-İran əlaqələrinin hazırkı durumu və yeni mərhələyə qədəm qoyması üçün atılacaq addımlar müzakirə olunub

**Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfov oktyabrın 4-də İran İslam Respublikasına səfəri çərçivəsində İran Prezidenti Seyid İbrahim Rəisi, Milli Təhlükəsizlik üzrə Ali Şuranın katibi Əli Əkbər Əhmədian və xarici işlər naziri Hüseyn Əmir-Abdullahian ilə görüşlər keçirib.**

AZƏRTAC xəbər verir ki, görüşlərdə Azərbaycan-İran münasibətlərinin hazırkı durumu, həyata keçirilən təmaslar və ikitərəfli əlaqələrin danışıqlar nəticəsində irəli aparılması və yeni mərhələyə keçməsi üçün zəruri olan birgə qarşılıqlı addımların atılması, müvafiq tədbirlərin keçirilməsi müzakirə olunub.

Həmçinin cari il yanvarın 27-də Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə hücum edən terrorçunun məhkəmə tərəfindən ən ağır cəzaya məhkum olunması kontekstində ölkəmizin səfirliyinin fəaliyyətinin bərpası məsələsi müzakirə edilib.

Görüşlərdə eyni zamanda ikitərəfli münasibətlərin inkişaf perspektivlərinə xidmət edən vacib nəqliyyat-kommunikasiya, iqtisadi, eləcə də enerji layihələri ətrafında fikir mübadiləsi aparılıb. Bu layihələrin həyata keçirilməsi ilə bağlı hər iki ölkənin müvafiq qurumlarının sıx əməkdaşlığı təqdir olunub. Bu baxımdan ölkələrimizi birləşdirən Şimal-Cənub Nəqliyyat Dəhlizi, Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan arasında İran ərazisi vasitəsilə yeni kommunikasiya bağlantılarının yaradılması üçün layihələrin həyata keçirilməsi, energetika layihələri, xüsusilə "Xudafərin" və "Qız Qalası" su bəndlərinin istifadəyə verilməsini təmin edən tədbirlərin icrası, habelə Araz çayı üzərində digər enerji layihələri hər iki tərəfdən dəstəklənib.

Müzakirələrdə regional məsələlərə xüsusi diqqət yetirilib. Azərbaycan rəsmisi Ermənistanın və Qarabağ bölgəsindəki separatçı qüvvələrin siyasi və hərbi təxribatlarına son qoymaq, Azərbaycanın suveren ərazisi olan Qarabağ bölgəsini qanunsuz silahlı birləşmələrdən təmizləmək, mülki şəxslərə qarşı təhdidlərə son qoymaq, regionda sülh və əmin-amanlığı bərpa etmək məqsədi daşıyan lokal xarakterli antiterror tədbirləri barədə ətraflı məlumat verib. Bununla yanaşı, İran tərəfi erməni sakinlərin Qarabağ ərazisində sülh və əmin-amanlıq içində yaşamasını təmin edən Azərbaycan Konstitusiyası və qanunları əsasında reinteqrasiya prosesi barədə mərkəzi icra hakimiyyəti orqanlarının həyata keçirdiyi genişmiqyaslı tədbirlər barədə məlumatlandırılıb. Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması və münasibətlərin normallaşdırılmasının regionda təhlükəsizlik və sabitlik üçün mühüm rol oynadığı və bu istiqamətdə region ölkələrinin səylərinin birləşdirilməsinin vacib olduğu bildirilib.

Çoxşaxəli Azərbaycan-İran münasibətləri, o cümlədən hərbi və hərbi-texniki əməkdaşlığın öz növbəsində regionda əmin-amanlıq, etimad və inkişaf məqsədlərinə xidmət etdiyi qeyd olunub.

Görüşlərdə İran tərəfindən bu ölkənin Azərbaycan Respublikası ilə bütün sahələrdə əlaqələri genişləndirmək və inkişaf etdirmək iradəsində olduğu bildirilib.

# XİN: "Bakı Təşəbbüs Qrupunun üzvünün BMT-də Fransanın müstəmləkəçilik siyasətini qətiyyətlə pisləyən çıxışını alqışlayırıq"

**Oktyabrın 4-də Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun nəzdində fəaliyyət göstərən Fransanın müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupunun İdarə Heyətinin Fransız Polineziyasından olan üzvü xanım Ella Tokoraqinin BMT-nin 4-cü Komitəsinin (Xüsusi Siyasi və Dekolonizasiya Komitəsi) iclasındakı Fransanın müstəmləkəçilik siyasətini qətiyyətlə pisləyən çıxışını alqışlayırıq.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda qeyd edilir.

Bildirilir ki, E.Tokoraqinin çıxışında Fransız Polineziyasının müstəmləkəçilikdən azad olması uğrunda mübarizəsini müdafiə etdiyinə görə ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatına minnətdarlığını yüksək qiymətləndirir, bəşəriyyətə qarşı cinayət olan müstəmləkəçiliyə qarşı çıxmağa, Fransa hökumətinin Fransız Polineziyası xalqına qarşı ədalətsizliyinə və bu ölkəyə vurduğu ziyana görə məsuliyyət daşımalı olmasına, kolonializmə və ya neokolonializmə son qoyulmasının beynəlxalq münasibətlərin mərkəzində dayanmalı olmasına dair çağırışlarını dəstəkləyirik.

Qeyd edilən çıxış habelə Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı tədbirin davamı olaraq, Fransanın dənizaşırı ərazilərinin təmsilçiləri ilə əməkdaşlığın dərinləşdirilməsi məqsədilə 2023-cü il sentyabrın 22-də Birləşmiş Millətlər Təşkilatının qərargahında Bakı Təşəbbüs Qrupu tərəfindən təşkil edilmiş "Dekolonizasiya: Sakit İnqilab" adlı konfrans çərçivəsində aparılmış müzakirələr neokolonialist siyasətə qarşı mübarizənin əhəmiyyətini göstərib.

Neokolonializmi hələ də davam etdirən, müstəmləkə siyasəti çərçivəsində insan haqlarına heç bir önəm verməyən ölkələrdən biri kimi Fransanın bu gün özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verməsi riyakarlıqdır. Fransanın heç bir əsası olmayan iddiaları, neokolonist həvəsləri, müstəmləkəçilik arzuları ilə yaşamaqda davam etməsi iflasa məhkumdur. Bu gün Fransanın öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə məsuliyyət daşımaq və tarixdən dərs çıxarmaq əvəzinə Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət və özünün "Orientalizmə" söykənən müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda neokolonialist mənfur təcrübəsini tətbiq etməyə çalışması eyni dərəcədə təhlükəli və qəbuledilməzdir.

Azərbaycan sülhü tərənnüm edən bir ölkə kimi müstəmləkəçilikdən azad olmaq uğrunda mübarizəni həmişə dəstəkləyib, bu istiqamətdə bütün dəstəyini əsirgəməyib, Qoşulmama Hərəkatının sədri qismində müstəmləkəçiliyə qarşı mübarizədə qlobal platforma kimi yeni müstəmləkəçi və neokolonial təcrübələrə qarşı mübarizədə öz prinsipial mövqeyini ortaya qoyub. Ölkəmizin müstəmləkəçiliyə qarşı barışmaz münasibəti bundan sonra da birmənalı olaraq davam edəcək.

# Bakı Təşəbbüs Qrupunun üzvü BMT-nin komitə iclasında Fransanı sərt tənqid edib

**Bakı Təşəbbüs Qrupunun idarə heyətinin Fransız Polineziyasından olan üzvü xanım Ella Tokoraqi BMT-nin 4-cü Komitəsinin iclasındakı çıxışında Fransanın müstəmləkəçilik siyasətini sərt tənqid edib.**

AZƏRTAC xəbər verir ki, o, doğma xalqı ilə həmrəylik nümayiş etdirərək Fransız Polineziyasının müstəmləkəçilikdən azad olması uğrunda mübarizəsini müdafiə etdiyinə görə Qoşulmama Hərəkatına minnətdarlığını bildirib.

Doğma xalqının fransız neokolonializmindən azad olması üçün mübarizəni davam etdirdiyini vurğulayan E.Tokoraqi deyib: "Biz Fransanı ölkəmin gələcəyi üçün ədalətli dialoq aparılması ilə bağlı məsuliyyəti dərk edərək öz mövqeyini açıqlamağa çağırırıq. Biz Fransa hökumətindən bütün təbii resurslarımız, o cümlədən eksklüziv iqtisadi zonamızla bağlı olan dəniz resurslarımız üzərində tam suverenliyimizi tələb edirik. Fransa həyata keçirdiyi 193 nüvə sınağının insanların sağlamlığına və sosial sahəyə vurduğu zərərlərlə bağlı hələ də dolğun və aydın araşdırma aparmayıb. Bəs, Emmanuel Makronun Fransada prezident seçkiləri qabağı qeyd etdiyi kimi, müstəmləkəçilik bəşəriyyətə qarşı cinayət deyilmi? Bəli, müstəmləkəçilik bəşəriyyətə qarşı cinayətdir".

Fransa hökumətinin Fransız Polineziyası xalqına qarşı ədalətsizliyinə və bu ölkəyə vurduğu ziyana görə məsuliyyət daşımalı olduğunu qeyd edən E.Tokoraqi qeyd edib: "Fransa xüsusilə də beynəlxalq hüquqa uyğun olaraq, dünya ictimaiyyətinə rəsmi şəkildə bəyan etməlidir ki, o, bizim resurslarımızı idarə etməyi dərhal dayandırır. Kolonializmə və ya neokolonializmə son qoyulması yeni minillikdə formalaşdırmaq istədiyimiz beynəlxalq münasibətlərin mərkəzində dayanmalıdır".

# Qərbi Azərbaycan İcması Ermənistanı, Aİ-ni, Fransanı və Almaniyanı öz mövqelərinə yenidən baxmağa çağırıb

**Qərbi Azərbaycan İcması İspaniyanın Qranada şəhərində keçirilən görüşdə Ermənistan, Avropa İttifaqı (Aİ), Fransa və Almaniyanın verdikləri bəyanata münasibət bildirib.**

İcmadan AZƏRTAC-a verilən məlumatda qeyd olunub ki, Ermənistan, Aİ, Fransa və Almaniyanın Qranadada verdikləri bəyanat ayrı-seçkilik xarakteri daşıyır.

"Biz, Ermənistandan zorla qovulmuş azərbaycanlıları təmsil edən Qərbi Azərbaycan İcması Ermənistan, Avropa İttifaqı, Fransa və Almaniyanın liderlərinin 5 oktyabr 2023-cü il tarixində İspaniyanın Qranada şəhərində verdikləri ayrı-seçkilik xarakterli bəyanatla bağlı dərin məyusluğumuzu və narahatlığımızı bildiririk. Onlar Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmaq üçün bərabər və legitim hüquqlarını tanımaqdan imtina ediblər. Geri qayıtmaq hüququmuzu inkar edən bu yanlış və birtərəfli bəyanat bizim iztirablarımızı dərinləşdirməklə yanaşı, regionda gərginliyi daha da artırır və davamlı sülhün və barışığın əldə edilməsinə mane olur", - deyə məlumatda qeyd olunub.

Bildirilib ki, Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistana, Aİ-yə və onun üzv dövlətlərinə müraciət edərək, ata-baba torpaqlarımıza təhlükəsiz və ləyaqətlə qayıtmağımıza imkan yaratmağı xahiş edib. Təəssüflər olsun ki, bu müraciətlərimiz biganəlik və sükutla qarşılanıb. Qranadada yaydıqları qərəzli bəyanat ilə Aİ və onun bəzi üzv dövlətləri Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinə faktiki olaraq dəstək veriblər.

"Biz Ermənistanı, Aİ-ni, Fransanı və Almaniyanı öz mövqelərinə yenidən baxmağa və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə öz evlərinə qayıtmaq hüquqlarını tanımağa çağırırıq", - deyə icmanın açıqlamasında bildirilib.



# MÖHTƏŞƏM 20 İL 2003 2023

*Əvvəli 1-ci səh.*



# Azərbaycan tarixinin ən böyük sərkərdəsi

## Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etdi

DSX-nin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində müasir tələblərə cavab verən, Xəzər dənizində mürəkkəb üzmə şəraitində xidməti-döyüş tapşırıqlarını icra etməyə qadir olan "Tufan" və "Şahdağ" tipli sərhəd gözətçi gəmilərinin inşası və DSX-nin tərkibində xüsusi hava əməliyyatları qüvvələrinin yaradılması, PUA-ların effektiv döyüş tətbiqi üzrə Azərbaycan sərhədçilərinin peşəkarlığının əksər xarici dövlətin Silahlı Qüvvələrində etalon kimi qəbul edilməsi bütünlüklə yüksək nailiyyətlərdir.

DSX Akademiyasının və Xüsusi Məktəbinin yaradılması ilə Dövlət Sərhəd Xidmətində mükəmməl hərbi tədris sisteminin formalaşdırılması, xarici dövlətlərin sərhəd mühafizə qurumlarının kursantlarının DSX Akademiyasında təhsil almaları və xarici həmkarlarımızdan bununla əlaqədar müraciətlərin daxil olmasının davam etməsi, eyni zamanda sərhədçilərin sosial-məişət vəziyyətinin, mənzil şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər ötən müddət ərzində qazanılan ciddi müvəffəqiyyətlərdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qərarı ilə 2007-ci ildə Dövlət Sərhəd Xidməti Akademiyasının, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2011-ci ildə DSX-nin tərkibində xüsusi təyinatlı tam orta təhsil müəssisəsinin - Xüsusi Məktəbin yaradılması, Heydər Əliyev Fondunun dəstəyilə zəruri tədris və maddi-texniki baza ilə təchiz edilməsi sayəsində bu illər ərzində Dövlət Sərhəd Xidmətində mükəmməl hərbi təhsil sisteminin formalaşdırılmasına nail olunub. Nəticə etibarilə Xüsusi Məktəbdə 7 il, Akademiyada 4 il olmaqla, cəmi 11 il müddətində Vətəninə, Prezidentinə, dövlətçiliyinə sadiq vətənpərvər sərhədçi zabit heyətinin yetişdirilməsi üçün tam şərait yaradılıb.

Birmənalı olaraq vurğulanmalıdır ki, bütün bu nailiyyətlər Azərbaycan sərhədçilərinə göstərilən ali diqqət və qayğının göstəricisidir. Şəxsi heyət üçün zəruri xidmət və yaşayış şəraitinin yaradılması üzrə müraciət olunan hər bir məsələyə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xüsusi həssaslıqla yanaşıb. Məhz bunun nəticəsidir ki, 2001-ci ildən etibarən Dövlət Sərhəd Xidmətinin bütün sərhəd dəstələrinin qarnizonları, Türkan qəsəbəsində DSX Sahil Mühafizəsinin yeni bazası və yaşayış binaları kompleksi, DSX Akademiyası, Sərhəd Nəzarəti, Səngəçal qəsəbəsində aviasiya bazası, "Sərhədçi" İdman Mərkəzi, Abşeron rayonunun Goradil və Lənkəran rayonunun Vel qəsəbələrində istirahət mərkəzləri inşa edilib, Dövlət Sərhəd Xidməti Aparatının binası əsaslı təmir olunub. Sərhədçilərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında Bakı şəhərində 412 mənzilli yaşayış binaları tikilib, 624 mənzildən ibarət yaşayış şəhərciyinin inşası və güzəştli ipoteka şərtləri ilə DSX əməkdaşlarının mülkiyyətinə verilməsi layihəsi uğurla icra olunub. Respublika miqyasında 154 binadan ibarət 1441 xidməti mənzil tikilərək və ya əsaslı təmir edilərək sərhədçilərin istifadəsinə verilib.

Bu illər ərzində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev DSX-nin hərbi hissə və bölmələrinə 43 dəfə səfər edib. Bu rəqəm təkcə region dövlətləri üçün deyil, dünya miqyasında dövlət başçısı tərəfindən hərbi quruma göstərilən diqqət və qayğının bənzərsiz göstəricisi, sərhəd mühafizəsinə verilən ən yüksək qiymətdir.

Silahlı Qüvvələrimizin, o cümlədən Dövlət Sərhəd Xidmətinin 44 günlük Vətən müharibəsində göstərdiyi ciddi nəticələrin özülünü də məhz Müzəffər Ali Baş Komandanımızın qarşımızda qoyduğu tapşırıqların doğru və dəqiq yerinə yetirilməsi təşkil edir. Bu gün biz böyük qürurla deyə bilirik ki, Vətən müharibəsindən əvvəl, döyüş əməliyyatlarının gedişatı zamanı və müharibədən sonrakı dövrdə qarşıya qoyulmuş bütün tapşırıqlar layiqincə icra olunub.

İşğal altında olan torpaqların düşmən tapdağından azad edilməsinə hazırlıq işləri Dövlət Sərhəd Xidmətində 2005-ci ildən başlanılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında gerçəkləşdirilən mühüm ideya və yanaşmalar Azərbaycan sərhədçilərinin düşmən üzərində böyük zəfərin əldə olunmasında yüksək səviyyəli iştirakına zəmin yaratdı.

Bu sırada şəxsi heyətin Heydər Əliyev dövlətçiliyinə sədaqəti, hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi, təmas xəttinin bilavasitə yaxınlığında xüsusi təyinatlı hərbi bazaların yaradılması, düşmən üzərində hərbi üstünlüyümüzü şərtləndirən əsas amillərdən biri olmuş pilotsuz uçuş aparatlarının alınması və həqiqi döyüş şəraitində effektiv tətbiq olunması üzrə peşəkar vərdişlərin formalaşdırılması xüsusi qeyd edilməlidir. DSX-nin çevik hərəkət qüvvələrinin formalaşdırılması və xüsusi hazırlıqlı peşəkar heyətlə komplektləşdirilməsi, ən yüksək səviyyədə silahlar, döyüş sursatları və hərbi ləvazimatla təchiz oluması, real döyüş təcrübəsinin əldə edilməsinə xüsusilə ciddi önəm verilməsi əsas məqamlardan biri olmuşdur.

2016-cı ilin Aprel döyüşlərində düşmən təxribatına cavab olaraq onun alınmaz hesab etdiyi mövqelərin, dislokasiya yerlərinin, komandadayaq məntəqələrinin, qərargahların bir neçə gün ərzində darmadağın edilməsi zamanı da Dövlət Sərhəd Xidməti qarşısında qoyulmuş bütün döyüş tapşırıqları yüksək səviyyədə icra olundu, o cümlədən "Harop" zərbəendirici pilotsuz uçuş aparatlarının ilk döyüş tətbiqi nəticəsində düşmənə sarsıdıcı zərbələr endirildi.

2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan Sərhəd Mühafizəsinin potensialını və şəxsi heyətinin peşəkarlığını nəzərə alaraq Qazax-Ağstafa rayonları ərazisində Azərbaycan-Ermənistan dövlət sərhədinin mühafizəsini sərhədçilərə həvalə etdi. Müzəffər Ali Baş Komandanımızın bu tapşırığının icrası şərəf borcumuz, fərəh və qürur mənbəyimiz oldu.

Qazax-Ağstafa rayonları ərazisində Azərbaycan-Ermənistan dövlət sərhədi tərəfimizdən mühafizəyə götürüldükdən qısa müddət sonra Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyası formalaşdırıldı, bilavasitə düşmənlə təmas xəttində 89 sərhəd döyüş məntəqəsi, "Qazax" əlahiddə sərhəd diviziyasının qərargah kompleksi də daxil olmaqla 5 hərbi hissə kompleksi tikilərək istifadəyə verildi. Xüsusi əməliyyatlar nəticəsində döyüş mövqelərinin sərhəd xəttinə daha yaxın yerləşdirilməsinə, ərazidəki mühüm strateji yüksəkliklərin ələ keçirilməsinə, müqabil ərazinin böyük bir hissəsinin nəzarətdə saxlanılmasına nail olunmaqla düşmənin yerli sakinlərə qarşı təxribat törətmək imkanlarının qarşısı alındı.

2020-ci ilin sentyabrında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Silahlı Qüvvələrimizə əks-hücum əməliyyatlarına başlanılması barədə döyüş tapşırığı verdi.

Döyüş əmrini alan Dövlət Sərhəd Xidməti dərhal bütün qüvvə və vasitələrini tam səfərbər etdi. İlkin olaraq Azərbaycan sərhədçiləri döyüş əməliyyatlarına Kəlbəcər istiqamətindən başlamalı idilər. Döyüşlər başladıqdan sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev keçirdiyi xidməti-döyüş müşavirəsində böyük sərkərdəlik məharətini nümayiş etdirərək hücum istiqamətimizi dəyişdi, sərhədyanı və Araz çayı boyu hərəkətə keçmək əmrini verdi.

Müzəffər Ali Baş Komandanımızın bu əmrini icra edərək, Füzuli rayonu ərazisindəki təmas xəttindən Ermənistanla dövlət sərhədinədək böyük bir ərazini işğaldan azad etdik. Sutka ərzində 105 kilometr məsafədə ildırımsürətli hücumla düşmənə sarsıdıcı zərbələr endirildi, yüzlərlə canlı qüvvəsi məhv edildi. Qədim Xudafərin körpüsündə, Zəngilan rayonunun Ağbənd qəsəbəsində və Zəngilan şəhərində Dövlət bayrağımızı ucaltdıq, Ermənistanla dövlət sərhədində Bartaz və Şükürataz strateji yüksəkliklərini azad etdik. Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad olunmasında Azərbaycan sərhədçiləri qəhrəmanlıq və igidlik nümunələri göstərdilər.

Vətən müharibəsində ən müasir hərbi texnologiyalardan, kəşfiyyat və zərbəendirici pilotsuz uçuş aparatlarından, Ermənistan ordusu üçün gözlənilməz döyüş üsullarından istifadə edən Silahlı Qüvvələrimiz uzun illər ərzində döyüş hazırlığı sahəsində düşməni xeyli qabaqladığını, yeni döyüş əməliyyatları modelinə yiyələndiyini bütün dünyaya nümayiş etdirdi. Bu müharibə pilotsuz uçuş aparatlarının intensiv tətbiq olunduğu ilk böyükmiqyaslı savaş kimi hərb tarixinə yazıldı.

DSX-nin "Harop," "Quzğun" və "Hermes" pilotsuz uçuş aparatlarının peşəkar tətbiqi nəticəsində düşmənin strateji əhəmiyyətli döyüş texnikaları, zenit-raket kompleksləri, o cümlədən 8 ədəd "S-300" raket kompleksi, tankları, zirehli döyüş maşınları, komanda-idarəetmə məntəqələri, ümumilikdə 291 düşmən hədəfi böyük məharətlə zərərsizləşdirildi. Zəngilan rayonunda Bartaz yüksəkliyinin düşməndən azad edilməsi zamanı çevikçilərimizin atıcı silahlardan açdıqları atəş nəticəsində onların üzərinə həmlə edən düşmənin "SU-25" hərbi təyyarəsi məhv edildi. Havada və döyüş meydanında üstünlüyü tam ələ alan pilotsuz uçuş aparatları sayəsində düşmənin illər boyu güvəndiyi hərbi güc dəmir tullantısına çevrildi. Bu döyüş əməliyyatları zamanı "Harop" və "Bayraktar-TB2" PUA-larının birgə döyüş tətbiqi üzrə unikal hərbi təcrübə formalaşdırıldı.

DSX-nin Vətən müharibəsində tətbiq etdiyi bu yenilik dünya hərb məktəblərində müzakirə olunan mövzular sırasındadır. Öz istismar müddətini başa vurmuş, mənəvi cəhətdən köhnəlmiş "AN-2" təyyarələrinin modernləşdirilərək pilotsuz uçuş aparatı kimi müasir döyüş elementləri sırasına əlavə edilməsi peşəkar hərbi yanaşmanın ifadəsi oldu. Bu təyyarələrin xüsusi tətbiqi nəticəsində düşmənin hava hücumundan müdafiə sistemləri və digər strateji hədəfləri aşkarlanaraq zərərsizləşdirildi.

Ölkə ərazisinin 20 faizinin, o cümlədən İranla dövlət sərhədinin 132 kilometr, Ermənistanla dövlət sərhədinin 500 kilometrədək sahəsinin Ermənistan tərəfindən işğalına son qoyuldu. Azərbaycan tarixinin ən böyük sərkərdəsi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin eyni zamanda bir neçə müstəvidə fədakarcasına apardığı mübarizə, xalqımızın Ali Baş Komandan ətrafında "dəmir yumruq" kimi birləşməsi, Silahlı Qüvvələrimizin hərbi taktiki və strateji üstünlüyü, hərbçilərimizin yenilməz döyüş ruhu 44 günlük müharibədə Ermənistan üzərində parlaq Qələbəni təmin etdi.

Vətən müharibəsində əldə edilmiş şanlı qələbə haqqında danışarkən Müzəffər Ali Baş Komandanımızın ən yaxın silahdaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın böyük rolunu xüsusi qeyd etmək istəyirəm. Döyüş əməliyyatlarının planlaşdırılmasından və gedişatından tutmuş hərbi qulluqçuların təminatı, sağlamlıqlarının mühafizəsi, yaralıların müalicəsi, Şuşada və digər bölgələrimizdə qədim mədəniyyətimizə və tarixi irsimizə aid abidələrin mühafizəsi, mülki vətəndaşların düşmən zərbələrindən qorunması və bu kimi onlarca digər məsələni xüsusi diqqət mərkəzində saxlayan xanım Birinci vitse-prezidentin verdiyi tapşırıqlar və bu istiqamətdə gördüyü işlər böyük Zəfərin əldə olunması üçün son dərəcə əhəmiyyətli oldu.

İşğalçı düşmən qüvvələrinə qarşı böyük əzm və fədakarlıqla döyüşmüş sərhədçilərin döyüş məharəti yüksək qiymətləndirilib, onlar müxtəlif orden və medallarla təltif ediliblər. Döyüş əməliyyatları zamanı rəşadət və şəxsi igidlik nümunələri göstərmiş 12 Azərbaycan sərhədçisi (onlardan 4 nəfər ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, 176 nəfər müxtəlif ordenlərlə, 5203 nəfər isə müxtəlif medallarla təltif olunub.

Vətən müharibəsində Dövlət Sərhəd Xidmətinin 47 hərbi qulluqçusu şəhid olub, 197 nəfər yaralanıb və ya müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Dövlət bayramlarında, şəhidlərin doğum və anım günlərində DSX-nin ali hərbi rütbəli zabitləri tərəfindən şəhid ailələrinə baş çəkilməsi, onların məzarlarının mütləq yad edilməsi təcrübəsi formalaşdırılıb. Qazilərin müalicəsinə, onlara müharibə veteranı adının, sığorta və digər ödənişlərinin alınması üzrə sənədləşmə işlərinin görülməsinə xüsusi diqqət göstərilib, şəhid ailəsi üzvlərinin Dövlət Sərhəd Xidmətində hərbi xidmətə və işə qəbul edilmələrinə, şəhid övladlarının DSX-nin Xüsusi Məktəbinə qəbul olunmalarına tam şərait yaradılıb. Bu günədək 19 nəfər şəhid ailəsi üzvü DSX-yə həqiqi hərbi xidmətə, işə, yaxud təhsil müəssisəsinə qəbul olunub.

Bu gün sərhəddə və səngərdə böyük əzmlə xidmət aparan Azərbaycan sərhədçisi Azərbaycan-Ermənistan sərhədində üçrəngli bayrağımız altında dövlət maraqlarımızı qorumaqdan qürurludur.

Dövlətimizin ərazi bütövlüyü təmin edildikdən, o cümlədən ölkəmizin Ermənistan Respublikası ilə dövlət sərhədi işğaldan azad edildikdən sonra Müzəffər Ali Baş Komandanımızın tapşırığına əsasən, bu ərazilərdə zəruri sərhəd mühafizə infrastrukturunun yaradılması, hərbi qulluqçuların xidməti şəraitinin və sosial təminatının yaxşılaşdırılması üzrə kompleks tədbirlər sürətlə davam etdirilir. İşğaldan azad olunmuş İran İslam Respublikası ilə dövlət sərhədimizdə qısa müddət ərzində sərhəd zastavalarının fəaliyyəti bərpa edilib, Zəngilan, Qubadlı rayonlarından və Laçın rayonunun bir hissəsindən keçən Ermənistanla dövlət sərhədinin mühafizəsi və müdafiəsinin təşkilinə cavabdeh olan 19 yeni hərbi hissə kompleksi, 140 sərhəd-döyüş məntəqəsi, "Eyvazlı" və "Qazançı" dövlət sərhədindən buraxılış məntəqələri inşa olunub. Zəngilan və Füzuli beynəlxalq hava limanlarında sərhəd nəzarəti təşkil edilib.

Dövlət Sərhəd Xidməti tərəfindən işğaldan azad edilmiş ərazilərdə 106 kilometr məsafədə yeni yollar çəkilib, 225 kilometr məsafədə yolların əsaslı və cari təmiri həyata keçirilib, 2456 hektar ərazi mina və partlamamış sursatlardan təmizlənib, 1530 ədəd piyada və 1762 ədəd tank əleyhinə mina, 294 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci ilin 26 aprel, 4 oktyabr, 20 oktyabr, 25 oktyabr tarixlərdə işğaldan azad olunmuş ərazilərdə Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissələrini, cari ilin 7 avqust tarixində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının açılışının etməsini, hərbi hissələrin xidməti-döyüş fəaliyyətinin təşkilini, hərbi qulluqçuların peşəkar və döyüş qabiliyyətinin yüksəldilməsi üçün yaradılmış şəraitlə tanış olmasını Azərbaycan sərhədçiləri böyük ruh yüksəkliyi ilə qarşıladılar. Müzəffər Ali Baş Komandanın "Sərhədçilərimizin ümumi zəfərimizdə rolu çox böyükdür. Mən bunu qiymətləndirirəm" sözləri isə hər birimizə böyük sevinc hissləri yaşatdı.

Xüsusi olaraq vurğulamaq istərdim ki, bu gün bütün dövlət sərhəd xətti boyu, o cümlədən də Ermənistan ilə dövlət sərhədində əməliyyat şəraiti ciddi nəzarətimiz altındadır, sərhəd təhlükəsizliyimizə qarşı yönələ bilən istənilən təhdidin qarşısı qətiyyətlə alınır və bundan sonra da alınacaqdır. Necə ki, 2022-ci il sentyabr ayında sərhəd döyüş məntəqələrimizə qarşı təxribat törədən düşmən Azərbaycan əsgərinin döyüş əzminin, Azərbaycan sərhədçisinin döyüş ruhunun bir daha şahidi oldu. Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonu istiqamətində genişmiqyaslı təxribatının qarşısı qəhrəmancasına alındı, düşmənin canlı qüvvəsi, artilleriya və minaatanla yanaşı, döyüş postları, dayaq məntəqələri, atəş nöqtələri zərərsizləşdirildi. Döyüş əməliyyatları zamanı "Harop" və "Quzğun" zərbəendirici PUA-larının döyüş tətbiqi nəticəsində düşmənə uzaq məsafədən Azərbaycan Respublikasının hava məkanını nəzarətdə saxlamaq imkanı verən 7 ədəd "S-300" sistemi (44 günlük müharibədə isə 8 ədəd məhv edilmişdir), döyüş dəstləri ilə birlikdə 2 ədəd "S-125" kompleksinin idarəetmə stansiyaları, "P-18" radiolokasiya sistemi, R-330 "Jitel" elektron mübarizə mərkəzi və sistemin anten gücləndirici qurğuları, onlarca döyüş məntəqəsi məhv edildi. Dəqiq zərbələr nəticəsində düşmənin hərbi sursat anbarı sıradan çıxarıldı və bu hərbi bazadakı yanğın saatlarca raketlərin və sursatların partlaması ilə müşayiət olundu.

Silahlı Qüvvələrimizin sarsıdıcı zərbələri altında böyük itkilər verdiyini görən və sərhəd-döyüş məntəqələrimizə qarşı hərbi təxribat törətməklə çox ciddi yanlış addım atdığını başa düşən Ermənistanın hərbi-siyasi rəhbərliyi öz havadarları vasitəsilə atəşkəs rejiminin bərpa olunması barədə müraciət etdi.

Xüsusi qürur hissi ilə qeyd etmək istəyirəm ki, 23 aprel 2023-cü il tarixdə saat 12:00-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında "Laçın" dövlət sərhədində buraxılış məntəqəsi qurulmuş və zəruri infrastrukturla təmin edilərək fəaliyyətə başlamışdır. Bu addım 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə atılmışdır.

Bu tarixi hadisəyə ən doğru qiyməti də məhz Müzəffər Ali Baş Komandanımız vermişdir. Cari ilin avqust ayının 26-da "Laçın Şəhəri Günü" bayram tədbirində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: *"Bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulmuşdur. Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik. Nə qədər bizə təzyiqlər oldu, nə qədər hədə-qorxular oldu. Bu gün də davam edir, bu gün də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar. Heç bir şey bizi yolumuzdan döndərə bilməz. 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik, biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq".*

Sentyabrın 19-20-də tariximizin Ən Böyük Sərkərdəsi - Möhtərəm Prezident cənab İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı altında keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində isə ölkəmizin suverenliyi tam bərpa edildi!

Azərbaycan ərazisində erməni separatçılığına son qoyan, xalqımızın və soydaşlarımızın uzun illər böyük həsrətlə gözlədiyi o gün yetişdi - erməni separatçıları ağ bayraq qaldıraraq təslim oldular. Azərbaycan əsgərinin, Azərbaycan zabitinin vətənpərvərliyi, peşəkarlığı və döyüş məharəti qarşısında əlacsız olduqlarını etiraf etməli oldular.

Ermənistan silahlı qüvvələrinin sarsıdıcı məğlubiyyəti ilə sona çatan bu antiterror tədbirlərinin iştirakçısı olan, ümumi qələbəmizə öz töhfələrini verən hər bir Azərbaycan sərhədçisi bu ali missiyanın daşıyıcısı olmaqdan qürurludur! Azərbaycan sərhədçisi bu döyüş əməliyyatında da Ali Baş Komandan tərəfindən qarşıya qoyulmuş bütün tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirərək düşmənin zirehli texnikalarını, radioelektron mübarizə vasitələrini, radiolokasiya sistemlərini, silah-sursat anbarlarını və müdafiə mövqelərini məhv etdi.

Bu Böyük Zəfər bütün dünyaya nümayiş etdirdi ki, xalqının dəstəyinə arxalanan, xalqın sonsuz inamından ilhamlanan sərkərdənin rəhbərlik etdiyi dövlət böyük güclərin müqavimətinə baxmayaraq, öz suverenliyini bərpa etməyə qadirdir!

Azərbaycan əsgərinin yenilməzliyi qarşısında döyüş meydanından qaçmaqdan başqa çarəsi qalmayan erməni separatizminin 21 sentyabr tarixdə BMT-nin Təhlükəsizlik Şurasında aldığı zərbə isə Azərbaycan dövlətinin, şəxsən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin beynəlxalq nüfuzunun növbəti göstəricisi oldu.

Həm hərb meydanında, həm diplomatiya müstəvisində qazanılan bu möhtəşəm və əzəmətli Qələbənin bir adı vardır - İLHAM ƏLİYEV!

Çünki gələcəyə hesablanmış və zərgər dəqiqliyi ilə ölçülmüş strateji qərarları ilə bu qələbəni mümkün edən, ardıcıl, məqsədyönlü və fədakar fəaliyyəti ilə onun gerçəkləşməsini günbəgün yaxınlaşdıran, bu qələbənin altından imzasını atmaqla hər bir azərbaycanlının qəlbində özünə əbədi sevgi və ehtiram məşəlini alovlandıran o şəxsiyyətin adı İLHAM ƏLİYEVDİR!

Bu gün əsgərindən generalınadək hər bir sərhədçi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı altında xidmət etməkdən qürur duyur və bunun məsuliyyətini dərindən dərk edir!

Əminliklə demək olar ki, şanlı üçrəngli bayrağımız altında dövlət sərhədlərinin toxunulmazlığını, müdafiə və mühafizəsini həyata keçirmək şərəfinin daşıyıcısı olan Azərbaycan sərhədçiləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı altında böyük və tarixi zəfərlərin qazanılmasının iştirakçısı olmağa, bu qələbələrə öz töhfələrini verməyə, bunun üçün öz qanlarını və canlarını əsirgəməməyə hər an hazırdırlar!

***Elçin QULİYEV,***
***Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik***

# Qisas qiyamətə qalmadı

## Erməni terrorçular artıq Azərbaycan qanunları qarşısında cavab verirlər





**"Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar".**

Sentyabrın 20-də xalqa müraciəti zamanı Prezident İlham Əliyevin də söylədiyi kimi, milli kimliyimizə düşmən kəsilən, heysiyyətimizlə oynayan cinayətkar separatçılar, bir zamanlar Qarabağda at oynadan qondarma qurumun oyuncaq prezidentləri, deputatları, nazirləri... indi qolları qandallı, başları aşağı halda Azərbaycan qanunları qarşısında cavab vermələri üçün Bakıya gətirilirlər.

Törətdikləri çoxsaylı cinayət əməllərinə görə saxlanılan xuntaçıların siyahısında sabiq "dövlət naziri" Ruben Vardanyan, "Daşnaksütyun" partiyasının "Qarabağ təmsilçisi" və separatçı rejimin keçmiş parlament sədri David İşxanyan, qondarma "Dağlıq Qarabağ Respublikasının Müdafiə Ordusu komandanının birinci müavini" Davit Manukyan, eləcə də qondarma qurumun "prezident"ləri Arkadi Qukasyan, Bako Sahakyan, Arayik Harutyunyan da var...

Bu siyahının daha da uzanacağı, xalqımıza qarşı cinayət əməlləri törədən separatçıların hamısının bir-bir tutularaq layiqli cəzalarını alacaqları zamanın hökmüdür...

### Gəncəlilərin qatili

Bu da İlahi ədalətin öz yerini tapmasının daha bir nümunəsidir ki, cinayətkar qondarma rejimin quldur başçısı, Vətən müharibəsi dövründə Gəncə şəhərində və Bərdə rayonunun yaşayış məntəqələrində əli çoxsaylı mülki insanlarımızın qanına batan Arayik Harutyunyan məhz elə Gəncə terrorunun üçüncü ildönümü ərəfəsində həbs olunaraq cinayət məsuliyyətinə cəlb edildi.

Bu il oktyabrın 3-də Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Xankəndi şəhərində saxlanılan Arayik Harutyunyana Cinayət Məcəlləsinin çoxsaylı maddələri ilə ittiham elan edilib.

DTX-nin bununla bağlı ötən gün yaydığı məlumatda bildirilir ki, istintaq-əməliyyat tədbirləri nəticəsində, həmçinin Arayik Harutyunyan tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan Respublikasının ərazilərinin davamlı şəkildə minalanması, cəbhə zonasından kənarda yerləşən, əhalinin sıx məskunlaşdığı Azərbaycan Respublikasının Gəncə şəhəri və Bərdə rayonunun yaşayış məntəqələri və mülki obyektlərini hədəfə alaraq ballistik və digər növ raketlər atılmaqla çoxsaylı mülki şəxslərin öldürülməsi və onlara müxtəlif dərəcəli bədən xəsarətlərinin yetirilməsi, mülki və hərbi infrastruktura ağır ziyan vurulması ilə nəticələnən terror hücumlarının təşkil olunması və digər çoxsaylı cinayətlər törədilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Hazırda DTX və Baş Prokurorluq tərəfindən zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

### Arayik Harutyunyan Serj Sarkisyanın qanlı yolunu davam etdirirdi

Son iki yüz il ərzində milli düşmənçilik zəminində ard-arda Azərbaycan xalqına qarşı qətliamlar, soyqırımları törədən ermənilər Birinci Qarabağ müharibəsində də bu mənfur əməllərini davam etdirərək xalqımıza qarşı saysız-hesabsız müharibə cinayətləri, Ballıqaya, Ağdaban, Başlıbel kimi faciələr yaşadıblar. 1992-ci il fevralın 26-da Xocalı sakinlərinə qarşı soyqırımı həyata keçirən erməni qatilləri 613 günahsız insanı xüsusi amansızlıqla qətlə yetiriblər. 8 ailəni tamamilə Yer üzündən siliblər. Həmin gün 1275 Xocalı sakini girov götürülüb və erməni cəlladları tərəfindən amansız işgəncələrə məruz qalıblar.

1992-ci ildə Xocalı soyqırımını törədən qüvvələrin komandanlarından olan Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan sonralar Tomas de Vaalın "Qara bağ" kitabında yer alan müsahibəsində insanlıq cinayəti olan bu əməlini fəxr hissi ilə belə dilə gətirib: "Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, onlar elə fikirləşirdilər ki, ermənilər dinc əhaliyə əl qaldırmazlar. Biz o stereotipi sındırdıq".

Erməni faşizminin xalqımıza qarşı qanlı əməlləri bununla da bitmədi və getdikcə daha qabarıq formada özünü göstərməyə başladı.

44 günlük Vətən müharibəsi zamanı dəfələrlə müharibə meydanından kilometrlərlə uzaqda yerləşən şəhər və kəndlərimizin qatil ermənilər tərəfindən raket atəşinə tutularaq terrora məruz qalmasını, mülki vətəndaşlarımızın qətl edilməsini bütün dünya gördü.

Lakin beynəlxalq ictimaiyyət Xocalı hadisələrində olduğu kimi, Ermənistan və separatçıların Gəncədə də soyqırımı törətməsinə, Bərdədə, Tərtərdə və digər yaşayış yerlərimizdə insanlarımızı qətl etməsinə səsini çıxartmadı.

Baxmayaraq ki, uşaq qatili Serj Sarkisyanın davamçısı, qondarma rejimin cinayətkar başçısı Arayik Harutyunyan 2020-ci ildə Gəncə şəhərini vur əmrini verdiyini, Azərbaycanın digər böyük şəhərlərinə də zərbə endirəcəklərini həyasızlıqla, ağzı köpüklənə-köpüklənə, "fəxrlə" videokamera önündə etiraf edib.

Azərbaycan dövləti dəfələrlə Ermənistan və onun himayə etdiyi qondarma qurumun xalqımıza qarşı törətdiyi cinayətləri faktlarla beynəlxalq təşkilatların diqqətinə çatdırıb, lakin bununla bağlı Ermənistana hər hansı sanksiyalar tətbiq edilməyib, qondarma qurumun özünü buraxması ilə bağlı hansısa təzyiqlər edilməyib. Elə bu cəzasızlıq mühitindən yararlanan Ermənistan və separatçılar azərbaycanlılara qarşı cinayət əməllərini davam etdiriblər.

### Əsrlərin qisası

2020-ci ildə torpaqlarını işğaldan azad edən Azərbaycan cəmi üç ildən sonra Qarabağ bölgəsində suverenliyini tam təmin etdi. Dövlətimiz Qarabağda kök salmış quldur yuvasını dağıdaraq kriminal rejimin ünsürlərini də bir-bir cinayət məsuliyyətinə cəlb edir. Əminik ki, Azərbaycan qanunları qarşısında cavab verən cinayətkarlar sırasına Serj Sarkisyan, Robert Koçaryan da qoşulacaq...

Biz illərlə Xocalıda, Ballıqayada, Başlıbeldə, Gəncədə, Bərdədə, Tərtərdə və daha neçə-neçə sadalamadığımız ərazilərdə erməni faşizminin qurbanına çevrilən, başlarına faciələr gətirilən günahsız insanlara, körpələrə, uşaqlara, cavanlara, yaşlılara yandıq, Yer üzündən silinən ailələrin müsibətlərinə, ömrü qundaqda qırılan körpələrin yarımçıq talelərinə ağladıq.

Ürəyimizdə alışan qisas alovu ilə torpaqlarımız uğrunda şəhid olan, əsir, girov götürülərək minbir işgəncəyə məruz qalan soydaşlarımızın qisasını alacağımıza and içdik...

Bəli, indi Azərbaycan xalqı olaraq faşizm ideyalı separatçılardan əsrlərin qisasını aldığımız, onları bir-bir haqq-ədalət divanına çəkdiyimiz fəxrli, qürurlu günlər yaşayırıq.

Qisasımız qiyamətə qalmadı!

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Arayik Harutyunyan cinayət məsuliyyətinə cəlb edilib

### DTX-nin və Baş Prokurorluğun birgə məlumatı

Azərbaycan Respublikasının Qarabağ ərazisində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələrinin törətdikləri sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlərin araşdırılması ilə bağlı başlanmış cinayət işləri üzrə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğu tərəfindən kompleks tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğunun Mətbuat xidmətlərindən daxil olmuş birgə məlumatda bildirilir ki, araşdırmalar zamanı Azərbaycanın Xankəndi şəhərində anadan olmuş, 1973-cü il təvəllüdlü Harutyunyan Arayik Vladimiri tərəfindən Azərbaycan Respublikasının ərazisində qondarma "Dağlıq Qarabağ Respublikasının prezidenti" və digər adlar altında təcavüzkar müharibənin aparılmasında iştirak edilməsi, muzdluların yığılması, onlara təlim keçirilməsi və maliyyələşdirilməsinə, həmçinin onlardan hərbi münaqişədə və hərbi əməliyyatlarda istifadə edilməsinin təşkil olunmasına, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulmasına, silahlı münaqişə dövründə cinayətkar əmr verilməsinə əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, Arayik Harutyunyan tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılmasına və fəaliyyətinin təşkilinə, cinayətkar birlik halında həmin birləşmələrin silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchizinə, bunlardan istifadə hazırlığı üzrə təlimlərin təşkil edilməsinə, eləcə də qaçaqmalçılıq yolu ilə ölkəmizə gətirilməsinə və terrorçuluğun maliyyələşdirilməsinə əsaslı şübhələr müəyyən olunub.

İstintaq-əməliyyat tədbirləri nəticəsində, həmçinin Arayik Harutyunyan tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan Respublikasının ərazilərinin davamlı şəkildə minalanması, cəbhə zonasından kənarda yerləşən, əhalinin sıx məskunlaşdığı Azərbaycan Respublikasının Gəncə şəhəri və Bərdə rayonunun yaşayış məntəqələri və mülki obyektlərini hədəfə alaraq ballistik və digər növ raketlər atılmaqla çoxsaylı mülki şəxslərin öldürülməsi və onlara müxtəlif dərəcəli bədən xəsarətlərinin yetirilməsi, mülki və hərbi infrastruktura ağır nəticələrə səbəb olan ziyan vurulması ilə nəticələnən terror hücumlarının təşkil olunması və digər çoxsaylı cinayətlər törədilməsinə əsaslı şübhələr müəyyən edilib.

Arayik Harutyunyan 2020-ci il oktyabrın 28-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, barəsində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilib.

Cari il oktyabrın 3-də Arayik Harutyunyan Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Xankəndi şəhərində saxlanılıb, ona Cinayət Məcəlləsinin 100, 116, 117, 120, 214, 214-1, 214-3, 218, 279-cu və digər maddələri ilə ittiham elan edilib.

Hazırda Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq tərəfindən zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Terror əmrini verənlərin sonu

## Cinayətkarları cəzalandıran Azərbaycana heç bir qüvvə mane ola bilməz



Qondarma rejimin rəhbər şəxslərinin cinayət məsuliyyətinə cəlb olunması davam edir. Azərbaycan Vətən müharibəsində qalib ölkə olaraq haqqı-ədaləti özü bərpa etdiyi kimi, xalqın başına gətirilmiş soyqırımlarının, qətliamların törədilməsində əli olan, günahsız insanların ölümünə baiskarlıq edən erməni qatillərinin saxlanılaraq cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində atdığı addımlarla ədaləti yenə özü təmin edir.

Son olaraq Qarabağda saxlanılaraq Bakıya gətirilən, üç il öncə müharibə dönəmində cəbhədən uzaqda yerləşən Gəncə şəhərinin vurulması əmrini verdiyini fəxrlə deyən qondarma "Dağlıq Qarabağ"ın "rəhbəri" olmuş Arayik Harutyunyana Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə ittiham elan edilib. Onunla yanaşı, separatçı rejimin başqa ünsürləri də barələrində aparılan cinayət işləri üzrə Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılaraq cinayət məsuliyyətinə cəlb olunublar.

Məsələ ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Sevinc Hüseynova deyib ki, əli günahsız azərbaycanlıların qanına batmış erməni terrorçularının tutularaq Bakıya gətirilməsi Prezident İlham Əliyevin apardığı prinsipial, qətiyyətli və düşünülmüş siyasətin nəticəsidir.

Deputat qeyd edib ki, qatillər Azərbaycan xalqına qarşı törətdikləri ağır cinayətlərə görə qanunlarımız qarşısında cavab verəcək və layiqli cəzalarını alacaqlar: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı ilə ordumuzun şücaəti nəticəsində torpaqlarımız işğaldan azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. İndi iki əsrdən artıq müddətdə "Daşnaksütyun" partiyasının ideologiyasını rəhbər tutaraq azərbaycanlılara, türklərə qarşı insanlığa sığmayan cinayətlər törətmiş canilər, uşaq qatilləri bir-bir tutularaq Bakıya gətirilirlər. Onlar havadarlarına arxalanaraq həmişəlik Xankəndidə qalacaqlarını və törətdikləri cinayətlərinə görə heç vaxt cavab verməyəcəklərini düşünürdülər. Amma indi arxalandıqları havadarları səslərini belə çıxarmırlar. Buna görə də bəzi erməni terrorçular könüllü şəkildə Azərbaycana təslim olacaqlarını bəyan edirlər. Üç il əvvəl oktyabrın 4-də Gəncə terrorunu törədən, şəhərin bombalanması əmrini verdiyini fəxarətlə deyən Arayik Harutyunyanın cinayət məsuliyyətinə cəlb edilməsi də onların yanıldığını bir daha göstərir".




S.Hüseynova bildirib ki, Arayik Harutyunyan üç il sonra bombalama əmrini verdiyi gün Bakıda həbsə düşəcəyini düşünməzdi. Ümumiyyətlə, Arayik kimi bütün cinayətkarlar, terrorçular saxlanılaraq Azərbaycana gətiriləcək və hər biri də öz layiqli cəzasını alacaqlar. Hər kəs anlamalıdır və bilməlidir ki, Azərbaycan suveren dövlətdir və heç bir qüvvə bizimlə diktə dili ilə danışa bilməz. Azərbaycan qüdrətli ölkə olaraq öz müstəqilliyini və ərazi bütövlüyünü hər zaman qorumağa qadirdir.

Deputatın sözlərinə görə, Azərbaycan qanunsuz erməni silahlı birləşmələrinin ərazilərimizdən çıxarılmasını dəfələrlə tələb etsə də, Ermənistan bunun əksinə addım atıb, bu dəstələrə əlavə silahlar göndərərək təxribatların genişlənməsinə rəvac verib. "Ermənistan Azərbaycanın sülh çağırışlarına silahla cavab verirdi. Azərbaycan qanunsuz erməni silahlı birləşmələrinin, separatçıların ərazilərimizdə uzun müddət təxribatlar törətməsinə imkan verə bilməzdi. Beləliklə, məsələni yenə özümüz həll etdik, "dəmir yumruq" ermənilərə yenidən öz yerini göstərdi", - deyə Sevinc Hüseynova əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Arkadi Qukasyan, Bako Sahakyan və Davit İşxanyan...

## Bu cinayətkarlar da artıq Bakı həbsxanasındadırlar










**Azərbaycan Respublikasının Qarabağ bölgəsində fəaliyyət göstərmiş qanunsuz silahlı birləşmələrin ötən müddətdə törətdikləri terrorçuluq əməlləri ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) cinayət işi davam etdirilir.**

DTX-nin Mətbuat xidmətindən bildirilib ki, araşdırmalar zamanı Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki və İşxanyan Davit Rubeni tərəfindən Azərbaycan Respublikası ərazisində müvafiq olaraq qondarma "Dağlıq Qarabağ Respublikasının prezidentləri" və "prezidenti vəzifəsinin müvəqqəti icraçısı" və digər adlar altında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılması və fəaliyyətinin təşkilinə, habelə idarələrə, təşkilatlara və ayrı-ayrı şəxslərə insanların həlak olmasına və digər ağır nəticələrə səbəb olan basqınlar təşkil edən həmin qanunsuz silahlı birləşmələrin silah, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchiz edilməsinə, mütəşəkkil dəstə halında qanunsuz olaraq odlu silah, onun komplekt hissələrinin, döyüş sursatı, partlayıcı qurğular əldə edilməsinə, başqasına verilməsinə, saxlanılmasına, daşınmasına və gəzdirilməsinə, pul vəsaitlərini və digər əmlakı tamamilə və qismən, bilavasitə və dolayısı ilə həmin qanunsuz silahlı birləşmələrin terror aktları törətməsi istiqamətində istifadə edəcəyini bilərək həmin məqsədlə qəsdən toplamaq, ayırmaq və verməklə terrorçuluğun maliyyələşdirilməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Eləcə də qeyd olunan şəxslər tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan Respublikasının ərazisində həmin əməllərin törədilməsi üsulları, odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan, zəhərli maddələrdən, digər ümumi təhlükəli üsullardan və texniki vasitələrdən istifadə hazırlığı üzrə təlimlərin təşkil edilməsi, mütəşəkkil dəstə halında odlu silahdan və silah qismində digər predmetlərdən istifadə etməklə milli ədavət və düşmənçilik niyyəti ilə təkrarən terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərarlar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi ilə müşayiət olunan partlayış, habelə əraziləri davamlı şəkildə minalama və digər hərəkətlər törədərək terror aktlarının təşkil olunmasına əsaslı şübhələr müəyyən edilib.

DTX tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanın Xankəndi şəhərində anadan olmuş 1957-ci il təvəllüdlü Arkadi Qukasyan, həmin şəhərdə anadan olmuş 1960-cı il təvəllüdlü Bako Sahakyan və Azərbaycanın Xocavənd rayonunda anadan olmuş 1958-ci il təvəllüdlü Davit İşxanyan 2023-cü il oktyabrın 3-də saxlanılaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.2-ci, 214.2.3-cü (mütəşəkkil dəstə tərəfindən təkrar odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan istifadə etməklə terrorçuluq), 214-1-ci (terrorçuluğu maliyyələşdirmə), 214-3.2-ci (terrorçuluq məqsədi ilə təlimlər təşkil etmə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən təkrar qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, saxlama, daşıma və gəzdirmə) və 279.3-cü (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr və qruplar yaratma və onların fəaliyyətində iştirak etmə) maddələri ilə ittiham elan edilməklə cinayət məsuliyyətinə cəlb olunublar.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Heç bir cinayətkar cəzasız qalmayacaq

**Vaxtilə yüz minlərlə azərbaycanlıya yurd itkisi yaşadan, əli günahsız insanların qanına bulaşmış erməni cəlladları Vətən müharibəsindən sonra ard-arda həbs olunur, qandallanaraq Bakıya gətirilirlər. Görünən odur ki, azərbaycanlılara qarşı müxtəlif təxribatlar, soyqırımı və qətliamlar törədənlərin hər biri layiqli cəzalarını alacaqlar. Onların hər birinə Azərbaycanda hələ illər öncə cinayət işi açılıb.**



Milli Məclisin deputatı Arzu Nağıyev qəzetimizə açıqlamasında qeyd etdi ki, otuz il ərzində Azərbaycana qarşı törətdikləri cinayətlərə görə xunta rejiminin bütün nümayəndələri cinayət məsuliyyəti daşıyırlar. Ərazilərimizdə soyqırımlar törədən, indiyə qədər hətta məzarı belə tapılmayan əsir və girovlara işgəncələr verən bu rejimin rəhbərləri və iştirakçıları mütləq şəkildə cinayət məsuliyyətinə cəlb edilməlidirlər.

"Müvafiq dövlət strukturları bu istiqamətdə öz işlərini ən yüksək səviyyədə qurublar, uzun illərdir ki, həmin cinayətkarların əksəriyyəti interpolda axtarışdadır. Təbii ki, həmin müharibə canilərindən saxlanılan və cinayət məsuliyyətinə cəlb olunanlar var idi. Postmüharibə dövründə də Laçın yolundakı sərhəd nəzarət-buraxılış məntəqəsindən qaçmağa cəhd edən bir sıra cinayətkarlar həbs olunublar. Onların arasında vaxtilə özlərinə müxtəlif qondarma vəzifələr təyin etmiş və üzərlərinə əmr vermək səlahiyyəti götürən "prezident"lər, "baş nazir"lər də var. Yəni vaxtilə birbaşa Azərbaycan dövlətinə, dövlətçiliyimizə təhdid yağdıranların əlləri indi qandallıdır. Həmin ermənilər xalqımıza qarşı törədilən bütün cinayətlərin səbəbkarı, icraçısı və ya əmr verəni olublar", - deyə deputat bildirib.

Arzu Nağıyevin sözlərinə görə, dünyanın hansı bucağında gizlənsələr də, Azərbaycan xalqına qarşı cinayət törədənlər həbs ediləcək və layiqli cəzalarını alacaqlar. Son vaxtlar müharibə canilərinin saxlanılması onların lazımi şəkildə cəzalandırılacağına əminlik yaradır. İstintaq əməliyyatları onların cinayət əməllərini təsdiqləyəcək. Bütün proseslər hüquqi müstəvidə getdiyinə görə bizə bu mənada beynəlxalq səviyyədə hər hansısa irad tutulmasının mənası yoxdur.

Deputat qeyd edib ki, Ruben Vardanyan, Vaqif Xaçaturyan və Arayik Harutyunyan kimi müharibə canilərinin həbsi digər cinayətkarlara və ümumilikdə Ermənistan hökumətinə dərs olmalıdır: "Vaxtilə səhra komandirləri olan, sonra isə Ermənistanda yüksək postlar ələ keçirən Sarkisyan və Koçaryan da cəzasız qalmayacaqlar. Unutmaq olmaz ki, bu məsələdə heç kimə güzəşt yoxdur. Nəinki özləri, heç çox güvəndikləri havadarları da onlara bu işdə kömək edə bilməyəcəklər".

*N.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# USAID Cənubi Qafqazda pozuculuqla məşğuldur



ABŞ-nin USAID təşkilatı hər zaman ayrı-ayrı ölkələrdə dövlət çevrilişlərinə cəhdlər, qarşıdurma və iğtişaşlarla gündəmə gəlir. Bütün bunlar sübut edir ki, bu təşkilatın məqsədi heç də fəaliyyət göstərdiyi ölkələrdə demokratik dəyərlərin inkişafına dəstək vermək deyil. USAID-in əsas işi fəaliyyət göstərdiyi ölkələrdə müxtəlif təzyiq alətləri yaratmaq və cəmiyyətlərdə təslimçilik ruhu formalaşdırmaqdır. Bir sözlə, USAID-in məqsədi aydın və xoş deyil.

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu "Azərbaycan"a açıqlamasında bildirib ki, ABŞ Avropadakı bəlli dairələrin yaxından iştirakı və dəstəyi ilə ayrı-ayrı ölkələrdə loyal siyasi rejimlər formalaşdırmağa çalışır. Belə rejimlər qurmaqda məqsəd isə, təbii ki, milli maraqlara deyil, elə ABŞ-nin maraqlarına xidmət etməkdir. Bu, yenilik deyil, müxtəlif coğrafiyalarda, xüsusilə də ABŞ üçün əhəmiyyət kəsb edən ölkələrdə zaman-zaman müşahidə edilən təcrübədir.

"Bəzi təşkilatlar dövlət çevrilişləri vasitəsilə ayrı-ayrı ölkələrdə rejimlərin dəyişdirilməsi istiqamətində cəhdlər edir və bir çox halda bu cəhdlər nəticə verir. Xüsusilə postsovet ölkələrində ABŞ-nin təşkilati və maliyyə dəstəyi ilə belə rəngli inqilablar baş verib. Məsələn, Gürcüstanda, Qırğızıstanda, Ukraynada baş vermiş belə inqilablar həmin ölkələrdə loyal rejimlərin formalaşdırılması ilə nəticələnib. Bu istiqamətdə işlər müxtəlif təşkilatlar və fondlar vasitəsilə həyata keçirilir. Bu mənada USAID-i xüsusi qeyd etmək lazımdır", - deyə deputat bildirib.

Elşad Mirbəşiroğlu deyib ki, USAID müxtəlif ölkələrdə narazı kütlələr formalaşdırmaq və təşkilatlandırmaq, onlara inqilab taktikalarını aşılamaq və nəticədə kütləvi iğtişaşlar yaratmaqla məşğuldur: "Bu, artıq tam deşifrə olunub. Bir neçə gün öncə USAID-in Gürcüstanda pozuculuq cəhdləri göstərməsi onların əsl məqsədlərinin nədən ibarət olduğunu bir daha sübut edir. Gürcüstan rəhbərliyinin məsələ ilə bağlı aydın mövqeyi də bu həqiqətləri təsdiqləyir. Buradan aydın olur ki, USAID müxtəlif ölkələrdə, eləcə də Cənubi Qafqaz regionunda dağıdıcılıq fəaliyyəti ilə məşğul olur".

Deputatın dediyinə görə, bu təşkilat Mərkəzi Kəşfiyyat İdarəsi və Soros Fondu ilə sıx əlaqədədir: "ABŞ-nin Demokratiyaya Dəstək Fondunun rəhbəri də utanmadan bildirib ki, bu gün onların məşğul olduqları fəaliyyəti 20-25 il öncə məhz Mərkəzi Kəşfiyyat İdarəsi həyata keçirirdi. Yəni bu təşkilat və fondlar demokratiyaya dəstək pərdəsi altında, əslində, məkrli planlarını həyata keçirirlər. Postsovet məkanının bir sıra ölkələrindəki təcrübələr göstərir ki, onlar fəaliyyət göstərdikləri ölkələrə heç də demokratik dəyərlər gətirmək niyyətində deyillər. Əksinə, həmin cəmiyyətləri parçalamaqla aralarına nifaq salmağa cəhd göstərirlər".

Elşad Mirbəşiroğlu əlavə edib ki, USAID Azərbaycana qarşı da həmişə qərəzli mövqeyi ilə seçilib və bunu gizlətməyib. Təsadüfi deyil ki, USAID rəhbəri Samanta Pauer Ermənistana səfəri zamanı ölkəmizin ünvanına sərt və tam əsassız ittihamlar səsləndirib. Eyni zamanda saxta erməni soyqırımı ilə bağlı şou yaratmaqla məşğul olub, bu "soyqırımı"nın tanıdılması istiqamətində canfəşanlıq göstərib. Bütün bu faktlar USAID-in dağıdıcı fəaliyyət göstərən bir təşkilat olduğunu təsdiqləyir.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qarışıqlıq salmaq üçün sərf olunan vəsaitlər…

## ABŞ öz planlarını ayrı-ayrı dövlətlərdə demokratiyaya yardım fondları vasitəsi ilə həyata keçirir

**ABŞ özünü dünyada "demokratiya axtaran insanların vətəni" adlandırır. Planetimizin siyasi-hərbi mənzərəsinə nəzər saldıqda isə dünyaya "demokratiya ixrac" etməklə məşhurlaşmış bu ölkənin "xoşbəxtlik" gətirdiyi xalqların və dövlətlərin kataloqunun nə qədər zəngin olduğunu görərik.**




Vyetnamda, İraqda, Əfqanıstanda, Liviyada, Suriyada, Misirdə, Yəməndə, Cənubi Amerikada və nəhayət, Ukraynada alovlandırdığı cəhənnəm tonqallarında yanan günahsız insanların çəkdikləri əzab-əziyyətləri göz önünə gətirəndə, bu "azadlıq adasının" planetimizin insanlarına bəxş etdiyi xoşbəxtliklərinin mənzərəsini təsəvvürə gətirmək o qədər də çətin olmur.

ABŞ Prezidenti Co Bayden bu il ABŞ, Kosta-Rika, Hollandiya, Cənubi Koreya və Zambiyanın evsahibliyi etdiyi "2-ci Demokratiya Sammiti"ndə "Qlobal Çağırışlar" mövzusunda çıxış edərkən ölkəsinin bu demokratik proqramları dəstəkləmək üçün 690 milyon dollar maliyyə ayırdığını qeyd edib. Eyni zamanda Bayden bütün dünyada demokratiyanı inkişaf etdirmək məqsədilə qarşıdakı 3 il ərzində 9,5 milyard dollar ayrılması üçün Konqreslə işləməyi planlaşdırdıqlarını da dilə gətirib.

Co Bayden texnologiyanın demokratiyaya təsirlərinə də toxunaraq "casus proqramlar"ın qadağan edilməsi ilə bağlı imzaladığı fərmandan da söz açıb.

Demokratiya bəşəri dəyərdir. Onun inkişafı naminə göstərilən bütün səyləri yalnız alqışlamaq olar. Çox təəssüf ki, bəzən demokratiya adı ilə ABŞ siyasi manipulyasiya edib öz korporativ maraqlarını həyata keçirir. Bu ölkənin maraqları isə insanlara bədbəxtlik gətirir. Kütləvi insan qırğınları, müharibələr, fəlakətlər, milyonlarla günahsız insanın evindən didərgin düşməsi həyatının acı bir sonluqla tamamlanması ilə başa çatır… Ölkəsində "casus proqramlar"ın ləğvi haqqında fərman verənlər "demokratiyanın inkişafı üçün" ayırdıqları vəsait hesabına öz maraqları naminə dünyada geniş bir casus şəbəkəsi yaradıb onun vasitəsilə "rəngli inqilablar" törədirlər. Son zamanlar mətbuatda daha çox ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi (ing. United States Agency for International Development; USAID) - ABŞ hökumətinin xarici yardım təşkilatının adı hallanır. Xatırladaq ki, USAID-in tarixi İkinci Dünya müharibəsindən sonra Avropanın yenidən qurulmasına dair Marşal planından və prezident Trumen administrasiyasının Dördüncü Bənd Proqramından başlamışdır. 4 sentyabr 1961-ci ildə ABŞ Konqresinin qəbul etdiyi Xarici Yardım Aktına əsasən iqtisadi yardım proqramlarını idarə etmək üçün agentliyin yaradılması nəzərdə tutulurdu. Həmin akta müvafiq olaraq 3 noyabr 1961-ci ildə prezident Con Kennedi USAID-in təsisi haqqında sənəd imzalamışdır. Əsasnaməyə görə, USAID-in əsas məqsədi uzunmüddətli iqtisadi və sosial inkişafa yönəlib. Proqramlarında kənd təsərrüfatı və ticarət, qlobal səhiyyə, demokratiya və humanitar yardıma dəstək göstərilməsi nəzərdə tutulub. Belə baxanda burada heç bir pis niyyət də yoxdur. Gəlişi gözəldir… Lakin təşkilatın həyata keçirdiyi layihələrin icrasında gizliliyin əsas səbəbi də budur. Bu qurumun fəaliyyətində şəffaflığın olmaması, gizlilik adı altında maskalanaraq "çalışdığı" ölkələrin qanunlarını pozması, dövlətçiliyə, milli maraqlara qarşı çıxmaları onun əsas niyyətlərini üzə çıxarır. Yəni parçala və hökm sür… Məsələ burasındadır ki, ABŞ-nin əsas kəşfiyyat orqanı olan Mərkəzi Kəşfiyyat İdarəsi bir çox halda öz əməliyyatlarını USAID-dən istifadə etməklə həyata keçirir. Qeyd edək ki, 51 milyard dollardan artıq maliyyə ehtiyatları olan USAID federal büdcədən maliyyələşir.

Təsadüfi deyil ki, 2005-ci ildə USAID təmsilçiləri təxribatçı fəaliyyətlərinə görə Eritreyadan qovulublar. Son 5 il ərzində Efiopiya, Rusiya və Belarus öz ərazilərində USAID nümayəndələrinin fəaliyyətini dayandırıblar. Oxşar hadisə qonşu Gürcüstanda da baş verməkdədir. Bir neçə həftə əvvəl Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən ölkədə vətəndaş iğtişaşları və zorakılıqla hakimiyyət dəyişikliyinin planlaşdırıldığı barədə açıqlama yayılıb.

Bu günlərdə isə Gürcüstanın DTX-si tərəfindən bildirilib ki, Tbilisidə hakimiyyət dəyişikliyində iştirak edəcək fəallar üçün təlim keçirilib. Məlumatlardan belə aydın olur ki, qonşu ölkədə hakimiyyətin devrilməsinə yönəlmiş cəhdlərin təşkilatçısı ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyidir.

Sirr deyil ki, bu super dövlət onun maraqlarını təmin etməyən ölkələrdə ictimai-siyasi sabitliyin pozulmasına yönələn addımları Milli Demokratiya İnstitutu, NED kimi tanınan Milli Demokratiya Fondu və digər fondlar vasitəsilə həyata keçirir.

USAID-in bu "xoş" niyyəti bizə hələ 2014-cü ildən məlumdur. O zaman USAID tərəfindən Azərbaycanda "müstəqil medianın inkişafı" üçün 2,4 milyon dollar məbləğində qrantın elan olunması bu qurumun respublikamızda pozuculuq cəhdlərinin dəstəklənməsinə hesablanmışdı.

Pozuculuq fəaliyyətləri ilə adı keçmiş sovet respublikalarında məşhur olan MDİ-nin Bakı nümayəndəliyinin keçmiş rəhbəri Aleks Qriqoryevs 2014-cü ildə xəsislik etməyib özünün bank hesabından 2 milyon dollara yaxın vəsaiti çıxararaq bəzi QHT-lərə və konkret şəxslərə paylamışdı.

3 il müddətinə nəzərdə tutulan layihədə əsas məqsəd guya sosial dəyişiklik, yüksək keyfiyyətli informasiya əldə etmək, yaymaq sahəsində mediaya dəstək vermək, media azadlığını təşviq etmək, media azadlığının ifadəsi üçün imkanlar yaratmaq, hüquqi müdafiəni artırmaqla peşəkar standartları gücləndirmək idi. Bunlar məsələnin görünən tərəfləridir. Əsas niyyət isə ölkədə hərc-mərclik yaratmaq, demokratiya pərdəsi altında anti-Azərbaycan qüvvələrini fəallaşdırmaq idi. Birmənalı olaraq demək olar ki, təşkilat heç də öz niyyətindən geri addım atmayıb. Son zamanlar müharibə əleyhinə hərəkatın - "NoWar"ın meydana gəlməsi, "feminist"lərin fəallaşması, xalqımızın milli dəyərlərinə qarşı çıxışların artması USAID kimi demokratiya, insan azadlıqlarına "dəstək" verib, sabitliyi pozmaq istəyən təşkilatların yaradıcılığının məhsulu hesab etmək olar.

Cənubi Qafqazda, eləcə də ölkəmizdə gözü olub, arzularını reallaşdıra bilməyən qüvvələr öz emissarları vasitəsilə suyu bulandırmaqda maraqlı olduqlarını deyəsən heç gizlətmək niyyətində deyillər. Müstəqilliyimizi, qazandığımız uğurları gözü götürməyən hər kim varsa, el birliyi, dil birliyi ilə hamılıqla dəf etməyə hazır olmalıyıq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# "Şər ittifaqı"na sərt zərbə

## Azərbaycan bu komediyanın tərkib hissəsi ola bilməzdi

*"Konstitusiyanın 10-cu maddəsinə əsasən, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Əvvəlki dövrlər bir yana, yalnız son bir aylıq dövrü təhlil etsək, Fransa, Almaniya, ABŞ və Avropa İttifaqının Azərbaycana münasibətdə beynəlxalq hüququn prinsiplərinə zidd və açıq formada qərəzli davranışlar sərgilədiyinin şahidi olarıq".*



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bildirib. Deputanın sözlərinə görə, BMT Təhlükəsizlik Şurasında Qarabağa dair dinləmələrdə xüsusən Fransa özünü erməni dövləti kimi, Almaniya Hayastanın vəkili kimi aparıb, ABŞ Konqresi sanki Ermənistan parlamentinə çevrilib, Avropa İttifaqı isə son bir aya yaxın dövrdə bütövlükdə gündəmini Azərbaycana həsr edib.

Deputat qeyd edib ki, Azərbaycana münasibətdə nisbi konstruktiv davranış sərgiləyən Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin də artıq oriyentasiyasını dəyişərək radikal fransız kimi davranmağa başlaması xüsusilə məyusluq doğurur: "Belə olan halda, Azərbaycan və Ermənistan arasında yekun sülh müqaviləsi üzrə Qranada danışıqlarında Fransa, Almaniya və Avropa İttifaqının vasitəçilik niyyəti gülüş doğurur və Azərbaycan bu komediyanın tərkib hissəsi ola bilməzdi. Bu mənada, Azərbaycanın Qranada görüşündən imtina etməsi ilk növbədə qalib, diktə edən tərəfin özünə, siyasətinə, mövqeyinə verdiyi və başqalarından da tələb etdiyi qiymətdir. Azərbaycan sülh prosesinə istisnasız olaraq sadiqdir, ancaq danışıqlar yalnız və yalnız həqiqi sülh niyyəti ilə qurulan masada aparıla bilər. Qranadada planlaşdırılan görüş isə göründüyü kimi, "şər ittifaqı"nın toplantısı idi".

B.Məhərrəmov vurğulayıb ki, əgər Ermənistan, həqiqətən, sülh prosesində maraqlıdırsa, bunu birbaşa Azərbaycanın özü ilə müzakirə etməlidir və məhz Bakı ilə əməkdaşlıq nəticəsində düşdüyü dalandan çıxa biləcəyini anlamalıdır.

Ötən il Zəfər Günündə Prezident İlham Əliyevin Şuşadan bəyan etdiyi kimi, ermənilər başa düşməlidirlər ki, min kilometrlərlə kənardan heç kim gəlib onların yerinə döyüşməyəcək. Almaniya, Fransa, yaxud Avropa İttifaqı üçün heç bir erməninin taleyi maraqlı deyil, əksinə, onlar indiki məqamda Ermənistandan istifadə edərək bölgədə istəklərinə nail olmaq, Rusiya ilə qlobal mübarizədə erməni amilindən Moskvaya qarşı istifadə etmək niyyətindədirlər. Bu isə kiçik dalan dövləti olan Ermənistan üçün sui-qəsd deməkdir. Ermənistan üzünü bölgəyə çevirməli, artıq "Qarabağ" adlı bir problemin qalmadığını anlamalıdır. İndiki şəraitdə Azərbaycan-Türkiyə tandemindən maksimum yararlanmağa çalışmalıdır.

Azərbaycana beynəlxalq hücumlardan söz açan deputat bildirib ki, dövlətimizin başçısının dediyi kimi, heç kim bizim iradəmizə təsir edə bilməz. "Vətən müharibəsində bizə məğlub olanlar bundan sonra mübarizədə israrlı olacaqlarsa, məğlubiyyətlər seriyasına hazır olmalıdırlar. Bizim üçün Almaniyanın, yaxud Fransanın bəyanatları və ya Avropa Parlamentində "Dağlıq Qarabağ"a dair dinləmələrin keçirilməsi artıq keçib getmiş bir karvanın arxasınca hay-həşir salınmasına bənzəyir. Yaxalanan separatçıların, xüsusən Vardanyanın istintaqa verdiyi ifadələrlə qarşımızda açacağı korrupsiya xəritəsi fonunda, əslində, Avropa Parlamentində, yaxud digər kürsülərdə danışan satılmış "erməni müdafiəçiləri"nin əsl simasını beynəlxalq ictimaiyyətə ifşa edəcəyimiz gün uzaqda deyil", - deyə deputat əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# İlham Əliyevin şərtləri

## Sülhün yeganə təminatıdır

**Hələ 3 il əvvəl Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə Qarabağ problemi birdəfəlik həll olundu. Ermənistanın və dünya erməniliyinin Qarabağla bağlı saxta iddiaları, status tələbləri 44 günlük savaşda darmadağın edildi. Sentyabrın 19-20-də isə Qarabağdakı separatçı rejimin varlığına son qoyuldu.**

Artıq separatçı rejim yoxdur və Qarabağda Azərbaycan dövlətinin hakimiyyəti tam təmin edilib. Qarabağda qalan ermənilər də tədricən Azərbaycan vətəndaşlığını almaq və reinteqrasiya prosesinə qoşulmaq üçün Dövlət Miqrasiya Xidmətinə müraciət edirlər.

Qarabağdakı qeyri-qanuni rejimin, separatçılığın ləğvi regionda sülhə gedən yolda əsas maneələrdən birini aradan qaldırdı. Əslində, Qarabağla bağlı Ermənistanın iddiaları sülhün qarşısını almaq üçün ortaya atılan süni arqumentlər idi. Çünki Azərbaycan dövləti hər zaman bəyan edirdi ki, Qarabağla bağlı istənilən məsələ dövlətimizin daxili işidir və bunu hansısa tərəflə müzakirə etmir. Antiterror tədbirlərindən sonra isə Ermənistanın Qarabağla bağlı irəli sürdüyü bütün saxta iddialara birdəfəlik son qoyuldu.

Bu baxımdan son hadisələrdən sonra gözlənilən odur ki, Ermənistanla Azərbaycan arasında sülh danışıqları yeni müstəviyə qədəm qoyacaq. Sentyabrın 20-də Prezident İlham Əliyev xalqa müraciətində bununla bağlı demişdi: "Hesab edirəm ki, dünən və bu gün baş vermiş hadisələr eyni zamanda Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcək".

Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyi aydın və dəqiqdir. Bu məsələdə Azərbaycanın mövqeləri beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır, sülhün əldə olunmasına xidmət edir. Azərbaycanın bu istiqamətdə irəli sürdüyü şərtlər elə Ermənistanın özü tərəfindən də qəbul edilir. Lakin ötən dövrdə Ermənistanın prosesləri uzatması və üzərinə düşən öhdəlikləri yerinə yetirməməsi səbəbindən münasibətlərin normallaşdırılması istiqamətində nəticə əldə edilməyib.

Əlbəttə, Ermənistan bu məsələdə özü qərar qəbul etmir və xüsusən Fransanın pozuculuq fəaliyyəti sülhə ciddi əngəllər yaradır. Son antiterror tədbirlərindən sonra Fransanın Azərbaycana qarşı qərəzli münasibətini daha da gücləndirməsi isə sülh prosesinə böyük zərbə vurur. Bu ölkənin Ermənistanı hər vəchlə silahlandırmağa çalışması, onu yenidən təcavüzə və hərbi avantüraya cəlb etməsi sülhə ən böyük maneədir.

Təbii ki, Fransanın bu cəhdləri hələ Vətən müharibəsinə qədər 30 ilə yaxın Ermənistanın işğal siyasətinə verdiyi dəstək kimi uğursuzluğa düçar olacaq. Ona görə Fransa indi Ermənistana yardım etmək istəyirsə, onu sülh sazişinin imzalanmasına sövq etməlidir.

Vətən müharibəsi və ondan sonrakı dövrdə Azərbaycan öz milli maraqlarını qətiyyətlə təmin edib. Azərbaycan eyni zamanda regionda iqtisadi, tranzit və tranzit imkanlar baxımından ən üstün dövlətdir. Yerində sayan və geri gedən isə yalnız Ermənistandır. Bu baxımdan sülhə daha çox ehtiyacı olan da Ermənistandır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin şərtləri isə sülhün yeganə təminatıdır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Mina "tarlaları" terrorçuların mənfur xislətinin göstəricisidir

**3 il öncə 30 illik yurd nisgilimizə son qoyuldu. İllərdir yurdlarına həsrət qalmış soydaşlarımızın yenidən bu torpaqlarda gözəl həyat qurmaları üçün hazırda sürətlə bərpa-quruculuq işləri aparılır. Bu istiqamətdə genişmiqyaslı layihələr, baş planlar hazırlanıb və icrasının tez bir zamanda reallaşdırılması üçün əhəmiyyətli tədbirlər görülür. Bu zaman isə bir daha düşmənin xəbis xislətinin şahidi oluruq.**

Öz torpağı olmadığını və bu yerlərin əsl sahibinin geri dönəcəyini yaxşı bilən düşmən işğal altında qalan torpaqlarımızı xarabazara çevirib, daşı daş üstündə qoymadıqları azmış kimi, ərazilərimizi mina tarlalarına çevirib. Ölkəmiz hazırda dünyada minalarla ən çox çirkləndirilmiş on ölkə sırasındadır. Statistikaya əsasən, 2020-ci ilin noyabrından bu günədək 98 min hektardan çox ərazi mina və silah-sursatlardan təmizlənib, 93 min 410 mina və partlamamış hərbi sursat tapılaraq zərərsizləşdirilib. İşğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən təkcə sentyabrda 4 min 550,1 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib. Onların əksəriyyəti Ermənistan istehsalı olan plastik örtüklü minalardır. Bu minalarda metal maddələr az olduğu üçün aşkarlanması daha çətin hesab olunur.

Ermənilər tərəfindən törədilən mina terrorunun qurbanına çevrilənlərin də sayı az deyil. Son 30 ildə Azərbaycanda mina qurbanlarının sayı 3 min 406 nəfər olub. 2020-ci il noyabrın 10-dan bu günədək Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində baş vermiş mina hadisələri nəticəsində 327 nəfər minadan zərər çəkib. 48-i mülki, 15-i hərbçi olmaqla 63 nəfər həlak olub.

Onu da qeyd edək ki, ermənilər Laçın rayonu ərazisini tərk edəndən sonra təkcə bu ərazidə 2021-ci ildə Ermənistanda istehsal edilən E-001M markalı 1400-dən artıq piyada əleyhinə mina aşkarlanıb. Habelə Zabux və Sus kəndlərində evlərin giriş qapılarında və həyətyanı sahələrdə yeni quraşdırılmış mina tələləri zərərsizləşdirilib.

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən Qarabağ bölgəsinin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə mütəmadi tədbirlər davam etdirilir. Ötən ay Tərtər, Kəlbəcər, Ağdam, Xocalı, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında icra olunan əməliyyatlar nəticəsində ümumilikdə 242 piyada əleyhinə, 447 tank əleyhinə mina, 909 partlamamış hərbi sursat aşkarlanıb. Təkcə sentyabrın 21-dən oktyabrın 2-dək bölgədə 18 ədəd piyada, 105 ədəd tank əleyhinə mina aşkar edilərək təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra qondarma rejimin bu ərazilərdə əlavə minalar basdırdığı üzə çıxıb. 480 kilometrdən artıq təmas xətti boyunca yerləşdirilən yarım milyondan artıq mina heç də təsadüfi partlayıcı və ya partlamamış hərbi sursatlar deyil.

Müvafiq qurumlar Xankəndi şəhəri ərazisində yerləşən müəyyən inzibati binalarda xeyli sayda partlayıcı qurğular aşkarlayıblar. İnzibati binalara baxış keçirilən zaman onlara erməni terrorçuları tərəfindən mina quraşdırıldığı üzə çıxıb.

Tərk etdikləri əraziləri minalamaq, vətəndaşlarımızın həlak olmasına cəhd etmək və azad olunmuş yerlərə sahiblərinin qayıtmasını hər vəchlə gecikdirmək kimi düşmənin murdar xislətini təsdiqləyən minlərlə fakt var.

Uzun illər Ermənistanın işğalçılıq, etnik təmizləmə siyasətinə məruz qalan Azərbaycan bu gün mina terrorunun ağır fəsadlarını sürətlə aradan qaldırır. Əlbəttə, bu, çox böyük səylər tələb edir. Mövcud çətinliklərə baxmayaraq, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, eyni zamanda regionda sülhün, əmin-amanlığın bərqərar olması üçün Ermənistanla münasibətlərin normallaşmasına hesablanmış məqsədyönlü addımlar atılır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*









# Zəfərin Laçın yolu

**Şanlı Zəfərimizlə bitən Vətən müharibəsindən ötən 3 il ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında böyük tikinti-quruculuq işləri həyata keçirilib və bu, uğurla davam etdirilir.**

Əlbəttə ki, həmin ərazilərdə hərəkətin tənzimlənməsi üçün ilk növbədə yolların yenidən qurulması, körpü və tunellərin tikintisi xüsusi əhəmiyyət kəsb edir. Həm bərpa-quruculuq işlərinin intensivləşdirilməsi, həm də tranzit-logistik baxımdan yolların inşası təxirə salınmadan həyata keçirilir.

Prezident İlham Əliyev işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri çərçivəsində yeni yolların açılışlarını edir və tikinti işlərinin sürətlə aparılması ilə bağlı ciddi tapşırıqlarını verir.

Bu bölgədə 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yolu layihəsinin icrası nəzərdə tutulur. Artıq İlham Əliyevin "Zəfər yolu" adlandırdığı avtomobil yolunun və Tərtər-Çaylı-Suqovuşan-Talış yolunun və Laçın şəhərinə daxil olmadan yeni alternativ yolun inşası başa çatdırılıb. Bu il daha 12 layihənin icrasının tamamlanması nəzərdə tutulur.

Prezidentin tapşırığına uyğun olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Laçın şəhərinin daxili yollarının bərpası layihəsi sürətlə və keyfiyyətlə icra olunur.

Uzunluğu təqribən 70 kilometr təşkil edən Laçın şəhərinin daxili yollarının yenidənqurulması mərkəzi küçələrin və məhəllədaxili yolların bərpasından ibarətdir. Küçə və məhəllədaxili yolların eni 4-11 metr arası dəyişir. Layihə çərçivəsində yararsız örtük sökülür, zəruri olan yerlərdə yararsız qrunt qazılaraq çıxarılır, ardınca yararlı materiallardan istifadə olunmaqla əks dolğu işləri icra olunur, yeni yol yatağı və yol əsası inşa edilir. Yol əsası hazır olan hissələrə isə lazımi qalınlıqda yeni asfalt-beton örtüyü döşənir. Artıq bir çox küçə və yollarda sadalanan işlər yekunlaşıb.

Tikinti-bərpa işləri inşaat norma və qaydalarına uyğun, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin şəxsi nəzarəti altında həyata keçirilir.

Yenidənqurma işlərinin yaxın müddət ərzində yekunlaşdırılması planlaşdırılır. Bunun üçün əraziyə lazımi sayda işçi qüvvəsi və texnika cəlb olunub.

Laçın şəhərinin daxili yollarının bərpası ilə bağlı ərazidə müasir yol infrastrukturu qurulur ki, bu da sakinlərin və bura gələn qonaqların rahat gediş-gəlişini təmin edir.

Ümumiyyətlə, demək olar ki, əksər yolların tikinti prosesinin böyük hissəsi yekunlaşıb. Bu da əminlik yaradır ki, tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulub istifadəyə veriləcək.

Bir sözlə, İkinci Qarabağ müharibəsindəki şanlı qələbədən sonra yaranan yeni reallıq göz önündədir. Qarşıya qoyulan bir nömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaqdır. Tezliklə bu yollar Qarabağa və Şərqi Zəngəzura yeni həyat gətirəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*








# ATƏT PA-da Azərbaycan əleyhinə olan təşəbbüslərin qarşısı alınıb

**Oktyabrın 5-də bir sıra ölkələrin təşəbbüsü ilə ATƏT PA-nın növbədənkənar onlayn Büro iclası keçirilib. Bu barədə AZƏRTAC-a Milli Məclisdən məlumat verilib.**




Qeyd edilib ki, iclasın əsas mövzusu Cənubi Qafqazda baş verən son hadisələrin, xüsusilə Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilən lokal antiterror tədbirləri və bundan irəli gələn vəziyyətin müzakirəsi olub.

ATƏT PA-nın prezidenti - Finlandiyadan olan deputat Pia Kauma qeyd edib ki, Qarabağdakı hazırkı vəziyyət və orada yaşayan erməni sakinlərin hüquq və təhlükəsizliyinin qorunması ilə əlaqədar məsələləri müzakirə etmək, müəyyən addımlar atmaq məqsədilə bir sıra ölkələrdən olan büro üzvləri ona müraciət ünvanlayıb, bu məsələnin təxirə salınmadan müzakirə olunmasını xahiş ediblər.

Müzakirələr zamanı söz alan Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri, ATƏT PA-nın İqtisadiyyat, elm, texnologiya və ətraf mühit məsələləri Baş Komitəsinin sədri, büro üzvü Azay Quliyev sentyabrın 19-20-də həyata keçirilən lokal antiterror tədbirlərinin səbəbləri, məqsədi və nəticələri barədə ətraflı məlumat verib.

Diqqətə çatdırılıb ki, ermənilərin davamlı təxribatlarına cavab olaraq başladılan və çox dəqiqliklə aparılan antiterror tədbirləri zamanı yalnız legitim hərbi hədəflər zərərsizləşdirilib, mülki əhaliyə və mülki infrastruktura heç bir zərər dəyməyib. A.Quliyev nəticədə qanunsuz erməni silahlı qüvvələrinin təslim olduğunu və oyuncaq rejimin özünü buraxdığını vurğulayıb. "Azərbaycanın Qarabağda suverenliyini tam və qəti olaraq bərpa etməsi işğaldan və işğal nəticəsində yaradılmış qanunsuz oyuncaq rejimlərdən əziyyət çəkən ATƏT-ə üzv olan ölkələr və ümumiyyətlə, dünya üçün çox gözəl nümunə və təcrübədir. ATƏT və ona üzv olan ölkələr 30 illik hərbi təcavüzə və işğala son qoyaraq beynəlxalq hüququ bərpa edən Azərbaycana minnətdar olmalıdırlar", - deyə o vurğulayıb.

Azay Quliyev həmçinin Qarabağ ermənilərinin, guya, "etnik təmizləməyə" məruz qaldıqları haqqında səslənən əsassız iddiaları konkret faktlarla rədd edib və müstəqil BMT missiyasının Qarabağa son səfərində bunun tam əksinin sübut olunduğunu bildirib.

İclasda Ermənistan və digər nümayəndə heyətlərinin Azərbaycana qarşı müəyyən tədbirlərin görülməsi, Qarabağ erməniləri ilə əlaqədar işçi qrupunun yaradılması ilə bağlı cəhdlərinin qarşısı alınıb, bu cür pozucu təşəbbüslər Büro tərəfindən rədd edilib.

Sonda ATƏT PA-nın prezidenti Pia Kauma və Cənubi Qafqaz üzrə xüsusi nümayəndə Kari Henriksen Ermənistan ilə Azərbaycan arasında etimadın yaradılmasına, Cənubi Qafqaza davamlı sülhün gətirilməsinə töhfə verməyə hazır olduğunu bildiriblər.

# Rusiya Prezidenti: "Ermənistan özü Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyıb"

**Ermənistan özü Qarabağı Azərbaycan Respublikasının bir hissəsi kimi tanıyıb.**




AZƏRTAC xəbər verir ki, bu sözləri Rusiya Prezidenti Vladimir Putin "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar iclasında bildirib.

Rusiya lideri qeyd edib: "Ermənistanın rəhbərləri birbaşa Azərbaycan ərazisini kvadratkilometrlərlə qeyd ediblər, təbii ki, Qarabağ da buraya daxildir. Bununla da Qarabağın "statusu" ilə bağlı əsas, tamamilə həlledici məsələ həll olundu". O əlavə edib ki, 30 il ərzində Qarabağın müstəqilliyini heç kim tanımayıb.

Putin deyib ki, o, Azərbaycan və Ermənistan rəhbərlərinin Praqa və Brüssel görüşləri, onlar arasında aparılan danışıqların nəticələri barədə mətbuatdan xəbər tutub. "Bizə bu barədə heç kəs deməyib. Mən şəxsən bu barədə mətbuatdan öyrəndim", - deyə Prezident qeyd edib.

Qarabağdakı rusiyalı sülhməramlıların statusu haqqında danışan Putin vurğulayıb ki, indi o, keyfiyyət baxımından dəyişib. Onun sözlərinə görə, Praqa və Brüssel görüşlərindən sonra Azərbaycan Prezidenti İlham Əliyev onunla söhbətində rusiyalı sülhməramlıların Azərbaycan ərazisində olması və onların statusunun ikitərəfli əsasda müzakirə edilməli olacağına diqqət çəkib.

Putin həmçinin qeyd edib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyandan sonra rəsmi Bakı öz ərazisində konstitusiya quruluşunu bərqərar edib.

Keçmiş "DQR rəhbərləri"nin gələcək taleyinə toxunan dövlət başçısı xatırladıb ki, onlar Rusiya vətəndaşları deyil, hətta Vardanyan da Rusiya vətəndaşlığından imtina edib. "Mən elə başa düşürəm ki, onları heç İrəvanda da görmək istəmirlər", - deyə V.Putin əlavə edib.

# Avropa Siyasi Birliyinin növbəti sammiti hələ başlamadan əvvəl qalmaqallı oldu

**İspaniyanın Qranada şəhərində Avropa Siyasi Birliyinin növbəti sammiti işə başlayıb.**



AZƏRTAC xəbər verir ki, bu tədbir onun təşəbbüskarlarının nəzərdə tutduğu formatda keçirilən üçüncü forumdur.

Avropa Siyasi Birliyi 2022-ci ildə siyasi və strateji diskussiyalar üçün təsis edilmiş hökumətlərarası təşkilatdır. Layihənin məqsədi bütün Avropa ölkələrinin siyasətlərinin əlaqələndirilməsi platformasını yaratmaq və qitədə təhlükəsizlik, sabitlik və Avropanın inkişafı, xüsusən ötən ilin ortalarında Ukraynada müharibə ilə əlaqədar başlayan dərin enerji böhranından sonra vəziyyətin müzakirəsi üzrə ümumi maraq doğuran məsələlərdə siyasi dialoqa və əməkdaşlığa kömək etməkdir. Avropa Siyasi Birliyinə Aİ-nin üzvü olmayan ölkələr, o cümlədən Böyük Britaniya, Azərbaycan, İslandiya, Ukrayna, Moldova, Türkiyə, Gürcüstan və Ermənistan da daxildir.

Birliyin ilk sammiti 2022-ci ilin oktyabrında Praqada, ikincisi isə cari ilin iyununda Moldovada keçirilib. Bununla bağlı xatırlatmaq lazımdır ki, əvvəl keçirilən hər iki sammitdə Avropa İttifaqına üzv dövlətlərin liderləri ilə yanaşı, həmçinin Türkiyə, Azərbaycan və Ermənistanın rəhbərləri də iştirak ediblər. Bu, Praqada keçirilən sammit zamanı Prezident İlham Əliyev ilə baş nazir Nikol Paşinyan arasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və son dəqiqədə danışıqlar masasına "özünü yetirən" Fransa prezidenti Emmanuel Makronun iştirakı ilə qeyri-rəsmi görüşün baş tutmasına şərait yaratdı. Moldovada isə görüş daha geniş tərkibdə keçirildi və Praqadakı görüş iştirakçıları ilə yanaşı, həmin tədbirdə Almaniyanın Federal Kansleri Olaf Şolts da iştirak etdi.

Yuxarıda bu görüşləri nədən "qeyri-rəsmi" adlandırdıq? Məsələ ondadır ki, Bakı ilə İrəvan arasında danışıqlar prosesinin ənənəvi formatı (yəni dövlət rəhbərləri səviyyəsində) Şarl Mişelin moderatorluq etdiyi Brüssel formatıdır. Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə Moskva və Soçidə keçirilən görüş formatı da mövcuddur. Yüksəksəviyyəli görüşlərlə yanaşı, həmçinin iki ölkənin XİN rəhbərlərinin səviyyəsində və "Hacıyev-Qriqoryan" formatında da görüşlər keçirilib. Onlar, xatırladığımız kimi, Cenevrədə və Vaşinqton/Arlinqtonda baş tutub. Bütün bunlar məhz danışıqlar prosesinin formatlarıdır.

Azərbaycan və Ermənistan rəhbərlərinin Avropa Siyasi Birliyi çərçivəsində danışıqlar prosesi formatı Brüssel və Rusiya görüşlərini əvəzləmir və ya onlara heç nə əlavə etmir.

Bu görüşləri rəsmi olmayan politologiya dili ilə "saat əqrəblərinin dəqiqləşdirilməsi" adlandırmaq olar. Rusiya XİN-in başçısı Sergey Lavrov bu yaxınlarda həmin təmasların xarakterizə edilməsi üçün daha bir maraqlı frazadan istifadə etdi - "ayaqüstü görüşlər". Bu fraza jurnalistlərin və diplomatların xoşuna gəldi, dərhal dövriyyəyə götürüldü və peşəkar politologiya leksikonuna əlavə edildi.

Bu kontekstdə Avropa Siyasi Birliyi çərçivəsində Praqa və Moldovada keçirilən görüşlər məhz bu təmaslar, yəni "ayaqüstü görüşlər" səviyyəsinə aiddir. Praqadakı birinci görüşdən sonra qeyd etdiyimiz kimi, Fransa prezidenti son dəqiqədə özünü yetirə bildi və sanki bu "uğurunu" davam etdirərək artıq formalaşmış Brüssel formatına da əl atmağa çalışdı. Xatırladığımız kimi, ötən ilin noyabrında, yəni dekabrın 7-də Belçika paytaxtında nəzərdə tutulmuş üçtərəfli görüşdən əvvəl xarici qonaqların sualını cavablandıran Prezident İlham Əliyev bildirdi ki, onun köməkçisi Nikol Paşinyan tərəfindən Şarl Mişellə yanaşı, Makronun da görüşdə nəzərdə tutulmamış iştirakı ilə bağlı şərt irəli sürüb. Həmin vaxt bütün bunlar fransız liderinin milli televiziyanın efirində çox kəskin bəyanatları və çıxışları silsiləsindən sonra baş vermişdi və bu, rəsmi Bakı və Azərbaycan ictimaiyyəti tərəfindən haqlı narazılıqla qarşılanmışdı. Bu səbəbdən Paşinyanın gözlənilmədən Brüssel formatının davamı, daha doğrusu, Fransa liderinin iştirakı ilə bağlı öz şərtlərini irəli sürməsi, faktiki olaraq, dekabr görüşünün baş tutmaması demək idi. Azərbaycan dövlətinin başçısı da bunu bəyan etdi.

Bakının sərt mövqeyi xarici tərəfdaşları Brüssel formatının dəyişdirilməsindən imtinaya məcbur etdi. Amma məhz həmin vaxt məlum oldu ki, Avropa Siyasi Birliyi çərçivəsində görüşlər bir daha olmayacaq, onlar danışıqlar prosesi formatı səviyyəsinə "çatmayacaq". Ən yaxşı halda onlar kəmiyyət dəyişikliyi, yəni Olaf Şoltsun iştirakının əlavə edilməsi ilə kifayətlənə bilərlər. Beləliklə, "ayaqüstü saatların dəqiqləşdirilməsi" də əvvəlki səviyyədə qaldı.

Moldovadan sonra - artıq cari ilin iyununda Brüsseldə danışıqlar prosesinin "xilas edilmiş" üçtərəfli formatında daha bir görüş oldu. Ondan sonra növbəti "saatların dəqiqləşdirilməsi" müəyyən olundu, bu, Avropa Siyasi Birliyi sammiti çərçivəsində Qranadada baş tutmalı idi.

Məhz burada ən maraqlı hadisə baş verdi. Bir sıra özəl mətbuat orqanlarında rəsmi Bakının bir və ya bir neçə dövlətin Azərbaycan və Ermənistan liderlərinin qeyri-rəsmi görüşündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə bağlı mövqeyi səbəbindən sammitin işində iştirak etməkdən imtina etməsi barədə xəbərlər yayıldı. Məsələ burasındadır ki, Bakı Praqa və Moldovadan əvvəl vasitəçilərin tərkibinə Makronun, sonra isə Şoltsun əlavə edilməsi ilə bağlı heç bir xüsusi etiraz etməmişdi, bu səbəbdən ədalətli olaraq ehtimal etmək olar ki, indi dövlətimizin ən azı iştirakçıların tərkibinin genişləndirilməsi üçün öz namizədini irəli sürməyə mənəvi haqqı vardır. Bu namizəd bizim əbədi dostumuz, Prezident İlham Əliyevin qardaş deyərək müraciət etdiyi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandır. Lakin danışıqlar masası arxasında özlərinə yer etmiş başqalarının birdən-birə buna etiraz etməsi Bakı üçün ayrı seçim yolu qoymayıb və bugünkü görüşdən imtina etmək zərurəti yaranıb.

Əgər bu informasiya həqiqətə uyğundursa və öz təsdiqini taparsa, onda Bakının qərarı təkcə etik baxımından deyil, həm də alqışlara layiq mətanət baxımından da düzgündür. Azərbaycan xalqı dostluğun qədrini bilir və qardaşlığın nə olduğunu başa düşür. Türkiyə və Azərbaycan bir millət və iki dövlət olaraq, öz siyasətini də birlikdə həyata keçirir. Bu, həmişə belə olacaq.

İlk dəfədir ki, iki qardaş dövlətin liderləri Avropa Siyasi Birliyinin sammitində iştirak etmirlər. Görünən odur ki, bu sammit hələ başlamadan əvvəl qalmaqala səbəb olub.

Azərbaycan qalib dövlətdir və məğlub ölkə, habelə onun havadarları bizim qarşımızda şərt qoya bilməzlər. Çoxdan yetişən və imzalanması mümkün olan sülh sazişini isə Avropa Siyasi Birliyinin köməyi olmadan da imzalamaq olar.

P.S. Bu məqalə dərc olunan vaxt Bakının sammitin işində iştirakı ilə bağlı mümkün səbəblər haqqında rəsmi təsdiq daxil oldu. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "X" mikrobloqunda rəsmi Bakının Mişel-Əliyev-Paşinyanın iştirakı ilə danışıqlar prosesinin üçtərəfli "Brüssel" formatını dəstəklədiyini və Türkiyənin Qranadada nəzərdə tutulan görüşdə iştirakına qarşı çıxan Fransanın mövqeyini pislədiyini yazıb.

# İrqçi, islamofob, azərbaycanofob Avropa Parlamenti - Avropanın utanc mənbəyi



**Gözlənildiyi kimi, Avropa Parlamenti ənənəsinə sadiq qaldı. Ədalətə, beynəlxalq hüquq və prinsiplərə deyil, qərəz və ikili standartlara üstünlük verdi. Fransanın təşəbbüsü ilə Azərbaycana qarşı qərəz və ikili standartlardan irəli gələn sənəd qəbul edildi.**

Beləliklə, azərbaycanofob, ermənipərəstliyi özündə ehtiva edən qətnamə ilə 30 il davam edən riyakar siyasətə sadiq qalmış oldular. Təşkilatın Qarabağda mövcud vəziyyətlə bağlı qəbul edilən qətnaməsində iddia olunub ki, bölgədə beynəlxalq hüquq və normalar pozulub. Heç bir fakt və rəqəm ortaya qoyulmadan Fransanın təşəbbüsü ilə qəbul edilən qətnamə başdan-ayağa qərəz və ikili standartlardan irəli gələn qərar kimi qiymətləndirilməlidir.

"Report"un bildirdiyi kimi, hətta bundan əvvəl Qarabağa səfər edən BMT missiyasının yekun rəyi belə nəzərə alınmayıb. Bu da onu deməyə əsas verir ki, təşkilat üçün orada mövcud vəziyyət, hansı proseslərin yaşanmasının heç bir əhəmiyyəti yoxdur. İnsanların ərazidən könüllü şəkildə çıxmasını "etnik təmizləmə" adlandırmaq isə həyasızlığın və riyakarlığın pik həddidir. 30 il bundan əvvəl Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş torpaqlarından yüz minlərlə insanın qovulması, didərgin salınmasına göz yuman Avropa Parlamenti bu qərarı ilə bölgədə sülh və əmin-amanlığı deyil, müharibəni dəstəklədiyini ortaya qoymuş olub.

"Etnik təmizləmə"ni 30 il əvvəl məhz Ermənistan azərbaycanlılara qarşı həyata keçirib. Ondan əvvəl isə bu siyasət əzəli Azərbaycan torpaqları olan və indi Ermənistan adlanan ərazidə həyata keçirilib. 200 minə yaxın insan əsrlər boyu yaşadıqları dədə-baba yurdlarından qovulub, hüquqları pozulub, yüzlərlə insan qətlə yetirilib. İndiyə qədər də pozulan hüquqları ilə bağlı hər hansı bir qərar qəbul edilməyib. BMT tərəfindən Azərbaycanın torpaqlarının işğaldan azad olunması barədə dörd qətnamə qəbul olunsa da, heç biri reallaşmayıb. Azərbaycan uzun illər beynəlxalq aləmin ədaləti bərpa edib torpaqlarının işğaldan azad ediləcəyinə inandı, o günü səbirlə gözlədi. Lakin o gün gəlmədi. Buna görə də Azərbaycan erməni təxribatlarına cavab verməyə məcbur qalıb müharibəyə başladı. Onda da insan haqları, hüquq və azadlıqlar qərblilərin yadına düşdü. Onlar 44 gün ərzində Azərbaycanı sanksiyalarla hədələməkdən tutmuş hərbi müdaxilə ilə qorxutmağa qədər getdilər. Bəzən adama elə gəlir ki, bu qətnamələri Ermənistan parlamenti qəbul edir və ya ola bilsin, bəzi erməni lobbi qruplarının onların üzərində müəyyən təsiri var. Əks halda, bunu başa düşmək çox çətindir. Avropanın hüquq-mühafizə orqanları Avropa Parlamentinin bəzi üzvləri ilə erməni lobbisinin üzvləri arasında əlaqələri araşdırsalar, yaxşı olar.

Avropa Parlamenti əmin olsun ki, bu qətnaməsi də kağız parçasından artıq deyil. Məsələ ondadır ki, Avropa Parlamentinin fəallığının səbəbi də var. Hədəf erməni lobbisinin maliyyəsini cəlb etməkdir. Onlardan çoxunun seçki kampaniyası erməni maliyyəsinə əsaslanır ki, bunun da əvəzini qaytarmaq lazımdır.

Beləliklə, Avropa Parlamentinin bu qərəzli yanaşması onun Azərbaycana qarşı səlib yürüşünün davamı kimi qiymətləndirilməlidir. Əminliklə deyə bilərik ki, müharibələrə, işğallara, insan iztirablarına, ölkələrin ərazi bütövlüyü və suverenliyinə etnik və dini simpatiya əsasında yanaşan irqçi, islamofob, azərbaycanofob Avropa Parlamenti Avropanın utanc mənbəyidir.

Avropa Parlamentinin Azərbaycana qarşı çıxardığı qərəzli qərar sistemli xarakter daşıyır və hətta nifrət elementlərini ehtiva edir. Bütün bunlar onu göstərir ki, Avropa Parlamentinin məqsədi insan hüquqları, beynəlxalq hüquq və Ermənistan ilə Azərbaycan arasında sülhü təşviq etmək deyil, regionda gərginliyi körükləməkdir.

# Qranadada dördtərəfli görüşün nəticələrinə dair bəyanat qəbul edilib

**Oktyabrın 5-də İspaniyanın Qranada şəhərində Avropa Siyasi Birliyinin (ASB) Sammiti çərçivəsində Fransa, Almaniya, Avropa İttifaqı Şurası və Ermənistan rəhbərlərinin (müvafiq olaraq Emmanuel Makron, Olaf Şolts, Şarl Mişel və Nikol Paşinyanın) iştirakı ilə və Azərbaycan və Türkiyə prezidentlərinin (müvafiq olaraq İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan) iştirakı olmadan "ermənipərəstlərin öz aralarında keçirdiyi yığıncağ"ın nəticələri ilə bağlı bəyanat qəbul olunub,**

AZƏRTAC xəbər verir ki, bəyanatda Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Fransa Prezidenti Emmanuel Makron və Almaniya Kansleri Olaf Şolts "Qarabağ ermənilərinin bu yaxınlarda kütləvi şəkildə köçürülməsinin nəticələri ilə əlaqədar Ermənistana əlavə humanitar yardımın göstərilməsi"nin zəruriliyini ifadə ediblər. Sənəddə vurğulanır ki, bu "qaçqınlar" "heç bir şərt olmadan, beynəlxalq monitorinqlə və onların tarixinə, mədəniyyətinə və insan hüquqlarına lazımi hörmətlə" öz evlərinə və yaşayış yerlərinə qayıtmaq hüququnu həyata keçirmək imkanına malik olmalıdırlar.

Sənəddə Prezident Mişelin 2023-cü il 14 may və 15 iyul tarixli bəyanatlarında qeyd olunduğu kimi, Ermənistanın (29 min 800 kvadratkilometr) və Azərbaycanın (86 min 600 kvadratkilometr) suverenliyinin, sərhədlərinin toxunulmazlığının və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında" Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına yönələn səylərin dəstəkləndiyi vurğulanıb.

Bəyanatda güc tətbiq etməmək və ya güc tətbiq etməklə hədələməmək prinsipinə ciddi riayət etmək çağırışı yer alıb, "SSRİ Baş Qərargahının tərəflərə təqdim edilmiş son xəritələr əsasında sərhədlərin delimitasiyası üzrə işlərin təcili aparılmasının zəruriliyi diqqətə çatdırılıb. Bildirilib ki, bu həm də qüvvələrin ayrılması, eləcə də sülh müqaviləsi üzrə aparılan işin başa çatdırılması və bütün humanitar məsələlərin həlli üçün əsas olmalıdır.

Bəyanatın müəllifləri regional əməkdaşlığın genişləndirilməsinə, Ermənistan ilə Türkiyə arasında bütün sərhədləri bərpa etməyə, eləcə də "ölkələrin suverenliyinə və yurisdiksiyasına tam hörmət, habelə bərabərlik və qarşılıqlılıq prinsipləri əsasında" regional kommunikasiyaları açmağa çağırıblar.

Avropa liderləri Ermənistanı və Azərbaycanı bütün saxlanılanları azad etməyə, habelə itkin düşənlərin taleyi ilə bağlı məsələnin həllində əməkdaşlıq etməyə və minalardan təmizləmə işlərinə kömək göstərməyə çağırıblar.

"Azərbaycan tərəfinin iştirakı olmadan qəbul edilən bəyanatların hansı əhəmiyyət kəsb edir?" Bu, ritorik sualdır.

# Məğlub olmağı da bacarmaq lazımdır

**200 ildir ki, erməni millətçiləri kirimək bilmədən ambisiyalarının zirvəsində eşələnməkdən zövq alırlar. Bu kütlə o qədər anlaşılmaz və heç bir məntiqə sığmayan elə vecsiz siyasi gedişlər edir ki, sanki iflic keçirib, sağalmaz xəstəliyə tutulub.**

Gördüyümüz, bildiyimiz, oxuduğumuz odur ki, müharibədə məğlub olan tərəf susub qınına çəkilər və quzu kimi harada desən, orada durar. Amma bu, erməni separatçılarına aid deyilmiş, sən demə. Onlar məğlub olur, sonra yenə də ara vermədən diz atıb əyilmək üçün əldən-ayaqdan gedirlər. Darmadağın olsalar da, ibrət alıb kirimək əvəzinə, "coşub" daha da cuşa gəlirlər.

Ermənistan yenə də vam oda qoyulmuş xaş kimi pıqhapıq qaynamaqdadır. Səngər qazıb lağım atırlar, növbəti münaqişələrə doğru iməkləyirlər. Bir sözlə, peşələri müharibəyə əmbiz oynadıb, göbək atmaqdır. Ağılları elə qıc olub, çat verib ki, gülüncə qaldıqlarını belə, anlamaq iqtidarında deyillər.

Fransa "ələkçinin qıl verəni" timsalında uzaqda olsa da, özünü ermənilərə yaxın və təəssübkeş göstərmək üçün dəridən- qabıqdan çıxır. Hələ əvvəlki prezident Fransua Olland əllərinə xına qoymuşdu ki, "Ermənistandan imtina Fransa üçün böyük abırsızlıq olardı. Artıq Ermənistan sərhədinin bizim üçün müqəddəs olduğunu bəyan etməyin vaxtı çatıb." Gülməlisi odur ki, fransızlar faşist Almaniyasına məğlub olanda sərhədlərinin müqəddəsliyini düşünmədən göz qırpımında məğlubiyyət aktına imza atmışdılar, amma nədənsə 44 günlük Vətən müharibəsində ermənilər darmadağın edildikdən sonra əl-ayağa düşüb küy qaldırırlar. Ermənilərə sədaqətlərini nümayiş etdirmək üçün poz verməkdən belə, utanmırlar.

Məsələnin mahiyyətini belə anlamaq lazımdır: Azərbaycan dövləti antiterror tədbirləri sayəsində erməni faşist ideologiyasını darmadağın etdi, işğal altında qalan ərazilərimizi də geri qaytardı. Əksər dövlətlər bizim işğalçılara qarşı apardığınmız aksiyaları dəstəklədi, amma Fransa hamıdan fərqli, birmanalı şəkildə erməniləri qane edən mövqe sərgilədi. Böyük güclər ədalətli olmayanda, dünya da ədalətli ola bilmir.

Məhz belə üzdəniraq dəstək ona səbəb olur ki, erməni millətçiləri reallıqla barışıb yalanlardan əl çəkə bilmirlər. Ümumiyyətlə, onlar ömürləri boyu yalanlara alışıblar. Yalan onların keçmişinə, tarixinə, əqidə və əxlaqlarına hopub. Dilləri, əlifbaları, tarixləri, nələri varsa yalan üstündə qurulub. Həqiqətə baş əymək, düz danışmaq, aldatmamaq onlar üçün intihara bərabərdir. Bir gün nəsə uydurmasalar, yaşaya bilməyəcəklər.

Amma onların təbliğat maşınının anlamadığı sadə bir həqiqət var. Bu yalanlar illərlə, bəzən də əsrlərlə yaşaya bilirdi. Lakin bu gün tarixi reallıqlar fərqlidir. Artıq istənilən erməni yalanı bir əsr əvvəlki kimi uzun ömür sürmür, gündəmə sızan kimi ifşa olunur. Məsələn, onların yalnız bu il ərzində Beynəlxalq Ədalət Məhkəməsində "irqi ayrı-seçkilik"lə bağlı qaldırdıqları 3 iddiadan ikisi rədd edilmişdir. Azərbaycan tərəfi Ermənistanın bu əsassız iddialarına tutarlı cavab vermişdir, daha doğrusu, sadəcə, həqiqəti ortaya qoymuşdur.

"Təəssüf ki, Ermənistan tərəfi bizə nə mina xəritələri, nə də məzarlıqlarla bağlı xəritələr barədə dəqiq məlumat verir" - bunu Azərbaycanın Baş prokuroru Kamran Əliyev jurnalistlərə açıqlamasında bildirib. İşğaldan azad edilmiş ərazilərdə aşkarlanan kütləvi məzarlıqlarla bağlı Azərbaycan beynəlxalq təşkilatlarla əməkdaşlıq etsə də, təəssüf ki, Ermənistan tərəfi bizə mina xəritələri və məzarlıqlarla bağlı xəritələr barədə dəqiq məlumat vermir. Görürsünüz, yenə də yalan.

İstənilən müharibədə uduzan tərəf əvvəlcə məğlubiyyət aktını imzalayır və sonra qalib tərəfin bütün tələblərini icra etməyə başlayır. Ermənistan isə faciəvi məğlubiyyətlərindən sonra yenidən Azərbaycanın Qarabağ bölgəsində qalmış quldur tör-töküntülərini silahlandırmağa başladı. Bu, dünya tarixində görünməmiş nadir hadisələrdən idi. Və haqq etdikləri cavabı da aldılar. Artıq qondarma rejimin liderlərindən bir neçəsi qandallanıb Bakıya gətirilib. Digərləri də gətiriləcək, geci-tezi var. Ona görə də Ermənistan sülhə nə qədər tez gəlsə, bir o qədər yaxşıdır, ilk növbədə özü üçün.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Menendezlərin yeni qalmaqalı

## ErməniPərəst senatorun arvadı piyadanın ölümü ilə nəticələnən qəza törədib

**ABŞ Senatının xarici əlaqələr komitəsinin sabiq sədri, erməniPərəst Bob Menendez və onun erməniəsilli həyat yoldaşı Nadine Arslanianın ittiham olunduğu proseslə bağlı yeni detallar üzə çıxmaqdadır. Rüşvət almaqda ittiham olunan senator və arvadı ilə bağlı davam edən təhqiqat zamanı onların qanunazidd əməlləri barədə aşkarlanan yeni faktlar ölkə gündəminin ilk sıralarında yer alır.**

AZƏRTAC xəbər verir ki, Birləşmiş Ştatların nüfuzlu "The New York Times" qəzetində dərc edilən məqalədə senatorun arvadı Nadine Arslanianın 2018-ci ildə törətdiyi avtomobil qəzası nəticəsində bir nəfərin ölümünə səbəb olmasının ortaya çıxdığı bildirilib.


The New York Times

A 2018 fatal car crash in Bogota, N.J., drew no media attention and resulted in no charges. The driver was the soon-to-be wife of Senator Robert Menendez.

12/12/2018 20:05:56

It was a cold evening in December 2018, and Nadine Arslanian, the soon-to-be wife of Senator Robert Menendez, was zipping through

"Menendez ittihamı: "Mersedes" və ölümlə nəticələnən gizli qəza" adlı məqalədə qeyd edilib ki, 2018-ci ilin dekabrında Nyu Cersi ştatının Boqota məhəlləsində ölümlə nəticələnən avtomobil qəzası senator Robert Menendezin gələcək həyat yoldaşı üçün heç bir ittihamla nəticələnmədi. Həmin gün Nadine Arslanian "Mercedes-Benz" markalı qara rəngli avtomobillə hərəkətdə olarkən 49 yaşlı Riçard Koopu vurub. Ağır yaralanan həmin şəxs xəstəxanaya çatdırılsa da, aldığı xəsarətlərdən az sonra həyatını itirib. Polis hadisə vaxtı avtomobildə tək olan Nadine Arslanianın qısa sorğu-sualdan sonra "günahsız olduğu" qənaətinə gəlib. Həmin gecə Boqota məhəlləsində baş verənlər barədə illər boyu xəbər verilmədi. Bu isə şahidlərin və Koopun ailəsinin dəhşətli qəza barədə susdurulması barədə fikirlərə yol açır. Ancaq indi - təxminən beş il sonra Amerika siyasətini sarsıdan qalmaqal barədə yeni epizodların üzə çıxması senatorla bağlı işdə yeni suallar doğurur.

Yazıda vurğulanıb ki, bu məsələnin üstünün açılması keçən ay Nadine Arslaniana, onun "güclü" ərinə və üç iş adamına qarşı elan olunan 39 səhifəlik federal ittihamnamədə irəli sürülən rüşvət qalmaqalından biri barədə tutarlı ipucları verir. Prokurorlar həmin ittiham sənədində qeyd ediblər ki, 2018-ci ilin dekabrında baş vermiş qəzadan sonra xanım Menendez avtomobilə ciddi ehtiyac duyub. Buna görə də senator 60 min dollarlıq "Mersedes" avtomobilinin əvəzinə, Nyu Cersi ştatından bir iş adamı ilə bağlı cinayət təqibinin ləğvində maraqlı olub.

Məqalədə qəza nəticəsində həlak olan şəxsin bacısı Rosemari Koop-Angelikolanın bu hadisə ilə bağlı hüquqi prosedurların başdansovdu aparıldığını, bu barədə mediada xəbər verilmədiyini qeyd etdiyi bildirilib.

Yazıda bu qəza ilə bağlı bir sıra müəmmalı məqamların olduğu vurğulanıb. Belə ki, qəza nəticəsində həlak olan şəxsdən alkoqol və narkotik müayinələr üçün nümunələrin götürüldüyü, ancaq sürücüdən götürülmədiyi qeyd edilib. Bundan başqa, hadisə yerinə gələn və özünü təqaüdçü zabit kimi təqdim edən şəxsin araşdırmaya prokurorların cəlb edilməməsi barədə polislərlə danışıq aparması, həmçinin polis zabitlərindən birinin qəzanı törədən Nadine Arslanianın guya heç bir "günahının olmaması" qeydi barədə məqamların ciddi şübhələr doğurduğu vurğulanıb.

Qəzetin yazdığına görə, Bob Menendez və Nadine Arslanianın (onlar 2020-ci ildə evləniblər - red.) 2018-ci ildən münasibətləri var idi. Bob Menendezi sonradan birgə rüşvət qalmaqalının iştirakçısı olduğu misirli iş adamı Vael Hana ilə məhz gələcək həyat yoldaşı tanış edib. İttihama görə, senator Misir hökumətinə qanundankənar yollarla yardım etmək üçün öz səlahiyyətlərindən sui-istifadə edib.

Qeyd edək ki, son dərəcə cidd-cəhdlə ört-basdır edilmiş bu qəzanın üstünün beş ildən sonra açılması və bununla bağlı yaranan yeni qalmaqal onsuz da çətin durumda olan Menendez ailəsinin işini daha da ağırlaşdırıb. ABŞ Konqresinin xarici əlaqələr komitəsinin sədri Bob Menendez bu vəzifəyə gəldiyi 2006-cı ildən sonra rüşvət ittihamı ilə ikinci dəfədir üzləşir. O, əvvəlki ittihamlardan yayınmağa nail olsa da, hazırkı ittihamlar kifayət qədər ciddi sübutlar əsasında irəli sürülüb. Məhz bunun nəticəsidir ki, Bob Menendez sentyabrın 23-də vəzifəsindən müvəqqəti istefa verməyə məcbur olub.

# Müstəmləkəçi Fransanın rəsmiləri böhtan dolu bəyanatlarla özlərini ifşa edirlər

**İşğalçıları, terrorçuları, uşaq qatillərini dəstəkləyənlərin, onlara arxa duranların uzun illər Ermənistan-Azərbaycan münaqişəsinin həllində müsbət rol oynamaqdansa, bunun əksinə fəaliyyət göstərdikləri məlumdur. Bir həqiqət də var, sülhdən, ədalətdən dəm vuranların əsl simalarını yalnız bugünkü əməlləri deyil, eyni zamanda yaşadıqları tarix aydın şəkildə göstərir.**

Fransa kimi tarixi soyqırımlarla "zəngin" olan, əli bir milyon yarım əlcəzairlinin qanına batan müstəmləkəçinin Cənubi Qafqazda münaqişənin bitməsini istəməsi, sülhə, sabitliyə nail olmaqda maraqlı olması qətiyyən inandırıcı görünmür. Çünki Fransa demokratik ölkə olmadığını əsrlər boyu apardığı müstəmləkəçilik siyasəti ilə, Şimali Afrikada, Əlcəzairdə və dünyanın digər yerlərində yerli əhaliyə tutduğu qanlı divanla, soyqırımları ilə təsdiq edir.

Fransanın ədaləti, beynəlxalq hüququ görməzdən gəldiyinin daha bir təzahürü Azərbaycan torpaqlarını on illər boyu işğalda saxlayan, həmin ərazilərdə heç bir quruculuq işləri həyata keçirməyən, yalnız dağıtmaqla, uçurmaqla, xarabalığa çevirməklə məşğul olan qəsbkar Ermənistandan dəstəyini əsirgəməməsidir.

Ermənistan-Azərbaycan münaqişəsinin ən kəskin dövrlərində də Fransa hər zaman yanğını körükləyənlərdən oldu. Artıq keçmişdə qalan Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını yerinə yetirmək məqsədilə yaradılan qurumun həmsədr dövlətlərindən biri kimi, bu ölkə düzgün qərar verməli ikən öz xislətindən kənara çıxa bilmədi. Fransa yürütdüyü erməniPərəst siyasətdən çəkilmədi, bir daha iç üzünü ortaya qoydu.

Bütün dünyaya bəllidir ki, Azərbaycan 2020-ci ilin payızında, Ermənistan silahlı qüvvələrinin təxribatı səbəbindən başlayan İkinci Qarabağ müharibəsində ərazilərini öz gücü ilə işğaldan azad etdi. Amma müharibədən sonra da Ermənistan işğalçılıq mövqeyindən uzaqlaşmadı, ordumuzun erməni vandallarının zülmündən xilas etdiyi torpaqlarımızda dinc həyatın bərqərar olmasına imkan verməməyə çalışdı. Qarabağımızda yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri təxribatlar, mina terrorları törətməkdə davam edirdilər. Bu ilin 19-20 sentyabrında Azərbaycanın Qarabağ bölgəsində lokal xarakterli antiterror tədbirlərinin həyata keçirməsində məqsəd bunun qarşısını almaq, suverenliyini tam bərpa etmək idi. Azərbaycan Ordusu çətin relyefə malik, uzun illər Ermənistan silahlı qüvvələri tərəfindən böyük mühəndis işləri nəticəsində qurulan istehkamların mövcud olduğu ərazidə antiterror tədbirlərini uğurla həyata keçirdi. Lokal xarakterli antiterror tədbirləri çərçivəsində silahlı qüvvələrimiz tərəfindən mülki şəxslər və heç bir mülki obyekt qətiyyən hədəfə alınmadı, yalnız hərbi hədəflər zərərsizləşdirildi. Bundan sonra bölgəni nələrin gözlədiyi də bəllidir. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bütün bölgələri kimi, azadlığı özünə qaytarılmış Qarabağda və Şərqi Zəngəzurda da birgəyaşayış təmin ediləcək.

Dövlət başçısı İlham Əliyev bu il sentyabrın 20-də xalqa müraciətində diqqətə çatdırdı ki, Qarabağda yaşayan erməni əhali də nəhayət rahat nəfəs ala bilər. Prezident İlham Əliyev bir daha vurğuladı ki, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır: "Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır".

Lokal xarakterli antiterror tədbirlərindən sonra məqsədyönlü işlərin reallaşdırılmasına başlanıb. Azərbaycan dövləti sülhün, sabitliyin, təhlükəsiz həyatın bərqərar olmasına çalışır. Niyyəti də bəllidir, gördüyü işlər də göz önündədir. O zaman haqlı sual meydana çıxır. Bütün bunları görmək istəməyən, qara yaxmağa çalışan, şərə xidmət edən Fransanın məqsədi nədir?

Bu ölkənin rəsmilərinin sərsəm bəyanatları, Ermənistana yeni müharibə çağırışları təsdiq edir ki, Paris Cənubi Qafqaz regionunda otuz ildən çox davam edən münaqişənin bitməsindən narazıdır və buna mane olmağa çalışır. Oktyabrın 3-də Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonnanın Ermənistana səfəri çərçivəsində mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaların da əsl məqsədi budur. Xarici İşlər Nazirliyindən açıqlama verildi ki, 30 ilə yaxın müddətdə azərbaycanlıların öz doğma torpaqlarından güc yolu ilə kütləvi şəkildə qovulmasına, onlara qarşı müharibə cinayətləri və kütləvi qırğınlar törədilməsinə heç zaman əhəmiyyət verməyən Fransanın indi heç bir əsas olmadan və BMT, Beynəlxalq Qırmızı Xaç Komitəsi, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı və digər beynəlxalq təşkilatların səsləndirdiyi mövqeyə tamamilə zidd olaraq, bölgədən könüllü əsasda getmiş erməni sakinlərin ərazidən zorla köçkün düşdüyünü iddia etməsi beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır.

Fransanın Ermənistanı hər vəchlə silahlandırmağa çalışması, onu yenidən təcavüzə və hərbi avantüraya cəlb etməsi qəbuledilməzdir. Fransanın bölgəmizə tarixən müdaxiləetmə cəhdləri kimi, bu səylərin də uğursuzluğa düçar olacağı rəsmi Parisə aydın olmalıdır.

Beynəlxalq təşkilatlar da, Ermənistanın baş naziri də Azərbaycanın həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı dinc erməni sakinlərə qarşı heç bir təhdid olmadığını bəyan ediblər.

Azərbaycan hər zamankı kimi, öz haqlı mövqeyində qətiyyətlidir. Müstəmləkəçi Fransanın rəsmilərinin yalan, böhtan dolu bəyanatları həqiqəti pərdələyə bilmir, yalnız özlərini ifşa edirlər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## ZƏFƏR gündəliyi
## 6 oktyabr 2020-ci il





Cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Müdafiə Nazirliyi işğaldan azad edilmiş Cəbrayıl rayonunun Çaxırlı kəndinin videogörüntülərini yayır.

Azərbaycan Ordusunun əks-hücum əməliyyatı zamanı müxtəlif istiqamətlərdə düşmənin zirehli texnikaları, atəş, dəstək və təminat vasitələri darmadağın edilib. Düşmənin 63-cü tank taborunun daha 3 tankı, o cümlədən 41-ci və 62-ci artilleriya alaylarının 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib. 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri zərərsizləşdirilib.

❖ ❖ ❖



Rusiyanın "Pervıy kanal" televiziyasına müsahibə verən Prezident İlham Əliyev Azərbaycanın savaşa muzdlu döyüşçüləri cəlb etməsi ilə bağlı iftiralara cavab verdi.

Prezident dedi ki, bu gün Azərbaycan Ordusu öz ərazilərimizi azad edir. Döyüş əməliyyatları yerindən çəkilmiş videolarda bizim artilleriyanın, pilotsuz uçuş aparatlarının necə işləməsi, azərbaycanlı əsgər və zabitlərin işğaldan azad edilmiş torpaqlarda bayraqlarımızı necə ucaltmaları görünür:

"Buna görə də bu ittihamlar əsassızdır, biz onları qətiyyətlə rədd edirik və bu cür şayiələrin, yoxlanılmamış məlumatların ictimai rəylə necəsə manipulyasiya etməsinə yol verə bilmərik. Qoy sübutlar təqdim etsinlər. Bu gün fəal döyüş əməliyyatlarının onuncu günüdür, bizə heç bir sübut təqdim edilməyib".

Dövlət başçısı vurğuladı ki, Ermənistan yenə də dinc əhaliyə atəş açır. Bu da erməni tərəfinin köhnə taktikasıdır. Onlar hər dəfə döyüş meydanında məğlubiyyətə uğrayanda dinc əhaliyə ziyan vurmağa və beləliklə, Azərbaycan Ordusunun əks-hücumunu dayandırmağa çalışaraq, belə alçaq hərəkətlərə əl atırlar. Lakin onlar bu əks-hücumu dayandıra bilmirlər və bilməyəcəklər.

❖ ❖ ❖

Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilir. Müşavirədə aparılan əks-hücum əməliyyatında hazırda mövcud olan vəziyyət təhlil olunaraq, düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl darmadağın edilməsinin davamlılığı tapşırılır.

Müdafiə naziri qoşunlara azad olunmuş ərazilərdə həyati əhəmiyyətli və ilkin zəruri tədbirlərin görülməsinə göstəriş verir. Nazir tərəfindən "İsgəndər" əməliyyat-taktiki raket komplekslərinin tətbiq olunacağı halda adekvat cavab veriləcəyi bildirilir. Zakir Həsənov Azərbaycan Ordusuna arsenalındakı yüksəkdəqiqlikli və böyük dağıdıcı qüvvəyə malik silah növlərini tətbiq etməklə düşmən tərəfinin hərbi-strateji infrastrukturuna böyük zərbələr endirməyi planlaşdırmağı tapşırır.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri Yevlax, Goranboy və Beyləqan rayonlarının ərazilərini atəşə tutur.

❖ ❖ ❖



İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan Prezidentinə telefonla zəng edir.

Həsən Ruhani Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın davam etməsindən ölkəsinin narahatlığını və münaqişənin tez bir zamanda sülh yolu ilə həll olunacağına ümidvar olduğunu bildirir.

Prezident İlham Əliyev qeyd edir ki, Ermənistanın təxribatına cavab olaraq başlanan savaşda hərbi qulluqçularımız, 27 mülki şəxsimiz həlak olub, 170-dən çoxu yaralanıb, 900-dən artıq evə ziyan dəyib və ya tamamilə dağıdılıb. Azərbaycan tərəfi uğurlu əks-hücum əməliyyatları həyata keçirərək, işğal olunmuş torpaqlarımızın bir hissəsini işğaldan azad edib.

Dövlətimizin başçısı qeyd edib ki, İran-Azərbaycan dövlət sərhədinin işğal olunmuş ərazisinin bir hissəsi Azərbaycanın nəzarətinə keçib və sərhədboyu işğaldan azad olunmuş ərazilərdə tezliklə Azərbaycan sərhəd qoşunlarının və sərhəd infrastrukturunun yerləşdirilməsi nəzərdə tutulur.

Prezident həmçinin Ermənistanın davam edən hərbi təcavüzünün və təxribatlarının regionda sülhün və təhlükəsizliyin təmin olunması işində ən böyük əngəl olduğunu bildirmişdi.

❖ ❖ ❖

Gün ərzində cəbhənin müxtəlif istiqamətlə-





rində gedən döyüşlərdə Ermənistan ordusuna məxsus 2 ədəd BM-21 "Qrad"ı sıradan çıxarılıb.

41-ci artilleriya alayının atəş mövqelərində dayanan "Qrad"lar Azərbaycan Ordusunun atəş zərbəsi ilə məhv edilib.

Bundan əlavə, 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri də bölmələrimizin sərrast atəşi ilə məhv edilib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 355

**QƏRAR**

Bakı şəhəri, 4 oktyabr 2023-cü il

## “Elektron əmtəə-nəqliyyat qaiməsinin forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları”nın və “Yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları”nın təsdiq edilməsi barədə

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli 1533 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Elektron əmtəə-nəqliyyat qaiməsinin forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları" təsdiq edilsin (2 nömrəli əlavə).

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi elektron əmtəə-nəqliyyat qaiməsinin və yük avtonəqliyyatı üçün elektron yol vərəqinin tətbiqi ilə əlaqədar müvafiq texniki imkanların yaradılmasını təmin edən tədbirlər görsün.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli 355 nömrəli Qərarı ilə təsdiq edilmişdir**

**1 nömrəli əlavə**

# Elektron əmtəə-nəqliyyat qaiməsinin forması, tətbiqi, uçotu və istifadəsi qaydaları

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Vergi Məcəlləsinin 71-3.2-ci maddəsinə əsasən hazırlanmışdır və elektron əmtəə-nəqliyyat qaiməsinin forması, tətbiqi, uçotu və istifadəsi qaydalarını müəyyən edir.

1.2. Elektron əmtəə-nəqliyyat qaiməsi - "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq avtomobil nəqliyyatı ilə əmtəə təyinatlı yüklərin ölkədaxili daşınması zamanı yük daşıma müqaviləsində başqa qayda nəzərdə tutulmamışdırsa, yükgöndərən tərəfindən tərtib edilməklə rəsmiləşdirilən sənəddir.

1.3. Avtomobil nəqliyyatı ilə əmtəə təyinatlı yüklərin daşınması elektron əmtəə-nəqliyyat qaiməsi ilə rəsmiləşdirilir. Bu Qaydalara əlavə ilə müəyyən edilmiş elektron əmtəə-nəqliyyat qaiməsi ilə rəsmiləşdirilməmiş əmtəə təyinatlı yüklərin daşınmasına yol verilmir.

1.4. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.11-10-cu maddəsinə əsasən "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq avtomobil nəqliyyatı vasitəsilə əmtəə təyinatlı yüklərin daşınmasına görə elektron əmtəə-nəqliyyat qaiməsini tərtib etmək vergi ödəyicisinin vəzifəsidir.

### 2. Elektron əmtəə-nəqliyyat qaiməsinin tərtib edilməsi

2.1. Elektron əmtəə-nəqliyyat qaiməsi Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemində (bundan sonra - informasiya sistemi) yaradılmış "Elektron əmtəə-nəqliyyat qaiməsi" altsistemində Azərbaycan dilində hazırlanır.

2.2. Elektron əmtəə-nəqliyyat qaiməsi tərtib edilərkən daşımanın xarakterindən asılı olaraq əməliyyatın növü hissəsində aşağıdakılardan biri seçilir:

2.2.1. malların bir vergi ödəyicisindən digər vergi ödəyicisinə təqdim edilməsi ilə bağlı daşınması;

2.2.2. malların bir vergi ödəyicisindən digər vergi ödəyicisinə qaytarılması ilə bağlı daşınması;

2.2.3. əvvəlcədən sifariş edilməyən, satışa çıxarılan malların daşınması;

2.2.4. pərakəndə qaydada son istehlakçıya təqdim edilmiş malların daşınması;

2.2.5. pərakəndə qaydada təqdim edilmiş son istehlakçıdan qaytarılan malların daşınması;

2.2.6. ümumi istifadədə olan avtomobil yollarına çıxmaqla malların təsərrüfatdaxili daşınması;

2.2.7. emala veriləcək malların daşınması;

2.2.8. emal prosesi keçmiş qaytarılan malların daşınması;

2.2.9. idxal edilmiş və ya ixrac olunan malların ölkədaxili daşınması;

2.2.10. alış aktı (elektron alış aktı) əsasında əldə edilmiş malların daşınması;

2.3. Elektron əmtəə-nəqliyyat qaiməsində aşağıdakı məlumatlar əks etdirilir.

2.3.1. Elektron əmtəə-nəqliyyat qaiməsinin "seriyası", "nömrəsi" və "tarixi" sətirlərində - elektron əmtəə-nəqliyyat qaiməsinin proqram tərəfindən avtomatik generasiya olunan seriyası, nömrəsi və tarixi;

2.3.2. "QR Code (Quick Response Code - Sənədin sürətli məlumat kodu)" hissəsində - xüsusi qurğular vasitəsilə məlumatların oxunmasını özündə əks etdirən optik ştrix-kod, sənədin sürətli məlumat kodu;

2.3.3. "Qaimənin statusu" sətrində - elektron əmtəə-nəqliyyat qaiməsinin statusu (cari/düzəliş/ləğv);

2.3.4. "Əməliyyatın növü" sətrində - bu Qaydaların 2.2-ci bəndində qeyd olunan daşımanın xarakterindən asılı olaraq əməliyyatlara dair məlumatlar;

2.3.5. "Yükgöndərən" xanasında - vergi ödəyicisi olan hüquqi şəxsin tam adı, hüquqi ünvanı, VÖEN-i və ya fiziki şəxsin adı, atasının adı, soyadı, ünvanı, VÖEN-i, vergi ödəyicisi olmadıqda adı, atasının adı, soyadı, ünvanı və şəxsiyyət vəsiqəsinin FİN kodu;

2.3.6. "Yükalan" xanasında - vergi ödəyicisi olan hüquqi şəxsin tam adı, hüquqi ünvanı, VÖEN-i və ya fiziki şəxsin adı, atasının adı, soyadı, ünvanı, VÖEN-i, vergi ödəyicisi olmadıqda adı, atasının adı, soyadı, ünvanı və şəxsiyyət vəsiqəsinin FİN kodu;

2.3.7. "Daşıyıcı" xanasında - daşınma müqaviləsi və ya digər qanuni əsaslarla haqq müqabilində yük daşımalarını yerinə yetirən hüquqi şəxsin tam adı, hüquqi ünvanı və VÖEN-i və ya fiziki şəxsin adı, atasının adı, soyadı, ünvanı və VÖEN-i;

2.3.8. "Yükün çatdırılma yeri" xanasında - yüklərin çatdırıldığı yerin ünvanı və olduğu təqdirdə təsərrüfat subyektinin (obyektinin) vergi orqanındakı uçot kodu;

2.3.9. "Yükləmənin yeri və tarixi" xanasında - yükləmənin həyata keçirildiyi yerin ünvanı və yükləmənin başa çatma tarixi, olduğu təqdirdə təsərrüfat subyektinin (obyektinin) vergi orqanındakı uçot kodu;

2.3.10. "Yükün göndərilmə tarixi" xanasında - yükün planlaşdırılan göndərilmə tarixi;

2.3.11. "Yükün dəyəri" xanasında - yük qiymətli obyekt olduqda bütün hallarda, digər yüklər üzrə isə dəyəri barədə məlumat olduğu halda, yükün manat ifadəsi ilə ümumi dəyəri;

2.3.12. "Daşınma şərtləri ilə bağlı xüsusi göstərişlər" xanasında - zəruri hallarda yükgöndərənin və ya yükalanın daşıma şərtləri ilə bağlı xüsusi göstərişləri;

2.3.13. "Daşıma haqqı" xanasında - daşınma müqaviləsi və ya digər qanuni əsaslarla yüklərin daşınmasına görə daşıma haqqı;

2.3.14. "Əlavə xərclər" xanasında - yüklərin daşınması ilə bağlı əlavə xərclər;

2.3.15. "Əvvəlcədən ödənilmiş məbləğ" xanasında - tərəflərin öz üzərinə götürdükləri və ya bir-birinə verdiyi avansın məbləğləri;

2.3.16. "Xüsusi təhlükəli və potensial təhlükəli yük olduqda - təhlükənin konkret növü və belə hallarda yerinə yetirilməli ehtiyat tədbirləri" xanasında - xüsusi təhlükəli və potensial təhlükəli yükə aid təhlükənin konkret növü və bununla bağlı görülməli ehtiyat tədbirləri;

2.3.17. "Yük yerlərinin adı və nömrələri" xanasında - yük yerlərinin adı və nömrələri;

2.3.18. "Yük yerlərinin miqdarı (həcmi)" xanasında - yük yerlərinin sayı və həcmi;

2.3.19. "Qabı" xanasında - yüklərin qablaşdırılması barədə məlumat (qutu, butulka və s.);

2.3.20. "Brutto çəkisi (kq)" xanasında - yükün tam çəkisi (kq);

2.3.21. "Daşıyıcıya yüklə birlikdə verilmiş sənədlərin siyahısı" xanasında - uyğunluq sertifikatı, əmtəələrin mənşə sertifikatı, keyfiyyət sertifikatı, baytarlıq sertifikatı, baytarlıq şəhadətnaməsi, karantin sertifikatı və daşıyıcıya yüklə birlikdə verilmiş digər müşayiətedici sənədlərin siyahısı;

2.3.22. "Yükün tərkibi" xanasında - daşınan yüklərin adı, ölçü vahidi, miqdarı, məbləği və yüklə bağlı təsdiqedici sənədlər (yük gömrük bəyannaməsinin, elektron alış aktının, elektron qaimə-fakturanın seriya və nömrələri, nəzarət-kassa aparatı çekinin fiskal identifikasiya nömrəsi və yüklə bağlı digər təsdiqedici sənədlərin nömrələri);

2.3.23. "Əlavə qeydlər" xanasında - yük daşınması müqaviləsinin tərəflərinin zəruri hesab etdikləri digər məlumatlar;

2.3.24. "Sürücü" xanasında - avtonəqliyyat vasitəsini idarə etmək hüququ olan, daşımalar prosesində birbaşa iştirak edən şəxsin adı, atasının adı, soyadı və şəxsiyyət vəsiqəsinin FİN kodu;

2.3.25. "Nəqliyyat vasitəsi" xanasında - daşımanın həyata keçirildiyi avtonəqliyyat vasitəsinin markası, növü və dövlət qeydiyyat nişanı, qoşqu və ya yarımqoşqu olduğu halda onun dövlət qeydiyyat nişanı.

2.4. Elektron əmtəə-nəqliyyat qaiməsində məbləğ Azərbaycan Respublikasının pul vahidi - manatla göstərilir.

2.5. Elektron əmtəə-nəqliyyat qaiməsinin tərtibi zamanı operativliyin təmin edilməsi məqsədilə VÖEN, şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi və FİN kodu və ya doğum tarixi və FİN kodu, nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı məlumatları daxil edilməklə aidiyyəti dövlət informasiya sistemlərində və ehtiyatlarında olan məlumatlar əsasında müvafiq xanalar avtomatik doldurulur.

2.6. Bu Qaydaların 2.3.11-ci (yük qiymətli obyekt olduqda istisna), 2.3.12-ci, 2.3.14-cü, 2.3.15-ci, 2.3.16-cı (xüsusi təhlükəli və potensial təhlükəli yükün daşınması halı istisna olmaqla), 2.3.21-ci və 2.3.23-cü yarımbəndlərində qeyd olunan, doldurulması məcburi xarakter daşımayan xanalardan (sətirlərdən) başqa elektron əmtəə-nəqliyyat qaiməsinin digər xanalarının (sətirlərinin) doldurulması zəruridir və həmin xanalar (sətirlər) tam doldurulduqda elektron əmtəə-nəqliyyat qaiməsi lazımi qaydada tərtib edilmiş hesab edilir.

2.7. Əvvəlcədən sifariş edilməyən malların daşınması və ümumi istifadədə olan avtomobil yollarına çıxmaqla malların təsərrüfatdaxili daşınması, ixrac olunan malların ölkədaxili daşınması əməliyyatları üzrə elektron əmtəə-nəqliyyat qaiməsi tərtib olunan zaman bu Qaydaların 2.3.6-cı, idxal edilmiş malların ölkədaxili daşınması əməliyyatları üzrə isə bu Qaydaların 2.3.5-ci yarımbəndlərində qeyd olunan xanalar (sətirlər) doldurulmur. Elektron əmtəə-nəqliyyat qaiməsinin doldurulması məcburi olmayan boş qalmış xanaları (sətirləri) olarsa, bunlar proqram təminatı tərəfindən "0" (sıfır) kimi qəbul edilir.

2.8. Yükgöndərən və ya yükdaşıma müqaviləsinə əsasən elektron əmtəə-nəqliyyat qaiməsini tərtib etməli olan digər şəxs elektron əmtəə-nəqliyyat qaiməsinin düzgün doldurulmasını təmin etməlidir.

### 3. Elektron əmtəə-nəqliyyat qaiməsinin tətbiqi və istifadəsi

3.1. Elektron əmtəə-nəqliyyat qaiməsinin tərtibi zamanı yükgöndərən və ya yükalan gücləndirilmiş elektron imza vasitəsilə informasiya sisteminə daxil olaraq elektron əmtəə-nəqliyyat qaiməsini tərtib etməklə imzalayır və bu Qaydaların 3.3-cü və 3.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla təsdiq üçün qarşı tərəfin elektron kabinetinə göndərir.

3.2. Daşınma müqaviləsi əsasında və ya digər qanuni əsaslarla haqq müqabilində yüklər daşınan zaman elektron əmtəə-nəqliyyat qaiməsini tərtib edən vergi ödəyicisi həmin qaiməni təsdiq üçün daşıyıcının informasiya sistemində yaradılmış elektron kabinetinə göndərməlidir.

3.3. Bu Qaydaların 2.2.4-cü, 2.2.5-ci, 2.2.6-cı, 2.2.9-cu və 2.2.10-cu yarımbəndlərində qeyd olunan əməliyyatlar üzrə yüklərin daşınması zamanı daşıyıcı ayrıca şəxs olmadığı halda tərtib edilmiş elektron əmtəə-nəqliyyat qaiməsi təsdiq üçün qarşı tərəflərə göndərilmir.

3.4. Vergi orqanında uçotda olmayan şəxsin yüklərinin daşınması zamanı tərtib edilmiş elektron əmtəə-nəqliyyat qaiməsi kağız daşıyıcıda qanunvericiliyə uyğun olaraq çap edilərək vergi orqanında uçotda olmayan şəxs tərəfindən imzalanır.

3.5. Yükalan və ya yükgöndərən gücləndirilmiş elektron imza vasitəsilə informasiya sistemində elektron əmtəə-nəqliyyat qaiməsini təsdiq etməlidir. Yükalan və ya yükgöndərən tərəfindən elektron əmtəə-nəqliyyat qaiməsi təsdiq edilmədikdə, lakin həmin qaimədə qeyd olunan mallar üzrə tərtib olunmuş elektron qaimə-fakturalar təsdiq edildikdə həmin elektron əmtəə-nəqliyyat qaiməsi təsdiq edilmiş sayılır.

3.6. Daşıyıcı daşıma başlanan anadək gücləndirilmiş elektron imza vasitəsilə informasiya sistemində elektron əmtəə-nəqliyyat qaiməsini təsdiq etməlidir. Daşıyıcı tərəfindən elektron əmtəə-nəqliyyat qaiməsinin təsdiq olunmaması həmin elektron əmtəə-nəqliyyat qaiməsinin rəsmiləşdirilməməsi hesab olunur.

3.7. Daşıyıcı elektron əmtəə-nəqliyyat qaiməsi ilə rəsmiləşdirilməmiş yükləri daşınması üçün qəbul etməməlidir. Yükalan və ya yükgöndərən isə elektron əmtəə-nəqliyyat qaiməsi ilə rəsmiləşdirilməmiş yükləri daşıma üçün təqdim etməməli, habelə onu qəbul etməməlidir.

3.8. Əmtəə təyinatlı yüklər yükgöndərənin və ya yükalanın öz avtonəqliyyat vasitələri ilə daşındığı təqdirdə elektron əmtəə-nəqliyyat qaiməsini tərtib edən şəxs elektron əmtəə-nəqliyyat qaiməsinin "Daşıyıcı" sütununda bu barədə qeyd aparır.

3.9. Yükün daşınması bir neçə daşıma ilə həyata keçirildiyi halda, hər bir daşıma üzrə elektron əmtəə-nəqliyyat qaiməsi ayrıca tərtib olunmalıdır.

3.10. Yüklərin daşınmasına dair elektron əmtəə-nəqliyyat qaiməsi qanunvericiliyə uyğun olaraq kağız daşıyıcıda çap edilə bilər.

3.11. Daşıyıcı tərəfindən yüklər daşımaya qəbul edilənədək tərtib edilmiş elektron əmtəə-nəqliyyat qaiməsində göstərilən məlumatlarda dəyişiklik edilməsi zərurəti yarandıqda onu tərtib edən vergi ödəyicisi tərəfindən informasiya sistemində elektron əmtəə-nəqliyyat qaiməsində düzəlişlər aparılmaqla imzalanmalı və təsdiq üçün qarşı tərəflərin bu səhifədə yaradılmış elektron kabinetinə göndərilməlidir. Bu Qaydaların 2.2.4-cü, 2.2.5-ci, 2.2.6-cı, 2.2.9-cu və 2.2.10-cu yarımbəndlərində qeyd olunan əməliyyatlar üzrə yüklərin daşınması zamanı daşıyıcı ayrıca şəxs olmadığı halda düzəliş edilmiş elektron əmtəə-nəqliyyat qaiməsi təsdiq üçün qarşı tərəflərə göndərilmir.

3.12. Daşıma müqaviləsinə xitam verildikdə, daşıma baş tutmadıqda və ya digər səbəblərdən tərtib edilmiş elektron əmtəə-nəqliyyat qaiməsi ləğv edilməli olduğu halda, həmin qaiməni tərtib edən vergi ödəyicisi gücləndirilmiş elektron imza vasitəsilə informasiya sistemində yaradılmış "Elektron əmtəə-nəqliyyat qaiməsi" altsistemində onu ləğv etməklə imzalamalı və təsdiq üçün qarşı tərəflərin bu səhifədə yaradılmış elektron kabinetinə göndərməlidir.

3.13. Bu Qaydaların 2.2.4-cü, 2.2.5-ci, 2.2.6-cı, 2.2.9-cu və 2.2.10-cu yarımbəndlərində qeyd olunan əməliyyatlar üzrə yüklərin daşınması zamanı daşıyıcı ayrıca şəxs olmadığı halda ləğv edilmiş elektron əmtəə-nəqliyyat qaiməsi təsdiq üçün qarşı tərəflərə göndərilmir.

3.14. Elektron əmtəə-nəqliyyat qaiməsinin ləğv edilməsi onu qəbul edən şəxslər tərəfindən ayın sonuncu gününədək təsdiq edilməlidir. Elektron əmtəə-nəqliyyat qaiməsinin ləğv olunması təsdiq edilmədikdə, elektron əmtəə-nəqliyyat qaiməsi proqram təminatı tərəfindən ləğv edilməmiş sayılır.

### 4. Elektron əmtəə-nəqliyyat qaiməsinin uçotunun aparılması və məlumatlara çıxış imkanı

4.1. Elektron əmtəə-nəqliyyat qaiməsinin uçotu hər bir vergi ödəyicisi üzrə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi vasitəsilə həyata keçirilir.

4.2. Elektron əmtəə-nəqliyyat qaiməsinin seriyası və nömrəsi "AYNA" informasiya sistemi vasitəsilə verilir və təkrarlanmır.

4.3. Əmtəə təyinatlı yüklərin elektron əmtəə-nəqliyyat qaiməsi ilə rəsmiləşdirilmədən daşınmasına nəzarəti həyata keçirən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, habelə malların, o cümlədən kənd təsərrüfatı məhsullarının topdansatışla məşğul olan ticarət obyektlərinə, bazarlara elektron əmtəə-nəqliyyat qaiməsi olmadan gətirilməsinin qarşısının alınması səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemində yaradılmış "Elektron əmtəə-nəqliyyat qaiməsi" altsistemində olan məlumatlara çıxış imkanına malikdirlər və öz səlahiyyətləri çərçivəsində həmin məlumatlardan istifadə edirlər.

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli 355 nömrəli Qərarı ilə təsdiq edilmişdir**

**2 nömrəli əlavə**

# Yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi qaydaları

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Vergi Məcəlləsinin 71-3.2-ci maddəsinə əsasən hazırlanmışdır və yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi qaydalarını müəyyən edir.

1.2. Yük daşıyan avtonəqliyyat vasitəsinin fəaliyyətinin uçotunu həyata keçirmək üçün tətbiq edilən elektron yol vərəqi əsasında həmin nəqliyyat vasitəsi ilə görülən işin və sərf edilən yanacağın həcmi müəyyən edilir.

1.3. Yükün daşınması məqsədilə avtonəqliyyat vasitəsindən istifadə edilməsi bu Qaydaların əlavəsində göstərilən formaya uyğun olaraq tərtib edilən yük avtonəqliyyatı üçün elektron yol vərəqəsi ilə rəsmiləşdirilir.

1.4. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.11-10-cu maddəsinə əsasən "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq avtomobil nəqliyyatı vasitəsilə əmtəə təyinatlı yüklərin daşınmasına görə yük avtonəqliyyatı üçün elektron yol vərəqini tərtib etmək vergi ödəyicisinin vəzifəsidir.

### 2. Yük avtonəqliyyatı üçün elektron yol vərəqinin tərtib edilməsi

2.1. Daşınma müqaviləsi, digər qanuni əsaslarla haqq müqabilində və ya özünə məxsus yüklərin daşınmasını yerinə yetirən, mülkiyyət, icarə və ya istifadə hüququ ilə nəqliyyat vasitələrinə malik olan hüquqi şəxs və ya fərdi sahibkar tərəfindən yüklərin şəhərlərarası, rayonlararası, şəhərdaxili, rayondaxili, şəhərətrafı və rayonətrafı daşınması zamanı elektron yol vərəqi Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemində (bundan sonra - informasiya sistemi) yaradılmış "Yük avtonəqliyyatı üçün elektron yol vərəqi" altsistemində Azərbaycan dilində hazırlanır.

2.2. Yük avtonəqliyyatı üçün elektron yol vərəqi tərtib edilərkən daşımanın xarakterindən asılı olaraq əməliyyatın növü hissəsində aşağıdakılardan biri seçilir:

2.2.1. elektron əmtəə-nəqliyyat qaiməsi ilə rəsmiləşdirilmiş yüklərin daşınması;

2.2.2. elektron əmtəə-nəqliyyat qaiməsi ilə rəsmiləşdirilməsi tələb olunmayan digər yüklərin daşınması.

2.3. Elektron yol vərəqində aşağıdakı məlumatlar əks etdirilir:

2.3.1. Elektron yol vərəqinin "seriyası", "nömrəsi" və "tarixi" sətirlərində - elektron yol vərəqinin proqram tərəfindən avtomatik generasiya olunan seriyası, nömrəsi və tarixi;

2.3.2. "QR Code (Quick Response Code - Sənədin sürətli məlumat kodu)" sətrində - xüsusi qurğular vasitəsilə məlumatların oxunmasını özündə əks etdirən optik ştrix-kod, sənədin sürətli məlumat kodu;

2.3.3. "Elektron yol vərəqinin statusu" sətrində - elektron yol vərəqinin statusu (cari/düzəliş/ləğv);

2.3.4. "Əməliyyatın növü" sətrində - bu Qaydaların 2.2-ci bəndində qeyd olunan əməliyyatlara dair məlumatlar;

2.3.5. "Sürücü" xanasında - avtonəqliyyat vasitəsini idarə etmək hüququ olan, daşımalar prosesində birbaşa iştirak edən şəxsin adı, atasının adı, soyadı və FİN kodu;

2.3.6. "Sürücülük vəsiqəsi" xanasında - avtonəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxsin sürücülük vəsiqəsinin nömrəsi və növü;

2.3.7. "Nəqliyyat vasitəsi" xanasında - vergi ödəyicisinin mülkiyyətində və ya istifadəsində olan nəqliyyat vasitəsinin markası, növü və dövlət qeydiyyat nişanı;

2.3.8. "Qoşqu (Yarımqoşqu)" xanasında - qoşqu və ya yarımqoşqu olduğu halda dövlət qeydiyyat nişanı;

2.3.9. "Marşrutu" xanasında - əvvəlcədən müəyyən edilmiş yük avtonəqliyyatının hərəkət istiqaməti;

2.3.10. "Yükgöndərən" xanasında - vergi ödəyicisi olan hüquqi şəxsin tam adı, VÖEN-i və ya fiziki şəxsin adı, atasının adı, soyadı, VÖEN-i, yükün göndərildiyi təsərrüfat subyektinin (obyektinin) vergi orqanındakı uçot kodu və ünvanı, vergi ödəyicisi olmadığı halda adı, atasının adı, soyadı, FİN kodu və yükün göndərildiyi ünvanı;

2.3.11. "Yükalan" xanasında -vergi ödəyicisi olan hüquqi şəxsin tam adı, VÖEN-i və ya fiziki şəxsin adı, atasının adı, soyadı VÖEN-i, yükün qəbul edildiyi təsərrüfat subyektinin (obyektinin) vergi orqanındakı uçot kodu və ünvanı, vergi ödəyicisi olmadıqda adı, atasının adı, soyadı, FİN kodu və yükün qəbul edildiyi ünvanı;

2.3.12. "Yol vərəqini verən məsul şəxs (dispetçer)" xanasında - yük avtonəqliyyatını şəhərlərarası, şəhərdaxili və şəhərətrafı göndərməyə məsul şəxsin adı, atasının adı, soyadı, FİN kodu;

2.3.13. "Nəqliyyat vasitəsinin hərəkətinə dair məlumatlar" xanasında - yük avtonəqliyyatının xəttə çıxma, xətdən qayıtma vaxtları, boşdayanma vaxtı və səbəbləri, sayğacın göstəriciləri;

2.3.14. "Yanacağa dair məlumatlar" xanasında - işin əvvəlinə və sonuna, iş icrası üçün sürücüyə verilmiş, iş ərzində sərf olunmuş yanacağa dair məlumatlar;

2.3.15. "Yanacaq və sürtkü materialları üzrə məsul şəxs" xanasında - yanacaq və sürtkü materiallarına məsul olan şəxsin adı, atasının adı, soyadı və FİN kodu;

2.3.16. "Nəqliyyat vasitəsi ilə görülən iş" xanasında - işin icrası haqqında məlumat (haradan haraya), getdiyi yürüş, daşıdığı yükün miqdarı (həcmi), daşınan yükün sənədinə dair məlumatlar;

2.3.17. "Görülən işin tərtib edilməsinə məsul şəxs" xanasında - nəqliyyat vasitəsi ilə görülən işin tərtib edilməsinə məsul şəxsin adı, atasının adı, soyadı və FİN kodu;

2.3.18. "Nəqliyyat xidmətinə görə haqq-hesab" xanasında - nəqliyyat vasitəsi ilə görülmüş işə görə haqq-hesabla bağlı məlumatlar;

2.3.19. "Daşıma haqqını ödəyən şəxs" xanasında - vergi ödəyicisi olduğu halda hüquqi şəxsin tam adı, VÖEN-i və ya fiziki şəxsin adı, atasının adı, soyadı, VÖEN-i , vergi ödəyicisi olmadığı halda isə adı, atasının adı, soyadı və FİN kodu;

2.3.20. "Mühasibatlıq üzrə məsul şəxs" xanasında - mühasibatlıq üzrə məsul şəxsin adı, atasının adı, soyadı və FİN kodu;

2.3.21. "Elektron yol vərəqini təsdiq edən şəxs" xanasında - hüquqi şəxs olduqda hüquqi şəxsin səlahiyyətli nümayəndəsinin adı, atasının adı, soyadı və FİN kodu, fərdi sahibkar olduğu halda adı, atasının adı, soyadı və FİN kodu.

2.4. Elektron yol vərəqində qeyd edilən məbləğlər Azərbaycan Respublikasının pul vahidi - manatla göstərilir.

2.5. Elektron yol vərəqinin tərtibi zamanı operativliyin təmin edilməsi məqsədilə VÖEN, FİN kodu, nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı məlumatları daxil edilməklə müvafiq xanalar aidiyyəti dövlət informasiya sistemlərində və ehtiyatlarında olan məlumatlar əsasında avtomatik doldurulur.

2.6. Qaydaların 2.3.8-ci, 2.3.11-ci (bu Qaydaların 2.2.1-ci yarımbəndi üzrə yüklərin daşınması istisna olmaqla), 2.3.14-cü və 2.3.15-ci yarımbəndlərində qeyd olunan məcburi xarakter daşımayan xanalardan (sətirlərdən) başqa elektron yol vərəqində digər xanaların (sətirlərin) doldurulması zəruridir və həmin xanalar (sətirlər) tam doldurulduqda yol vərəqi tərtib edilmiş hesab edilir. Onun boş qalmış xanaları (sətirləri) olarsa, bunlar proqram təminatı tərəfindən "0" (sıfır) kimi qəbul edilir.

### 3. Yük avtonəqliyyatı üçün elektron yol vərəqinin tətbiqi və istifadəsi

3.1. Yük avtonəqliyyatı ilə şəhərlərarası, rayonlararası, şəhərdaxili, rayondaxili, şəhərətrafı və rayonətrafı yüklərin daşınması zamanı daşıyıcı tərəfindən elektron yol vərəqi tərtib edilir.

3.2. Bu Qaydaların 2.2.1-ci yarımbəndində qeyd olunan əməliyyat üzrə elektron yol vərəqi elektron əmtəə-nəqliyyat qaiməsi əsasında tərtib edilir.

3.3. Vergi ödəyicisi informasiya sisteminə daxil olaraq "İdarəetmə səhifəsi" vasitəsilə yük avtomobilini göndərməyə məsul şəxsə (dispetçerə) səlahiyyət verməlidir. Bundan sonra məsul şəxs, yəni dispetçer ona verilmiş səlahiyyət daxilində informasiya sistemində yaradılmış "Yük avtonəqliyyatı üçün elektron yol vərəqi" altsistemində müvafiq əməliyyatlar apara bilər.

3.4. Yol vərəqini verən məsul şəxs (dispetçer) gücləndirilmiş elektron imza vasitəsilə informasiya sisteminə daxil olaraq "Yük avtonəqliyyatı üçün elektron yol vərəqi" altsistemində əməliyyatın növünə uyğun olaraq sürücü, sürücülük vəsiqəsi, nəqliyyat vasitəsi, olduğu halda qoşqu-yarımqoşqu, marşrut, yükgöndərən və yükalan, xəttə çıxma (tapşırığa görə), xətdən qayıtma (tapşırığa görə), sayğacın göstəricisi (çıxanda), daşınan yükün sənədi barədə məlumatları qeyd etməklə elektron yol vərəqini tərtib etməklə imzalayır.

3.5. Yanacaq və sürtkü materialları ilə bağlı vergi ödəyicisi tərəfindən informasiya sistemində olan "İdarəetmə səhifəsi" vasitəsilə səlahiyyət verilmiş məsul şəxs gücləndirilmiş elektron imza vasitəsilə "Yük avtonəqliyyatı üçün elektron yol vərəqi" altsisteminə daxil olaraq dispetçer tərəfindən tərtib edilmiş elektron yol vərəqinin yanacağa dair məlumatlar hissəsini doldurmaqla imzalamalıdır.

3.6. Vergi ödəyicisi tərəfindən informasiya sistemində olan "İdarəetmə səhifəsi" vasitəsilə səlahiyyət verilmiş və görülən işin tərtib edilməsinə məsul şəxs tapşırıq yerinə yetirildikdən sonra 3 (üç) gün müddətində gücləndirilmiş elektron imza vasitəsilə "Yük avtonəqliyyatı üçün elektron yol vərəqi" altsisteminə daxil olaraq elektron yol vərəqində nəqliyyat vasitəsi ilə görülmüş iş hissəsində olan məlumatları və nəqliyyat vasitəsinin hərəkətinə dair məlumatlar hissəsində boşdayanmaya dair məlumatları doldurmaqla imzalamalıdır.

3.7. Tapşırıq yerinə yetirildikdən sonra dispetçer, yanacaq və sürtkü materialları üzrə məsul şəxslər gücləndirilmiş elektron imza vasitəsilə "Yük avtonəqliyyatı üçün elektron yol vərəqi" altsisteminə daxil olaraq elektron yol vərəqində olan xəttə çıxma və xətdən qayıtma vaxtları, iş ərzində sərf olunan yanacağın həcmi barədə faktiki məlumatları, tapşırıqdan qayıdan zaman sayğacın göstəricisi və işin sonunda qalıq yanacaq barədə məlumatları doldurmaqla imzalamalıdır.

3.8. Vergi ödəyicisi informasiya sistemində "İdarəetmə səhifəsi" vasitəsilə nəqliyyat vasitəsi ilə görülmüş işə görə haqq-hesabın aparılması məqsədilə mühasibatlıq üzrə müvafiq məsul şəxsə səlahiyyət verməlidir.

3.9. Mühasibatlıq üzrə məsul şəxs hər günün sonunda (vergi ödəyicisinin iş xüsusiyyətlərinə uyğun olaraq həftənin, ayın və s.) gücləndirilmiş elektron imza vasitəsilə informasiya sistemində yaradılmış "Yük avtonəqliyyatı üçün elektron yol vərəqi" altsisteminə daxil olaraq tam doldurulmuş, dispetçer, yanacaq və sürtkü materialları üzrə məsul şəxslər, o cümlədən görülən işin tərtib edilməsinə məsul şəxs tərəfindən imzalanmış elektron yol vərəqinin nəqliyyat xidmətinə görə haqq-hesab hissəsini doldurmaqla imzalamalıdır.

3.10. Elektron yol vərəqini tərtib edən vergi ödəyicisi hüquqi şəxs olduqda hüquqi şəxsin rəhbəri tərəfindən, fərdi sahibkar olduğu halda həmin şəxs bu Qaydaların 3.9-cu bəndində qeyd olunan imzalama prosesi yekunlaşdıqdan sonra gücləndirilmiş elektron imza vasitəsilə həmin elektron yol vərəqini imzalamalıdır.

3.11. Hüquqi şəxsin rəhbəri və ya fərdi sahibkar tərəfindən elektron yol vərəqinin imzalanması səlahiyyəti digər vəzifəli şəxslərə (baş mühasib və ya onu əvəz edən şəxsə) həvalə edilə bilər.

3.12. Elektron yol vərəqi qanunvericiliyə uyğun olaraq kağız daşıyıcıda çap edilə bilər.

3.13. Elektron yol vərəqində qeyd edilən məlumatlarda dəyişiklik edilməsi zərurəti yarandıqda informasiya sistemində elektron yol vərəqində düzəlişlər aparmaqla həmin şəxs tərəfindən imzalanmalıdır.

3.14. Müqaviləyə xitam verildikdə, daşıma baş tutmadıqda və ya digər səbəblərdən tərtib edilmiş elektron yol vərəqi ləğv edilməli olduğu halda, həmin yol vərəqini tərtib edən vergi ödəyicisi gücləndirilmiş elektron imza vasitəsilə informasiya sistemində yaradılmış "Yük avtonəqliyyatı üçün elektron yol vərəqi" altsistemində onu ləğv edir.

### 4. Yük avtonəqliyyatı üçün elektron yol vərəqinin uçotunun aparılması

4.1. Yük avtonəqliyyatı üçün elektron yol vərəqinin uçotu Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi vasitəsilə həyata keçirilir.

4.2. Elektron yol vərəqinin seriyası və nömrəsi "AYNA" informasiya sistemi vasitəsilə verilir və təkrarlanmır.

# "Məzunlarınızın əl işi olan Bakını memarlıq muzeyi də adlandırmaq olar"

## Dünya memarları AzMİU-da olublar





**Oktyabrın 5-də Beynəlxalq Memarlar İttifaqının prezidenti Xose Luis Kortes (Meksika), Beynəlxalq Memarlar İttifaqının, həmçinin VI Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin münsiflər heyətinin üzvləri - Deniz İncedayi (Türkiyə), Divya Kuş (Hindistan), Cüzeppe Kappoçin (İtaliya), Kevin Bingham (Cənubi Afrika) Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) olublar.**

Qonaqlarla görüşdə Azərbaycan Memarlar İttifaqının sədri, AzMİU-nun Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasının müdiri professor Elbay Qasımzadə də iştirak edib.

AzMİU-nun rektoru, memarlıq doktoru Gülçöhrə Məmmədova qonaqlara universitet haqqında geniş məlumat verib. Ölkəmizdə memarlıq və inşaat sahəsi üzrə yüz illik ali təhsil ənənəsinin olduğunu vurğulayan rektor AzMİU-nun formalaşmasından danışıb. Professor Gülçöhrə Məmmədova bildirib ki, Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü və gərgin səyləri ilə 1975-ci ildə yaradılan AzMİU o zamanlar öz profili üzrə Cənubi Qafqazın ən böyük ali təhsil müəssisəsi olub: "Bu gün universitetimizdə memarlığın və inşaatın bütün istiqamətləri üzrə kadr hazırlığı həyata keçirilir. Hazırda on bir minə yaxın tələbəmiz, əlli mindən çox məzunumuz var və gələcək illərdə bu rəqəmlər artacaq. Bu da ölkəmizdə inşaat sahəsinin, memarlığın inkişafı ilə əlaqədardır. Ümumiyyətlə, son iyirmi ildir ki, ölkəmizdə aparılan sürətli tikinti-quruculuq işləri və son üç ildir ki, işğal altında olan torpaqlarımızın azad olunması memarlara və inşaat mühəndislərinə tələbatı xeyli artırıb".

Professor Gülçöhrə Məmmədova universitetin beynəlmiləlləşdirilməsi ilə bağlı aparılan sistemli işlərdən də danışıb. Rektor qeyd edib ki, Dünya Universitetləri Assosiasiyasına üzv olan AzMİU-nun memarlıq və inşaat mühəndisliyi üzrə dünyanın ən qabaqcıl ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq əlaqələri mövcuddur: "Əməkdaşlıq etdiyimiz universitetlər arasında Türkiyə, İtaliya, Fransa, İspaniya və MDB ölkələrinin ali təhsil müəssisələri çoxluq təşkil edir. Biz beynəlxalq əlaqələrimizdən istifadə edərək modernləşmə işini də həyata keçiririk. Məsələn, memarlıq ixtisasına Böyük Britaniya Memarlıq Kral İnstitutu (RİBA) tərəfindən akkreditasiya verilib ki, postsovet məkanında başqa heç bir ali təhsil ocağının memarlıq ixtisası üzrə belə nailiyyəti yoxdur. Aparıcı universitetlərlə ikili diplom müqaviləmiz əsasında tədris proqramlarımız yenilənib, daha da müasirləşdirilib".

Professor Elbay Qasımzadə isə çıxışında Azərbaycandakı qədim Alban məbədlərinə diqqət çəkərək qonaqlara professor Gülçöhrə Məmmədovanın tədqiqatlarından danışıb. Elbay Qasımzadə qeyd edib ki, bu məbədlərin böyük əksəriyyəti vaxtilə işğal altında olub və ermənilərin təxribatlarına məruz qalıb: "Azərbaycanda Alban və xristian memarlığını mərhum professor Davud Axundov araşdıraraq dünyaya təqdim edib. Professor Gülçöhrə Məmmədova isə onun ən böyük davamçısı olaraq bu işləri davam etdirir. Hesab edirəm ki, işğaldan azad olunmuş ərazilərimizdə saxtalaşdırılan memarlıq abidələrimiz onun rəhbərliyi ilə peşəkar memarlarımız tərəfindən yüksək şəkildə bərpa edilərək əvvəlki görkəminə qaytarılacaqdır".

Beynəlxalq Memarlar İttifaqının prezidenti, meksikalı professor Xose Luis Kortes çıxış edərək görüş üçün təşəkkürünü bildirib və Azərbaycanda memarlığa, xüsusilə ölkənin memarlıq təhsilinə qayğı göstərildiyini deyib. Beynəlxalq Memarlar İttifaqının prezidenti qeyd edib ki, Azərbaycanda memarlığa olan xoş münasibət sevindiricidir və yaxın gələcəkdə reallaşacaq böyük uğurların xəbərçisidir.

Beynəlxalq Memarlar İttifaqının üzvü, Türkiyənin Memar Sinan Universitetinin professoru Deniz İncedayi AzMİU haqqında və çalışdığı universitetin AzMİU ilə əməkdaşlığından məlumatlı olduğunu bildirib. O qeyd edib ki, AzMİU ilə yaxından tanışlığı onun bu universitet haqqında təəssüratlarını daha da yüksəldib və əməkdaşlıq üçün yeni perspektivlər yaradıb.

Beynəlxalq Memarlar İttifaqının üzvü, memarlığın inkişafı üzrə nüfuzlu "Barbara Kappoçin" Fondunun prezidenti Cüzeppe Kappoçin AzMİU və ölkəmizdə memarlığın inkişafı ilə bağlı təəssüratlarının yüksək olduğunu qeyd edib: "Bilirəm ki, bu universitetin İtaliyanın memarlıq ali təhsil müəssisələri ilə əlaqələri yüksək səviyyədədir. Bu, sevindirici haldır. Azərbaycana səfərim və AzMİU ilə tanışlıq təəssüratlarımı artırdı. Hesab edirəm ki, biz əlaqələrimizi daha da inkişaf etdirə bilərik".

Beynəlxalq Memarlar İttifaqının üzvü, Hindistan Memarlıq İnsitutunun professoru Divya Kuş Azərbaycan memarlığına vurğunluğunu ifadə edib və Bakını memarlıq muzeyi adlandırıb: "Bizə məlumat verildi ki, şəhərdəki tikililərin böyük əksəriyyəti sizin məzunlarınız tərəfindən layihələndirilib və inşa olunub. Şəhərin, demək olar ki, hər yerində fərqli memarlıq nümunələrinə rast gəlmək mümkündür. Məzunlarınızın əl işi olan Bakını memarlıq muzeyi də adlandırmaq olar. Düşünürəm ki, Bakının gözəlliyində sizin universitetinizin payı böyükdür və bu uğurunuza görə sizi təbrik edirəm".

Görüşdən sonra qonaqlar rektor Gülçöhrə Məmmədova və Memarlıq fakültəsinin professor-müəllim heyətinin müşayiəti ilə fakültənin maddi-texniki bazası, tədris laboratoriyaları, tələbələrin kurs işləri, müxtəlif zamanlarda müəllim və tələbələr tərəfindən icra edilən layihələrin eskizləri ilə tanış olublar. Tanışlıqdan sonra lokal müzakirələr təşkil olunub və xarici memarların fakültə ilə əməkdaşlıq imkanları müzakirə edilib.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*





# Astronavtlar Bakıda özlərinə gənc "həmkar"lar da tapdılar

**Azərbaycanda fəaliyyət göstərən dövlət qurumları və qeyri-hökumət təşkilatlarının birinci məqsədi xalqa xidmət etməkdir.**



Uzun illərin sınağından çıxmış belə bir deyim var: kadrlar hər şeyi həll edir. Bu, doğrudan da, belədir. Kadr yerində olanda, işini peşəkarcasına və vicdanla yerinə yetirəndə həm insanlar bunun faydasını görürlər, həm də öz vicdanı rahat olur, xalqının yanında başıuca, alnıaçıq dayanır.

Belə faydalı iş görən bir qurumun adını çəkmək yerinə düşür: "DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti. Mərkəz Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Müşahidə Şurasının qərarı ilə yaradılıb. İki ildir fəaliyyət göstərən mərkəzin məqsədi şəhid ailəsi üzvlərinin, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların uşaqları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, aztəminatlı ailələrin və əlilliyi olan şəxslərin arasında istedadlı olanları mərkəzə cəlb etməklə, onların yaradıcılıq potensialına dəstək vermək, inkişaf etdirməkdir.

Məlumdur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində sosial sahənin inkişafına və həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir. Bu istiqamətdə dövlət səviyyəsində icra olunan layihələrlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri də xüsusi əhəmiyyəti ilə seçilir. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi də Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılıb. Burada audio-səsyazma və media, floristika, bağçılıq və landşaft dizaynı, bədii oyma, xalçaçılıq, toxuma və tikmə, dərzilik, fotoqrafiya, musiqi, dulusçuluq, təsviri incəsənət, rəqs, kulinariya və səhnə ifaçılığı istiqamətində faydalı işlər görülür. Bu istiqamətlərdə görülən işləri sadalmağa gərək olmadığını düşünərək, təkcə onu qeyd etmək istəyirik ki, mərkəzin açıq havada müxtəlif tədbirlərin keçirilməsi üçün geniş həyətyanı sahəsi var. Burada reabilitasiya məqsədi ilə meditasiya, yoqa və digər fiziki təlimlərin, müxtəlif sərgilərin, satış-sərgi yarmarkalarının təşkili, floristika və landşaft dizaynı üzrə təlimlərin keçirilməsi, həmçinin pavilyon kimi istifadə edilərək inklüziv televiziya verilişlərinin çəkilməsi üçün şərait mövcuddur.

Bütün bu işlərin davamı olaraq oktyabrın 2-də 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində xüsusi qayğıya ehtiyacı olan uşaqlar və paralimpiyaçıların astronavtlarla görüşü keçirilib. "Kosmos və inklüzivlik" mövzusunda keçirilən bu maraqlı və intellektual görüşdə mərkəzin derektoru Nigar Məmmədova iştirakçılara qurum barədə məlumat verərək istedadlı şəxslərin bacarıq və yaradıcılıq potensialına necə dəstək olduqlarını vurğulayıb. "Azərkosmos"un təhsil üzrə meneceri İmran Muxtarov iştirakçılara qurumun fəaliyyət istiqamətləri, Beynəlxalq Astronavtika Konqresi və "Beynəlxalq astronavtlar proqramı" haqqında ətraflı danışıb.

Amerika Birləşmiş Ştatlarından gələn astronavtlar Con-Devid Bartoe, Entoni Antonelli, Rasti Şvaykart, kanadalı xanım astronavt Juli Payet, Birləşmiş Ərəb Əmirliklərinin astronavt nümayəndəsi Həzza Əl-Mənsuri, ilk misirli xanım astronavt Sara Sabri və ilk braziliyalı kosmik turist Viktor Hespana ilə interaktiv formatda keçirilən görüş tədbir iştirakçılarının ürəyincə olub. Xarici kosmonavtlar kosmosa səyahət və kosmik missiyaları ilə bağlı təəssüratlarını bölüşüb və onlara ünvanlanan sualları məmnuniyyətlə cavablandırıblar. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarları, yəni mərkəzdə yaradılmış hər cür şəraitdən faydalanan Orxan İmanov və Səbinə Əsgərova isə uğur hekayələrini bölüşüblər. Görüşdə Azərbaycanın paralimpiyaçıları Səid Nəcəfzadə, Orxan Aslanov, Dürsədəf Kərimova, Vəli İsrafilov, Əbülfəz Abuzərli, Sona Ağayeva və Vüsal Kazımov da iştirak ediblər.

Qeyd edək ki, 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində məktəblilər, tələbələr, şəhidlərin və müharibə iştirakçılarının övladları, xüsusi qayğıya ehtiyacı olan uşaqlar və gənc alimlərin iştirak etdiyi çoxsaylı görüşlər keçirilib. Yeniyetmə və gənclər arasında kosmos sahəsinə, yüksək texnologiyalara marağın artırılması milli kosmik proqramın əsas məqsədlərindəndir. Adından da bəlli olduğu kimi, "DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" yaradıcı və sosial imtiyazları olan şəxslərin Bakıda keçirilən Beynəlxalq Astronavtika Konqresi fonunda bilavasitə bu sahə ilə bağlı layihələrinin reallaşdırılması üçün hər cür dəstək göstərir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Beynəlxalq Astronavtika Konqresi: İlon Mask sualları cavablandırıb

**"SpaceX"in təsisçisi, baş icraçı direktoru və texniki direktoru İlon Mask oktyabrın 5-də Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin (IAF) plenar iclasına canlı bağlantı ilə qoşulub.**




AZƏRTAC xəbər verir ki, "Gələcək üçün əvəzsiz imkanlar" mövzusunda keçirilən plenar iclas Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Klay Mourinin moderatorluğu ilə baş tutub.

Canlı bağlantı "SpaceX"in inqilabi "Starship" və "Super Heavy" daşıyıcısı haqqında bəhs edən İlon Mask və IAF prezidenti Klay Mouri arasında maraqlı müzakirə formatında keçirilib.

İlon Mask ona ünvanlanmış "SpaceX"in kosmik fəaliyyəti barədə sualları cavablandırıb, hazırda icrası davam edən layihələri haqqında təfərrüatları bölüşüb.

"Onun bu iddialı konsepsiyanın ("Starship" gəmisi) həyata keçirilməsinə sərf etdiyi fədakarlığı adi gəmilərdən təxminən üç dəfə daha böyük bir kosmik gəmi dizayn etməyə imkan verib. O, "Mən, sadəcə, maraqlıyam" deyib və təsdiqləyib ki, sadə bir sual, maraq qığılcımı bizi mümkün olanın hüdudlarından kənara çıxara bilər. Bu, yalnız ən çox maraq göstərənlərin edə biləcəyi bir nailiyyətdir. Hər fikir reallığa çevrilə bilər", - deyə Kley Mouri bildirib.

İlon Mask qeyd edib ki, "Starship" kosmik gəmisi və "SpaceX"in "Starship" adlanan super ağır raketi ekipaj və yükləri Yer orbitinə, Aya, Marsa və ondan kənara daşımaq üçün nəzərdə tutulmuş tamamilə təkrar istifadə edilə bilən nəqliyyat sistemidir. "Starship" dünyanın indiyə qədər hazırlanmış ən güclü buraxılış aparatıdır, 150 metrik tona qədər tamamilə təkrar istifadə edilə bilən və 250 metrik tona qədər sərf edilə bilən yük daşıya bilir.

İlon Maskın sözlərinə görə, "Starship" gəmisi 3-4 ildən sonra Marsa maneəsiz enə bilər. Gəmi həmçinin kosmik laboratoriya kimi istifadə oluna bilər. Onun kosmosda istənilən müddətdə qalması mümkündür. Kosmosda uğurlu eksperimentlər aparmaq üçün bütün şərait mövcuddur. "Gün gələcək biz səhər yeməyimizi Los-Ancelesdə, naharımızı Londonda, şam yeməyini isə Sinqapurda edəcəyik", - deyə İlon Mask əlavə edib.

Tədbirdə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, "Azərkosmos"un İdarə Heyətinin sədri Saməddin Əsədov və bir sıra dövlət rəsmiləri, konqres nümayəndələri iştirak ediblər.

# NASA Azərbaycanın ilk kosmik startapını dəstəkləməyə hazırdır







**"74-cü Beynəlxalq Astronavtika Sərgisində öz ideyamız - "Ayda virtual səyahət" ilə təmsil olunuruq. Biz bu layihəni Azərbaycanın ilk kosmik startapı adlandıra bilərik. Layihəmiz bir sıra ölkələrin bu tip avadanlıqlarını geridə qoyub. NASA-nın nümayəndələri bu startapı dəstəkləməyə hazır olduqlarını bildiriblər. Bizim üçün çox qürurvericidir ki, 31 azərbaycanlı tərəfindən hazırlanmış məhsul burada xarici qonaqlara təqdim olunur".**

Bunu AZƏRTAC-a müsahibəsində 74-cü Beynəlxalq Astronavtika Sərgisində təmsil olunan Azərbaycanın "BirAiny" şirkətinin təsisçisi və rəhbəri Fuad Tağıyev deyib. O bildirib ki, startap layihəsinin xüsusi avadanlığına qalxaraq Ay üzərində uçuş həyata keçirmək olur: "Yəni avadanlıq vasitəsilə aşağı bir qravitasiya ilə düşmə simulyasiyası yaşayırlar. VR - gözlüklə onlar Ayın səthində xarıbülbülləri görürlər. Həmçinin Yer kürəsinin üzərində Azərbaycanın xəritəsini, Zəngəzur dəhlizini görmək olur. Bütün bunlardan sərgi iştirakçıları istifadə edərək Ayda uçuşun simulyasiyasını yaşayırlar".

# Bakıda NASA "Gateway" proqramına həsr olunan plenar iclas keçirilib

**Oktyabrın 5-də Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində "NASA "Gateway" proqramı: Ay orbitində bəşəriyyətin ilk kosmik stansiyası" adlı plenar iclas keçirilib.**

AZƏRTAC xəbər verir ki, NASA "Gateway" Proqramının strateji rabitə meneceri Tiffani Trevisin moderatorluğu ilə keçirilən iclasda "Gateway" proqramının meneceri Con Olansen, Yaponiya Aerokosmik Araşdırmalar Agentliyinin "Gateway" proqram meneceri Fumiya Tsutsui və Beynəlxalq Kosmik Stansiya Proqramının meneceri Frank De Winne və başqaları iştirak ediblər.

İclasda 2025-ci ildə kosmik stansiyanın ilk elementlərinin Ay orbitinə buraxılması öncəsi "Gateway" proqramı üzrə gedişat barədə məlumat verilib. Bildirilib ki, NASA-nın "Gateway" proqramı Ay orbitində bəşəriyyətin ilk kosmik stansiyasını qurmağa yönəlmiş beynəlxalq və kommersiya əməkdaşlığı layihəsidir.

Paneldə "Gateway" proqramı çərçivəsində aparılan elmi araşdırmaların bütün bəşəriyyət üçün faydalı olduğu vurğulanıb. Diqqətə çatdırılıb ki, həmçinin bu proqram "Northrop Grummanın Cygnus" arxitekturası, qabaqcıl günəş elektrik mühərriki və avtonomiya kimi kosmosda mövcud və qabaqcıl texnologiyaların tətbiqi ilə aerokosmik sənayeni inkişaf etdirir. Eyni zamanda, beynəlxalq astronavt qruplarının Ayda daha uzun müddətli qalmaq missiyalarını təşkil edir. Ən vacibi isə bu proqram gələcək nəsli Marsa səyahətə hazırlaşdırır.

Sonda suallar cavablandırılıb.

# Hindistan kosmik iqtisadiyyatdakı payını genişləndirmək niyyətindədir

**Oktyabrın 5-də Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində "Hindistanın kosmik siyasəti 2023: Qlobal kosmik mərkəz olaraq Hindistanın fövqəladə vəziyyəti" mövzusunda plenar iclas keçirilib.**

AZƏRTAC xəbər verir ki, Hindistan Milli Kosmik Təşviqi və Avtorizasiya Mərkəzinin sədri Pawan Goenkanın moderatorluğu ilə keçən iclasda Avstraliya Kosmik Agentliyinin rəhbəri Enriko Palermo, "Voyager Space Hoidings"in tədqiqat üzrə vitse-prezidenti və texniki direktor vəzifəsini icra edən Marşall Smith, İSRO-nun texnoloji inkişaf və innovasiya üzrə direktoru Viktor Cozef və "Boeing" şirkətinin kosmos və beynəlxalq proqramlarının direktoru Valeriy Aksamentov çıxış ediblər.

Qeyd olunub ki, Hindistan hökuməti kosmos sektorunda inkişafa nail olmaq əzmindədir. "Hindistanda yarat, dünya üçün yarat" şüarı ilə reallaşan islahatların bir hissəsi olaraq, Hindistan Milli Kosmos Təşviqi və Səlahiyyətli Mərkəzi (IN-SPACE) yaradılıb. IN-SPACE qeyri-kosmosları təşviq etmək, aktivləşdirmək, icazə vermək və nəzarət etmək üçün qurulub.

Bildirilib ki, aprelin 6-da Hindistan hökuməti Kosmik Siyasəti təsdiqləyib. Bu siyasət ölkənin kosmik tədqiqatları ilə kosmik sektorda özəl sektorun iştirakını institusionallaşdırmağa çalışır.

Viktor Cozef qeyd edib ki, təşkilat (ISRO) qabaqcıl kosmik texnologiyaların tədqiqi və inkişafına diqqət yetirir. O vurğulayıb ki, Hindistan qlobal kosmik iqtisadiyyatdakı payını genişləndirmək niyyətindədir.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
## *açıq tender elan edir*

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Şirvan şəhərində və Göygöl, Qusar, Oğuz, Balakən, Saatlı, Ağsu, Neftçala, Ağstafa və Salyan rayonlarında 1, 2 və 3 otaqlı mənzillərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi 85 (Əlaqə telefinu: (012) 526-01-01 (2637)) ünvanından ala bilərlər.

**İştirak haqqı: 400 AZN**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/h: AZ80CTRE00000000000002138501**

**Büdcə səviyyəsinin kodu - 7**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *İştirak haqqının ödənilməsi ilə bağlı bank sənədi.*
3. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(Sənədin əsli təqdim edilməlidir və ya surəti olduğu təqdirdə notarial qaydada təsdiq edilməlidir).***
4. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
5. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
6. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması* ***(Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir. Arayışın tarixi elan verilən ayı və sonrakı dövrü əhatə etməlidir).***
7. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir, 2022-ci il üzrə).***
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir. Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir).***
9. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması.*
10. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması.*
11. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir).***
12. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir).***
13. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir).***
14. *Tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları rəsmi sorğu vasitəsilə Tender komissiyasına ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **13 noyabr 2023-cü il tarixdə saat 18:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **21 noyabr 2023-cü il saat 18:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi 85** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **22 noyabr 2023-cü il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi
## *açıq tender elan edir*

Respublika üzrə bir sıra məktəbəqədər təhsil müəssisələrinin təmiri, kommunal-kommunikasiya və abadlıq işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (daxili 134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2500,00 (iki min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 20.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (20.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, icra probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 20.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **27 oktyabr 2023-cü il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **06 noyabr 2023-cü il saat 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **07 noyabr 2023-cü il saat 16:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


# OXUCULARIN NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə*
*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |




**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Şuşa İqtisadi Əməkdaşlıq Təşkilatının 2026-cı il üçün turizm paytaxtı seçilib



2023-cü ildə İqtisadi Əməkdaşlıq Təşkilatında Azərbaycan Respublikasının sədrliyi çərçivəsində oktyabrın 4-5-də İran İslam Respublikasının Ərdəbil şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin yüksəksəviyyəli turizm ekspertlərinin 7-ci görüşü və turizm nazirlərinin 5-ci iclası keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, iclaslarda Azərbaycan Respublikasını Dövlət Turizm Agentliyinin nümayəndə heyəti təmsil edib. Tədbir çərçivəsində üzv dövlətlər arasında turizm sahəsi üzrə mövcud əməkdaşlıq perspektivlərinə dair geniş müzakirə aparılıb, müvafiq sahə üzrə qarşılıqlı əlaqələrin daha da gücləndirilməsi istiqamətində görüləcək tədbirlər nəzərdən keçirilib.

İclasda səsvermə nəticəsində Şuşa şəhəri İqtisadi Əməkdaşlıq Təşkilatının 2026-cı il üçün turizm paytaxtı seçilib.

Sonda İƏT-in bu qərarı Ərdəbil Bəyannaməsində əks olunub.

# Mütəxəssislər Bakıda "Kosmosda təhlükəsiz gələcəyin araşdırılması" mövzusunu müzakirə ediblər

**Oktyabrın 5-də Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində "Qalaktika qoruyucuları: Kosmosda təhlükəsiz gələcəyin araşdırılması" mövzusunda plenar iclas keçirilib.**



AZƏRTAC xəbər verir ki, Kosmik Fondun baş vitse-prezidenti Stiv Eisenhartın moderatoru olduğu plenar iclasda İsrail Kosmik Agentliyinin prezidenti Uri Oron və Beynəlxalq Astronavtika Federasiyasının (IAF) beynəlxalq təşkilatlarla əlaqələr üzrə vitse-prezidenti Anil Kumar çıxış ediblər.

Bildirilib ki, qlobal kosmik sektor təhlükəsizlik problemləri ilə müşayiət olunan əhəmiyyətli genişlənmə dövrü yaşayır. Bunu nəzərə alan IAF-ın Təhlükəsizlik üzrə İşçi Qrupu maraqlı tərəflərin iştirakı ilə sessiyalar keçirir, maarifləndirmə tədbirləri icra edir.

Uri Oron qeyd edib ki, təhlükəsiz kosmos mühiti nəinki innovasiyaları gücləndirir, həm də kosmik sistemlərin Yerdəki insanlara faydalarını qoruyur: "Təhlükəsiz kosmos sahəsini inkişaf etdirməklə biz elmi kəşfiyyat, əsaslı innovasiya, kommersiya inkişafı və ahəngdar beynəlxalq əməkdaşlıq üçün sonsuz imkanlar açırıq". Onun sözlərinə görə, aparıcı ekspertlər kosmosda yaranan təhlükəsizlik çağırışlarına və onların həlli üçün potensial strategiyalara işıq salan maraqlı, interaktiv müzakirəyə töhfə verəcəklər.

Vurğulanıb ki, plenar iclasın məqsədi təhlükəsizlik problemləri haqqında məlumatlılığı artırmaq, akademik müzakirələri stimullaşdırmaq və birgə həllərin inkişafını sürətləndirməkdir.

İclasda kosmos mühitinin davamlılığı, kosmik nəqliyyatın idarə olunması, kosmos fəaliyyətlərinə potensial təhlükələr və digər mövzular müzakirə edilib.

Mütəxəssislər yaranan təhlükəsizlik çağırışları haqqında məlumatlılığı artırmaq, məlumat mübadiləsini təşviq etmək, maneələri müzakirə etmək və hamı üçün təhlükəsiz kosmik mühiti təmin etmək üçün birgə həll yollarını araşdırıblar.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

**"Apolo Cons" Məhdud Məsuliyyətli Cəmiyyətə (VÖEN: 1703240621) məxsus tikinti lisenziyası itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazova atası

**ZAUR ŞAHBAZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Əhməd Əhmədzadə

**RƏŞİD RZAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti akademik

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəhbərliyi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5348**
**Sifariş 2556**

**Qiyməti 40 qəpik**